HARUN YƏHYA

ADNAN OKTAR

KOMMUNİST ÇİNİN ZÜLM SİYASƏTİ VƏ ŞƏRQİ TÜRKİSTAN

HARUN YƏHYA (ADNAN OKTAR)

KOMMUNİST ÇİNİN ZÜLM SİYASƏTİ VƏ ŞƏRQİ TÜRKİSTAN

Şərqi Türküstanda kommunist Çin rejiminin zülm siyasəti, işgəncələr və həbsxanalar — və bütün bunların yeganə həlli: Türk-İslam Birliyi.

— 19 fəsil —

Mündəricat

1 Oxucuya 5

2 Yazıçı və əsərləri haqqında 7

3 Ön söz: Axan qanı yalnız Türk-İslam Birliyi dayandırar 10

4 Şərqi Türküstanda uyğurlar və çinlilər bir yerdə hüzurlu yaşaya bilərlər 18

5 Türk-İslam Birliyi nə üçün vacibdir? 24

6 Türk-İslam Birliyi müsəlmanlara nələr qazandıracaq? 33

7 Birlik və bərabərlik Türk-İslam dünyasını gücləndirəcək 43

8 Türk-İslam Birliyi necə olmalıdır? 54

9 Türk-İslam dünyasına çağırış 59

10 Şərqi Türküstanda hüzurun təmin edilməsi üçün çözüm: Türk-İslam Birliyi 62

11 Giriş 102

12 Qorxu dövləti Çin 108

13 Mədəniyyətlər mərkəzi Şərqi Türküstan 120

14 Şərqi Türküstanda kommunist Çin yoxlaması 153

15 Şərqi Türküstana Çin işgəncəsi 162

16 Kommunist Partiyanın zülm siyasəti 261

17 Nəticə 303

18 Əlavə bölmə: Təkamül yalanı 309

19 Ədəbiyyat 335

FƏSİL

Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL

Ön söz: Axan qanı yalnız Türk-İslam Birliyi dayandırar

Bu gün dünyanın bəzi bölgələrində müsəlmanlar çətin vəziyyətdə yaşamaqdadır. Məsələn Çinin ən qərb nöqtəsində yerləşən Şərqi Türküstanda müsəlman qardaşlarımız təxminən 60 ildir müxtəlif işgəncələrə məruz qalırlar və ağla sığmaz təzyiq altındadırlar. 1965-ci ildən sonrakı qırğınlarla birlikdə, öldürülən Şərqi Türküstanlının sayı 35 milyona çatan inanılmaz bir rəqəmdir.

Fələstində müsəlmanlar yarım əsrdən çoxdur ki, qətl edilirlər. Öz torpaqlarında sürgün həyatı yaşayırlar. İraqdan demək olar ki, hər gün ölüm xəbəri gəlir. Kərküklü qardaşlarımız ölüm qorxusuyla yaşayır. Krımda müsəlmanlar çətinliklər altında varlıqlarını davam etdirməyə çalışırlar. Əfqanıstanda demək olar hər gün müsəlman qanı tökülür, Pakistanda minlərlə müsəlman öz ölkəsində mühacir mövqeyinə düşdü. Yaxın keçmişdə bosniyalı müsəlmanlar bütün dünyanın gözü qarşısında, Avropanın ortasında, mərhəmətsizcə soyqırıma məruz qalırlar. Bir çox ölkədə həbsxanalar, düşüncələrinə və inanclarına görə həbs olunmuş müsəlmanlarla doludur. Bu ağrıların, bu qırğınların, bu çətinliklərin, bu əziyyətlərin heç biri yeni deyil. Müsəlmanlar, demək olar yüz ildir təzyiq altında mərhəmətsiz bir şəkildə əzilirlər. Bu fitnənin sona çatması, axan qanın dayanması isə ancaq Türk-İslam Birliyinin qurulmasıyla mümkündür. Fələstini, İraqı, Əfqanıstanı, Şərqi Türküstanı, Krımı, Kərkükü, Moronu qurtaracaq açıq, dəqiq və tək çözüm Türk-İslam Birliyidir.

Artıq daha çox müsəlman qanı axmaması, İslam ölkələrindəki kasıblığın və yoxluğun sona çatması, Türk-İslam coğrafiyasındakı qarışıqlıq, anarxiya və terrorun tam mənasıyla ortadan qalxması, hüzurlu, etibarlı, firavan, aydın bir mədəniyyət qurulması üçün Türk-İslam Birliyinin qurulması əsas şərtdir. Birlik olmayan İslam aləminin, zərər görən müsəlmanları qoruması və nəzarət etməsi mümkün ola bilməz. Amma 1 milyarddan artıq əhalisiylə İslam aləmi birlik olduğunda, dünyanın hər hansı bir ucunda tək bir müsəlmanın barmağı belə zərər görməz. İslam əxlaqının mənşəyində birlik vardır. Allah Quranda "...Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər." (Ənfal surəsi, 73) ayəsiylə yer üzündə təxribatçılığın sona çatması üçün iman edənlərin bir-birləriylə dost olmaları, ittifaq etmələri, birlik və bərabərlik içində olmaları lazım olduğunu bildirmişdir. Bütün müsəlmanlar bu əmrə tabe olmaqla məsuldur. Türk-İslam dünyasının bu birliyi istəməsi lazımdır. Birlik istəməyən ayrılıq istəyir deməkdir və ayrılığın Türk-İslam dünyasına heç bir faydası yoxdur. Müsəlmanların gücü, qüvvəti və mənfəəti birlikdədir.

Çin zülmünü dayandırmanın və qəti nəticə alınmasının tək yolu da Türk-İslam Birliyinin qurulmasıdır. Birlik olmuş Türk-İslam aləmi, son dərəcə çəkindirici və təsirli bir gücə sahib olacaq.

İşğal, təhkim etmə və məcburiyyətlər bölgəyə yalnız narahatlıq, qarışıqlıq, kin və nifrət gətirmişdir. Bu cür üsullarla millətləri istismar etmə dövrü artıq bağlanmışdır. Bu səbəbdən Çin, Şərqi Türküstan xalqının öz-özünü idarə etməsinə icazə versə və iqtisadi müstəqillik haqqı tanısa bundan Çinin də son dərəcə böyük mənfəəti olacaq. Öz sərhədləri içində rahat şəkildə istehsal edən, azad şəkildə yaşayan, qorxu və basqının təsirindən xilas olmuş bir Şərqi Türküstan, Çin üçün yeni bir tərəqqi mərkəzi ola biləcək.

Bu haqların Şərqi Türküstan xalqına verilməsi isə böyük güc və nüfuz sahibi olan Türk-İslam Birliyi sayəsində mümkün ola bilər. Belə bir gücün zaminliyi olsa Çin də ölkəsində yaşayan milyonlarla müsəlman ilə əlaqələrini qüvvətləndirəcək. Ürəkdən Türk-İslam Birliyinə bağlı Şərqi Türküstanın Çinə qarşı düşməncəsinə rəftar nümayiş etdirəcəyi, üsyan etməyəcəyi, Çinin super güc halına gəlməsi üçün dostanə mövqedə

olacağı mövzusunda Çin rəhbərliyi razı salınmalı və etibarları təmin edilməlidir.

Dünyanın ehtiyacı olan şey sülh, sevgi, həmrəylik və ədalətdir. Qurulacaq olan Türk-İslam Birliyinin yer üzündə boynuna götürəcəyi missiya məhz budur. Bu birlik; düşmənlik etmək, intiqam almaq və ya bir təhdid ünsürü olmaq üçün deyil, dünyada sülhün təsisi üçün var olacaqdır. Bu birlik, "hər kəs bizə tabe olsun, geri qalanlar da kölə kimi olsun" mənasında əzməyə və hökmranlığa söykənən birlik deyil.



Türk-İslam Birliyi, bir sevgi birliyidir. Dostluq birliyidir, könül birliyidir. Bu birliyin təməli, sevgi, fədakarlıq, həmrəylik, mərhəmət, tolerantlıq, anlayış və uzlaşmadır. Həmçinin insana hörmət, incəsənətdə, elmdə və texnologiyada ən yüksək nöqtəyə çatmaq birliyin hədəfidir. Birliyin qurulmasıyla, yalnız Türk cəmiyyətləri və müsəlmanlar deyil, bütün dünya aydınlığa qovuşacaqdır.

Türk-İslam Birliyi, ibadət, inanc, düşüncə və ifadə azadlığını tam mənasıyla təmin edəcək. Hər dinin mənsubu istədiyi kimi ibadətini edə biləcək, öz dininə müqəddəs sayılan hər yeri ziyarət edə biləcək, hər düşüncədən və inancdan insanın malı, canı, namus və şərəfi Türk-İslam Birliyinin zəmanətində olacaq.

Birlik olmaq Türk-İslam dünyasina böyük güc qazandiracaq

Türk-İslam aləmi birlik olduğunda, müsəlmanların əzilməsi, xor görülməsi, təzyiq altına alınması, zülmə məruz qalması, qətl edilməsi kimi bir ehtimal olmayacaq, kimsə bunu ağılından belə keçirə bilməyəcək.

Türk-İslam Birliyinin qurulmasıyla, Amerika, Avropa, Çin, Rusiya, İsrail qısaca bütün dünya rahatlayacaq. Terror problemi sona çatacaq, xammalın əldə edilməsinin təmin ediləcək, iqtisadi və ictimai nizam qorunacaq, mədəni qarşıdurma tamamilə ortadan qalxacaq. Amerika əsgərlərini torpaqlarından minlərlə kilometr uzağa göndərmək məcburiyyətində qalmayacaq, İsrail divarlar arxasında yaşamayacaq, Avropa Birliyi ölkələri iqtisadi hər hansı maneə ilə qarşılaşmayacaq, Rusiya təhlükəsizlik narahatlığı duymayacaq, Çin xammal çətinliyi çəkməyəcək.

Türk-İslam Birliyi, müsəlman aləmini inkişaf etdirəcək. Qurulacaq olan İslam ortaq bazarı sayəsində, bir ölkədə istehsal edilən məhsullar, gömrük, kvota kimi maneələrə ilişmədən bir başqa ölkədə asanlıqla satışa çıxarıla biləcək. Ticarət sahəsi genişləyəcək, bütün müsəlman ölkələrin bazar payı artacaq, ixracat inkişaf edəcək, bu, müsəlman ölkələrdəki sənayeləşməni sürətləndirəcək, iqtisadiyyatda təmin ediləcək inkişaf ilə texnologiyada da inkişaf yaşanacaq. İqtisadiyyatı güclü bir Türk-İslam aləmi, qərb dünyası və digər cəmiyyətlər üçün də əhəmiyyətli rifah qaynağı olacaq. Bu cəmiyyətlər qarşılarında güvən içində, narahatlıq duymadan əməkdaşlıq edə biləcəkləri, ticari fəaliyyət içində ola biləcəkləri bir güc tapacaqlar. Həmçinin Qərb təşkilatları və quruluşların davamlı olaraq bu bölgələrin inkişafı üçün köçürdükləri fondlara da gərək

qalmayacaq, bu fondlar dünya iqtisadiyyatının güclənməsi üçün istifadə ediləcək.



Mədəniyyətlər qarşıdurması ssenarilərinin əksinə bu birlik mədəniyyətləri bir-birinə yaxınlaşdıra biləcək. Nəticədə birliyin gətirəcəyi mühitdən bütün dünya istifadə edəcək.

Türk-İslam Birliyinin qurulması üçün bu gün heç bir maneə yoxdur. Yalnız birlik olmağı istəmək lazımlıdır. Səmimiyyətlə bu birlik istənməli, bütün müsəlmanlar bir-birlərinə sevgiylə, anlayışla, təvazökarlıqla, şəfqətlə və mərhəmətlə yaxınlaşıb, bir-birlərinin qardaşları olduğu həqiqətini unutmadan hərəkət etməlidirlər.

FƏSİL

Şərqi Türküstanda uyğurlar və çinlilər bir yerdə hüzurlu yaşaya bilərlər

Bu gün Şərqi Türküstanda etnik bir qarşıdurma qızışdırılmağa çalışılaraq son dərəcə təhlükəli bir oyun oynanmaqdadır. Şərqi Türküstanda yaşayan müsəlman qardaşlarımız, təxminən 60 ildir müxtəlif çətinliklərə sinə gərməkdədirlər, amma heç bir zaman şiddətin, qarışıqlığın tərəfdarı olmamışlar. Uyğur türkləri nəzakəti, dürüstlüyü, səbri, dövlətə itaəti, təvazökarlığı, sədaqət və vəfası ilə şöhrət qazanmış zadəgan bir xalqdır. Bu gözəl insanlar, İslam əxlaqının gərəyi olan bağışlayıcılıq, sülhsevərlik, mehribanlıq, fərqli düşüncələrə və inanclara hörmət göstərmək, insanları irqlərinə görə deyil əxlaqlarına görə qiymətləndirmək kimi gözəl xüsusiyyətlərə malikdir. Bu səbəbdən, bölgədə yaşayan digər xalqlarla xüsusilə də Xan Çinlilərilə heç bir zaman etnik mənşəyə söykənən qarşıdurmaları olmamışdır, bundan sonra da olmayacaq. Uyğur türkləri, Şərqi Türküstan torpaqlarında hər dindən, hər etnik mənşədən və hər düşüncədən insanın bir yerdə, bir-birlərinin həyat haqlarına hörmət edərək, hüzur və güvən içində yaşaya biləcəkləri bir mühit istəməkdədir. Bunun təmin edilə bilməsi üçün izlənilməsi lazım olan əhəmiyyətli yollardan bəziləri bunlardır:



1) Uyğur türklərinin sülhün və hüzurun tərəfdarı olduğu açıqdır. Ancaq bölgədə sükunətin təmin edilə bilməsi, uyğur qardaşlarımızın təhlükəsizliyinin zəmanət edilməsiylə mümkündür. Bu barədə beynəlxalq ictimaiyyətə əhəmiyyətli məsuliyyətlər düşməkdədir. Uyğur qardaşlarımızın və çinli qardaşlarımızın qardaşcasına bir yerdə yaşama imkanının təmin edilməsi və bəzi Xan çinlilərinin həddindən artıq maneə törədilməsi üçün beynəlxalq birliklərin və quruluşların lazımlı dəstəyi

verməsi lazımdır. BM başda olmaq üzrə bu quruluşların Çin rəhbərliyi üzərində meydana gətirəcəkləri demokratik təzyiq, Çin hökumətinin uyğur qardaşlarımızın problemlərinə və haqlı tələblərinə qarşı daha sülhsevər, insan haqlarına hörmətli, diqqətli bir yol izləməsini təmin edəcəkdir. Lazımlı təşviq və istiqamətləndirmələr edildiyində, beynəlxalq ictimaiyyətin qarant rəftarı olduğunda bölgədə sükunətin təmin edilməsi daha asan olacaq.

2) Çinin milli və iqtisadi mənfəətlərini qoruma duyğusu içində olması təbiidir. Ancaq təzyiqlə, məcburiyyətlə və təhkimlə bu təmin edilməz. Çini firavan edəcək, iqtisadi və ictimai inkişafını sağlamlaştıracaq olan yol, insan haqlarına hörmətli, demokrat, mehriban, fikir və inanc azadlığını qoruyan bir anlayış içində olmasıdır. Çinin enerji qaynaqlarını əldə edə bilməmək, iqtisadi istiqamətdən itkiyə məruz qalmaq, torpaqlarını itirmək, dağılıb parçalanmaq kimi qorxularını tam mənasıyla aradan qaldıra biləcək tək çarə isə Türk-İslam Birliyinin qurulması olacaq. Türk-İslam Birliyi sərhədlərin ləğv edildiyi, ticarət və sərmayə azadlığının olduğu, enerji qaynaqlarına bütün cəmiyyətlərin bərabər olaraq əldə edə bildiyi bir mühit təmin edəcək. Beləcə Çin sərmayələrini, Tanzaniyadan İndoneziyaya qədər çox geniş bir sahəyə yaya biləcək, mallarını nəhəng bir coğrafiyada sata biləcək, müsəlmanlar Çində çox böyük sərmayələr qoya biləcəklər. Türk-İslam Birliyinin qurulmasıyla iqtisadi istiqamətdən sürətlə inkişaf edəcək olan Çin, vətəndaşlarını ucuz iş-gücü olaraq istifadə etmək zəruriliyindən də qurtaracaq, Çinin hər yerinə bolluq və bərəkət gələcəkdir.

3) İslam sülh dinidir. İslamda hər cür şiddət haramdır. Allah Quranda müsəlmanlara bağışlayıcı olmağı əmr etmişdir. Qurana və Peyğəmbərimiz (s.ə.v)-ə tabe olan bir müsəlman sülhsevər, sevgi dolu, şəfqətli, mərhəmətli, səbirli, etidallı olmaqla məsuldur. Quran əxlaqı müsəlmanları qəzəblərini boğub məğlub etməklə, pisliyə qarşı yaxşılıqla cavab verməklə, hər zaman gözəl sözlü və rəftarlı olmaqla, ən pis şərtlərdə belə bağışlamaqla, öz əleyhinə olsa belə ədalətli davranmaqla

öhdəlik vermişdir. İslam əxlaqının öyrənilməsi və yayılması Çin üçün böyük bir gözəllikdir. Əgər Çin hökuməti, öz ölkəsində Xan çinlilərinin terror hərəkətlərində olmasından qorxursa, şiddətin və anarxiyanın olmamasını istəyirsə, İslam əxlaqının izah edilməsini və öyrədilməsini təşviq etməlidir. Quran əxlaqını gərəyi kimi yaşayan insanların olduğu Çində, hərbi yığnaqlar etməyə və təhlükəsizlik tədbirləri almağa gərək qalmaz. Xaos tamamilə dayanar, narahatlıqların hamısı sona çatar. Silahlara milyonlarla dollar sərmayə qoymadan, minlərlə kəşfiyyat personalı vəzifələndirmədən, vətəndaşlarının zənginliyinə xərclənəcək pulu hərbi sərmayələrə xərcləmədən bir-birinə güvənən, bir-birinə hörmətli, bir-birinə anlayışla yaxınlaşan, dövlətinə son dərəcə bağlı və hörmətli fərdlərin yaşadığı hüzurlu cəmiyyət meydana gələr. Çin dövlətinin istədiyi nizam və tarazlıq da təbii olaraq təmin edilər.

4) Uyğur qardaşlarımızın insani şərtlərə sahib olma, dinlərini azad bir şəkildə yaşaya bilmə, ibadətlərini dilədikləri kimi yerinə gətirə bilmə, mədəniyyətlərini qoruma, varlıq haqlarını davam etdirmə tələblərinin hamısı haqlı və insani tələblərdir. Bu tələbləri reallaşdırmanın ən təsirli yolu isə, Uyğur xalqının böyük bir mədəni tərəqqi etməsi, anti-darvinist, anti-materialist təhsillə özlərini çox yaxşı yetişdirmələri, iqtisadi güclərini artırmaları, mənəvi və maddi çox güclənmələridir.

Uyğur Türk xalqı, geniş Çin coğrafiyasında müsəlmanların və İslam dininin ən əhəmiyyətli nümayəndəsi olduqlarını unutmamalıdır. Əfəndilikləri ilə, zadəganlıqları ilə, təvazökarlıqları ilə, stabil və etidallı

olmalarıyla Çin xalqına nümunə olmalıdırlar. Mədəni istiqamətdən özünü çox yaxşı yetişdirmiş, maddi olaraq güclənmiş bir Uyğur xalqının həm öz haqlarını qoruma imkanlarının, həm də İslam əxlaqını izah etmə və yayma imkanlarının çox geniş olacağı açıqdır. Allahdan çox qorxan, Allahı çox sevən, milli mədəniyyətlərini çox yaxşı mühafizə edən, anti-darvinist, anti-materialist, bir-birlərini çox sevən, Quran əxlaqını mükəmməl əməl edən, sülhün, sevginin, tolerantlığın, mərhəmətin tərəfdarı olan Uyğur cəmiyyətinin gələcəyi Allahın icazəsiylə çox aydınlıq və gözəl olacaqdır.

Yaşadığımız dövr hz. İsa (ə.s)-ın yenidən dünyaya gələcəyi, hz. Mehdi (ə.s)-ın zühur etdiyi, çox mübarək bir dövrdür. Artıq döyüşlərin, qarşıdurmaların sona çatacağı, silahlanmanın sona çatacağı, insanların bir-birlərini sevəcəyi, qardaşca qucaqlayacağı, bir-birlərinə güvənəcəyi, gözəl əxlaqın hakim olacağı dövr gəlmişdir. Bu Allahın qədəridir. Bu gözəl qədər Çində də təcəlli edəcək, çinlilərin və uyğurların bir yerdə dostcasına yaşayacağı, hamının birlikdə zənginliyə qovuşacağı, sevinclə, gözəlliklə aydın mədəniyyət quracağı bir dövr olacaqdır.

FƏSİL

Türk-İslam Birliyi nə üçün vacibdir?

Türk-İslam dünyasının gələcəyinin, dünyadakı sülhün və təhlükəsizliyini birbaşa maraqlandırdığı, dövrümüzdə bir çox mütəfəkkir tərəfindən ifadə edilməkdədir. Türk-İslam dünyası təxminən 1.5 milyardlıq əhalisi, sahib olduğu yeraltı zənginlikləri və coğrafiyasının strateji əhəmiyyəti ilə böyük bir gücdür.

I Dünya müharibəsinə qədər əksəriyyəti müstəmləkə idarəsi altında olan müsəlman ölkələr, II Dünya müharibəsindən sonra müstəqilliklərini qazanmışlar və bu vəziyyət, dünya siyasətində əhəmiyyətli dəyişmələrə səbəb olmuşdur. Türk-İslam dünyasındakı əsl dəyişmə isə soyuq müharibənin sona çatmasıyla birlikdə yaşanmışdır.

Bu tarixdən sonra Türk-İslam dünyası, Albaniya və Bosniyadan, Çeçenistan və Tacikistana uzanan Avrasiya coğrafiyası halına gəlmişdir. Bu müddət ərzində, müsəlmanların məskunlaşma strukturlarında yaşanan dəyişiklik də Türk-İslam coğrafiyasını təsir etmişdir.

20-ci əsrin əvvəllərinə qədər, müsəlmanlar (qısa dövrlü işğallar xaric) ümumiyyətlə Türk-İslam torpaqlarında idarəsi altında yaşamışlar. 20-ci əsrin ilk dövrlərindən etibarən isə, Avropa ölkələrinə və Amerikaya köç etmişlər və bu torpaqlarda əhəmiyyətli əhali halına gəlmişlər.

Bu gün Amerikada və bir çox Avropa ölkəsində İslam ən sürətli yüksələn din mövqeyinə gəlmiş, müsəlmanların sayında yaşanan artım ictimai və siyasi həyatda təsirli bir rol boynuna götürmələrini təmin etmişdir. Beləcə Türk-İslam coğrafiyası,

yalnız əhalisinin böyük əksəriyyəti müsəlman olan, ya da müsəlmanların idarəsi altında olan ölkələrlə məhdud olmayan bir coğrafiya halına gəlmişdir. Bu inkişaf, Türk-İslam dünyasına əhəmiyyətli üstünlüklər təmin edərkən, tezliklə çözülməli olan problemləri də özü ilə gətirməkdədir.

Türk-İslam dünyasını təmsil edən mərkəz yoxdur

Bu gün Türk-İslam dünyasının vəziyyəti qiymətləndirildiyində ilk diqqəti çəkəcək xüsusiyyətlərdən biri, müsəlmanların öz aralarındakı ünsiyyət qopuqluğudur. Yaxın keçmişdə, İran-İraq müharibəsi, İraqın Küveyti işğalı, Pakistan-Banqladeşi müharibəsi kimi

müsəlman ölkələr arasında keçən döyüşlər yaşanmışdır. Müsəlman ölkələrdə əksəriyyətlə etnik və siyasi problemlər səbəbiylə yaşanan vətəndaş müharibəsi və qarşıdurmalar da məsələn Əfqanıstanda, Yəməndə, Livanda, İraqda və ya Əlcəzairdə olduğu kimi müsəlmanlar arasındakı birliyin olması lazım olan nöqtənin çox uzağında olduğunu göstərməkdədir. Türk-İslam dünyasının öz içində birliyini təmin edə bilməmiş olması, bir çox müsəlman ölkənin geri qalmasına səbəb olmuşdur. Türk-İslam dünyası geniş maddi qaynaqlarına və insan potensialına baxmayaraq elmdə, texnologiyada, incəsənətdə və təhsildə istənən səviyyəyə gələ bilməmişdir.

Bu səbəblə, Türk-İslam dünyasında ölkələr arasındakı qopuqluğu aradan qaldıracaq, anlaşılmazlıqları həll edəcək, ictimai, siyasi və iqtisadi əməkdaşlığı təmin edəcək bir mərkəzə şiddətlə ehtiyac vardır.

Türk-İslam dünyasının dörd bir tərəfində bir-birindən son dərəcə fərqli dini açıqlamalar, fikirlər və modellər hakimdir. Nəyin həqiqətən İslama uyğun, nəyin də zidd olduğunu təyin edəcək, bu mövzuda dünya müsəlmanlarının ümumi olaraq istiqamət verəcək, onları uzlaşdıra biləcək bir mərkəz də yoxdur. Məsələn katoliklərin Vatikanı, Ortodoks xristianların Patriarxiyaları olarkən, Türk-İslam dünyasında dini və ictimai mövzularda birlik meydana gətirəcək bir mərkəz yoxdur.

Halbuki İslam əxlaqının təməlində birlik vardır. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in vəfatının ardından, İslam dünyası həmişə Xilafət mövqeyi tərəfindən istiqamətləndirilmiş, bu mövqe müsəlmanların ictimai və dini mövzulardakı yol göstəricisi olmuşdur.

Dövrümüzdə də Türk-İslam dünyasına idarəetmə edəcək, aktual problemlərin həllində təsirli olacaq müasir mərkəzə şiddətlə ehtiyac vardır. Demokratik əsaslara və hüququn üstünlüyü prinsipinə söykənən

qərar alma mexanizmlərinin yaradılması ancaq Türk-İslam Birliyinin təmin edilməsiylə mümkün görülməkdədir.

Belə bir birlik, anlaşılmazlıqların, qarşıdurmaların ortadan qaldırılmasında, üzv olan ölkələr arasındakı əməkdaşlığın inkişaf etdirilməsində və müsəlmanların birlikdə hərəkət etmələrində əhəmiyyətli bir vəzifə boynuna götürəcək.

Bu gün 56 müsəlman ölkənin üzv olduğu İslam Konfransı Təşkilatı, müsəlmanları bir araya toplayan üzv sayı və üzvlərinin coğrafi vəziyyəti baxımından ən böyük müsəlman təşkilatdır. Bu təşkilat xaricində də, ortaq coğrafiyalarda yaşayan müsəlman ölkələr arasında müxtəlif ticari və hərbi əməkdaşlıqlar olmaqda, regional ittifaqlar qurulmaqdadır. Bunların hər biri birlik və həmrəylik ruhunu inkişaf etdirmə baxımından əhəmiyyətli addımlardır. Ancaq Türk-İslam dünyasının, daimi təşkilatları olan, bağlayıcı qərarlar alma səlahiyyətinə sahib, ortaq siyasət inkişaf etdirə biləcək və bunları qəti olaraq tətbiq edəcək, bütün müsəlmanların ortaq səsi olacaq, yalnız müəyyən bölgələrin deyil, bütün Türk-İslam dünyasının problemləri ilə maraqlanıb bu problemlərə çözüm tapacaq daha əhatəli birliyə ehtiyacı vardır.

Yer üzündə süni “mədəniyyətlər qarşıdurması” meydana gətirmə səyi vardır

Türk-İslam dünyası hərbi, siyasi və iqtisadi olaraq tək blok olmaq məcburiyyətindədir. Öz daxilində birliyi təmin etmiş bir Türk-İslam dünyası, dünya sülhünün də zəmanəti olacaq, bəzi radikal ünsürlər və “mədəniyyətlər qarşıdurması” tərəfdarı olanlar, nəzəriyyələrinə səbəb olaraq önə sürə biləcəkləri mühiti tapa bilməyəcəklər. Xüsusilə ifadə etmək lazımdır ki, çözümlərin təcili həyata keçirilməsi son dərəcə əhəmiyyətlidir. Çünki Türk-İslam dünyası ilə Qərb dünyası arasında hər keçən gün süni bir “mədəniyyətlər qarşıdurması” yaradılmağa çalışılmaqdadır. Türk-İslam Birliyinin qurulması ilə birlikdə bu təhlükə tamamilə ortadan qalxacaq.

Tarixdə yaşanan təcrübələr açıq şəkildə göstərməkdədir ki, fərqli mədəniyyətlərin bir yerdə yaşaması, bir gərginlik və qarşıdurma səbəbi deyil. Buna baxmayaraq, dövrümüzdə tolerantlıq və uzlaşma yerinə, həm Qərbdə, həm də İslam dünyasında, düşmənlik və qarşıdurmanı seçmək istəyənlər vardır.

Bu gün fərqli dinlərdən insanların bir-birlərini öldürməsi və yurdlarından sürgün edilməsi tamamilə bir radikalizm yanılmasından başqa bir şey deyil. Təməlində hər üç dini də Allah yer üzünə endirmişdir və bu dinlər insanlara sülhü, sevgini və qardaşlığı əmr etməkdədir. Bu səbəblə, din adına ortaya çıxaraq, yer üzündə qarışıqlığa və qarşıdurmalara səbəb olmaq din əxlaqının təməlindən tamamilə uzaqdır. Müqəddəs kitablarda olmayan, sonradan dinə əlavə edilən bir sıra səhv inanclarla insanlara zərər vermənin dindarlıqla heç bir əlaqəsi yoxdur.

Allah insanlara pisliyi və təxribatçılığı əmr etməmişdir. Heç bir cəmiyyəti digərindən üstün tutmamış, üstünlüyün təqvada (Allaha qarşı olan səmimiyyət və dərin bağlılıqda) olduğunu ifadə etmişdir. Allah Quranda insanlara belə buyurmaqdadır:

> *Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır.*
>
> **(Hucurat surəsi, 13)**

Yer üzündə bir qarışıqlıq çıxdığında, səmimi dindarların vəzifəsi bu yanğını söndürmək və insanların mallarını, canlarını qorumaqdır. Yaşadığımız əsrdə, hər üç dinin mənsubları tərəfindən gözlənilən hz. İsa Məsih (ə.s) da yenidən gəldiyində yer üzünə sülhü, sevgini və qardaşlığı gətirəcək.

Elə isə, Allahın müqəddəs kitablarda və elçiləriylə açıq-aşkar bir şəkildə ifadə etdiyi sülh və sevgi hökmlərini yerinə yetirmək səmimi dindarların məsuliyyətidir. Bu sülh və hüzur mühitinin tezliklə yer üzündə yaşanması üçün, təməlində İslam əxlaqını saxlayan Türk-İslam Birliyinin qurulması son dərəcə vacibdir.

FƏSİL

Türk-İslam Birliyi müsəlmanlara nələr qazandıracaq?

Birlik olmaq, Allahın müsəlmanlara əmridir. Müsəlmanlar Rəbbimizin bu əmrini yerinə yetirdiklərində, Türk-İslam aləminin təxminən bir əsrdir yaşadığı bütün çətinliklər sona çatacaq, bənzəri olmayan çox güclü bir mədəniyyət qurulacaq.

Dövrümüzdə dünya siyasəti, ölkələrin beynəlxalq birlik içində iştirak etməsini, milli təhlükəsizlik və iqtisadi çıxarlar baxımından zəruri hala gətirmişdir. Ümumiyyətlə coğrafi mövqelərin təməl alındığı bu beynəlxalq əməkdaşlıqların, yeraltı qaynaqları, ticarət sahələri və hətta mədəni dəyərlər də əhəmiyyətli bir rol oynamaqdadır. Eyni coğrafiya içində iştirak edən bir çox ölkə, bu tərz beynəlxalq təşkilatların damı altında qaynaqlarını birləşdirməkdə, ortaq müdafiə etmə müqavilələri imzalamaqda, fərqli sahələrdə əməkdaşlığa getməkdədir. Bu beynəlxalq quruluşlarda sülhün qorunması, uyğunsuzluqların diplomatiya yoluyla təhlil edilməsi, iqtisadi və ictimai inkişafın təmin edilməsi, insan haqları və demokratiya kimi universal dəyərlərin qorunması hədəflənməkdədir. Bənzər birliyin Türk-İslam dünyası üçün də əhəmiyyətli faydaları olacağı açıqdır. Türk-İslam dünyasında sülh və hüzurun yerləşdirilməsi və rifahın təmin edilməsi üçün atılacaq ən əhəmiyyətli addım, Türk-İslam Birliyi altında birləşməklə olacaq.

Çinin hədəfi Şərqi Türküstanda hər hansı bir iqtisadi inkişaf təmin etmək deyil, hərbi gücünü istifadə edərək Şərqi Türküstan xalqını həzm edə bilməkdir.

Türk-İslam Birliyi sülh və hüzurun təminatı olacaq

Türk-İslam dünyasının hər hansı bir bölgəsində yaşanan problem bütün bu coğrafiyaya birbaşa təsir etməkdədir. Orta Şərqdə yaranan bir gərginliyin, Şimali Afrikada təsiri hiss edilər. Xəzərdə yaşananlar Orta Şərq bölgəsinin gələcəyini təsir edər. Bəsrə körfəzində meydana gələnlər Cənub-Şərq Asiyanı birbaşa maraqlandırar.

Bu da, Türk-İslam dünyası coğrafiyasının hər hansı bir bölgəsində qarşıdurma, problem, gərginlik varsa bunun narahatlığının bütün ölkələrdə hiss ediləcəyi mənasını verər. Həmçinin dünyada da siyasi və iqtisadi olaraq bu gərginliklərin nəticələri hiss edilər. Əlbəttə eyni şey sülh və hüzur mühiti üçün də keçərlidir. Uzun davamlı gərginliklərin, məsələn Ərəb-İsrail probleminin sülhlə nəticələnməsinin, Türk-İslam dünyasına və bütün dünyaya müsbət təsirinin olacağı açıqdır.

20-ci əsr boyunca Türk-İslam dünyasının böyük hissəsi də uzun sürən müharibə, qarşıdurma və qeyri-sabitlik içində qaldı. Bu dövr qaynaqların boşa xərclənməsinə, iqtisadi irəliləmənin demək olar dayanmasına, həyat standartının çox aşağı səviyyələrə enməsinə, hamısından əhəmiyyətlisi milyonlarla müsəlmanın ölümünə səbəb oldu.

Dövrümüzdə belə bəzi müsəlman ölkələr arasında anlaşılmazlıqlar davam etməkdə, bəzən gərginlik artmaqdadır. Müsəlmanlarla müsəlman olmayan ölkələr arasındakı müharibə və qarşıdurmalar da bir başqa narahatlıq və qeyri-sabitlik səbəbidir.

Sevgi və qardaşlıq təməli üzərinə qurulacaq olan Türk-İslam Birliyinin təsis edilməsiylə birlikdə Türk-İslam dünyası öz arasındakı gərginliklərə və narahatlıqlara son verəcək. Müsəlmanlar bir-birlərini qardaş olaraq biləcək və qarşılaşdıqları problemləri birlik və bərabərlik içərisində həll edəcəkdir.

Öz aralarında meydana gətirəcəkləri səmimi və yaxın əlaqələr vəsiləsiylə hadisələrin hər hansı problem yaratmasına icazə verməyəcəklər. Ortaq iştirakla meydana gələcək mərkəzi qərar orqanları bütün tərəflərin haqqını güdərək problemlərin sürətli və qalıcı bir şəkildə təhlil edilməsini təmin edəcək.

Beləliklə, on illərdir sürüb gedən anlaşılmazlıqlar və qarşıdurmalar bir anda sona çatacaq və bölgəyə sülh və hüzur mühiti gələcəkdir. Əlbəttə ki; Türk-İslam dünyasında təmin ediləcək bir sülh və sevgi mühiti bu bölgəni və dünyaya çox müsbət istiqamətdə təsir edəcək. Bu müsbət təsirlər də, Allahın icazəsiylə Türk-İslam dünyasına saysız sahədə ictimai və iqtisadi inkişafları da özü ilə gətirəcək.

Fərqli mədəniyyətlər Türk-İslam dünyası üçün mədəni zənginliyə çevriləcək

Türk-İslam dünyası içindəki fərqli mədəniyyətlər və etnik mənşələr, sülh mühitində bir zənginliyə çevriləcək. Tolerantlıq və dialoqun olduğu bir mühitdə, insanlar daha açıq fikirli və daha səmərəli olacaq, fərqli mədəniyyətlərin qarışmasıyla çox zəngin bir mədəniyyət qurulacaq. Bu böyük mədəniyyət, elmdə və incəsənətdə əhəmiyyətli inkişaflar yaşanmasına vəsilə olacaq, olduğu coğrafiyanın qədimdə olduğu kimi yenə bütün dünyaya işıq saçan bir nur halına gəlməsini təmin edəcək.

Sülh mühiti sayəsində, Türk-İslam dünyasının bir-birlərinin məlumat toplusu və təcrübələrindən faydalanmaları mümkün olacaq. Sülh, müsəlmanların hər sahədə güclərini birləşdirmələrinə, bir-birlərinin əksik istiqamətlərini düzəltmələrinə, bu səbəbdən daha təsirli olmalarına vəsilə olacaq.

Sülh, hər ölkənin silahlanmağa ayırdığı büdcənin azaldılmasını, bu pulun cəmiyyətlərin rifahı üçün xərclənməsini təmin edəcək. Bütün üzv ölkələr ortaq müdafiə müqaviləsinin üzvü olacaqlarından, daha az büdcə ilə daha güclü bir müdafiə və qorunma sistemi təmin ediləcək. Bu sayədə silah sənayesi və texnologiyası üçün edilən sərmayələr, səhiyyə, təhsil, elmi və mədəni inkişaf kimi sahələrə yönəldilə biləcək.

Türk-İslam dünyasının bəzi bölgələrindəki mövcud sabitliksizlik və qarşıdurmalar digər ölkələrə köçə səbəb olmaqdadır. Bir çox həkim, mühəndis, alim, elm adamı, mütəfəkkir və yazıçı, ölkələrində özlərini təhlükəsiz hiss etmədikləri üçün Qərbə köç etməkdə və işlərinə orada davam etməkdədir.

Sülh mühiti, Türk-İslam dünyasındakı daxili gərginliklərin də ortadan qalxması ilə birlikdə yaxşı təhsil almış fərdlərin köçünün maneə törədilməsini və bu insanların öz ölkələrindəki ehtiyacı ödəmələrini təmin edəcək.

Türk-İslam dünyasında inşa ediləcək sülh, digər dünya ölkələri üçün də nümunə bir model olacaq. Beləcə, dünyanın fərqli bölgələrində yaşanan problemlər müsəlman dünya nümunə götürülərək sülhsevər üsullarla həllə qovuşdurulacaq. Müsəlmanlar, həqiqi Quran əxlaqı yaşandığında insanların hüzura və təhlükəsizliyə qovuşacaqlarının canlı bir nümunəsi olacaq, insanlar İslamın sülh və rifah dini olduğuna şahidlik edəcəklər.

Türk-İslam Birliyi ilə birlikdə iqtisadi inkişaf da gələcək

Birlik, bərabərlik, qardaşlıq mühiti ilə birlikdə iqtisadi inkişaf da sürət qazanacaq. Dövrümüzdə bəzi sərhəd problemləri başda olmaq üzrə Türk-İslam dünyasında problemlər yaşanmaqdadır. Bu problemlər iqtisadi qeyri-sabitliyi özü ilə gətirməkdədir. Məsələn, yeraltı qaynaqlarının çıxardılması, daşınması və dünyaya ixracında yolun etibarlı olması lazımdır. Halbuki dövrümüzdə bölgədə yaşanan qarışıqlıq mühiti və siyasi qeyri-sabitlik Türk-İslam dünyasının zəngin qaynaqlardan kifayət qədər faydalanmasını maneə törətməkdədir.

Su qaynaqları üçün də bənzər bir vəziyyət keçərlidir. Orta Şərqdə su, mübahisəli mövzularının əvvəlində gəlməkdədir. Halbuki Türk-İslam dünyasının bir-birlərinə dəstəyi və anlaşılmazlıqların razılıq yoluyla təhlil edilməsi ilə bu problemlər tamamilə gündəmdən qaldırıla bilər.

İqtisadi əməkdaşlıq, həm sabitliyin təmin edilməsi, həm də inkişaf baxımından əhəmiyyətlidir. Xüsusilə, müsəlman ölkələrdə yaşanan yoxsulluğun, təhsilsizliyin, gəlir paylaşımının düzgün olmaması və digər

iqtisadi və ictimai çətinliklərin ortadan qaldırılmasında iqtisadi birlik, iqtisadi güc yaradılacaq.

Türk-İslam dünyası içərisində bir-birindən fərqli iqtisadiyyatlar və təbii şərtlər vardır. Bəzi ölkələrin iqtisadiyyatı yeraltı zənginliklərinə (neft zəngini ölkələrdə olduğu kimi) söykənərkən, bəzilərinin iqtisadiyyatı (coğrafi strukturlarının əlverişli olması səbəbiylə) kənd təsərrüfatına söykənməkdədir. Bu fərq az da olsa cəmiyyət strukturları üçün də keçərlidir. Bəzi ölkələrdə əksəriyyət çöl sahələrində yaşayarkən, bəzi ölkələrdə şəhər mədəniyyəti daha çox hakimdir. Ancaq bir ölkənin digərini nöqsanlarını bağlayacaq şəkildə dəstəkləməsi, birinin digərinin ehtiyacını qarşılaması və hər kəsin mütəxəssisləşdiyi mövzularda digərlərinə köməkçi olması ilə bu fərqliliklər əhəmiyyətli bir zənginlik qaynağına çevrilə bilər. Bu da Türk-İslam Birliyi ilə təmin edilə bilər.

Ediləcək ortaq sərmayələr və ortaq cəhdlər də bu nöqtədə əhəmiyyətli bir addım olacaq. Ortaq cəhdlər sayəsində, həm ölkələr qarşılıqlı olaraq bir-birlərinin təcrübələrindən istifadə edəcəklər, həm də yaradılan sərmayə sahələri tərəflərin iqtisadiyyatları üçün də gəlir qaynağı olacaq. Türk-İslam dünyasının bir-birlərinə iqtisadi dəstək vermələri, daha əvvəl də ifadə etdiyimiz kimi, İslam əxlaqının bir gərəyidir. Ehtiyac içində olana kömək etmək və ictimai həmrəylik müsəlmanların əhəmiyyətli xüsusiyyətlərindəndir. Cəmiyyət içindəki ictimai həmrəyliyin cəmiyyətlər arası səviyyədə də icra edilməsi lazımdır. Beləcə həm iş imkanları artacaq, həm də hər iki cəmiyyətdə də gəlir səviyyəsi yüksəlməyə başlayacaq.

Türk-İslam dünyasının imkanlarını və gücünü birləşdirməsini təmin edəcək ortaq cəhdlərlə, yüksək texnologiya məhsulu olan bir çox vəsait müsəlman ölkələrdə də istehsal edilə biləcək. Yaradılacaq ortaq bazar sayəsində, bir ölkədə istehsal edilən məhsullar, gömrük, kvota kimi

sərhəd maneələrə ilişmədən bir başqa ölkədə asanlıqla satışa çıxarıla biləcək. Ticarət sahəsi genişləyəcək, bütün üzv ölkələrin bazar payı artacaq, ixracat inkişaf edəcək, bu vəziyyət, ölkələrdəki sənayeləşmə prosesini sürətləndirəcək, iqtisadiyyatda təmin ediləcək inkişaf ilə texnologiyada da inkişaf yaşanacaq. Beləcə, Türk-İslam dünyası ortaq bir güc olaraq hərəkət edə biləcək və qlobal iqtisadiyyatın əhəmiyyətli bir hissəsi halına gələcəkdir. Əlbəttə ki, Türk-İslam dünyasında təmin ediləcək iqtisadi inkişaf və rifah mühiti bu bölgəni və dünyanı çox müsbət istiqamətdə təsir edəcək.

FƏSİL

Birlik və bərabərlik Türk-İslam dünyasını gücləndirəcək

Müsəlmanların birlik və bərabərlik ruhu içində hərəkət etmələri, Allahın Quranda bildirdiyi əxlaqın bir gərəyidir. Müsəlmanlar bu həqiqəti düşünərək birlik olmağa səmimi niyyət etməlidirlər.

Türk-İslam coğrafiyasında bu gün müxtəlif gərginliklər və anlaşılmazlıqlar yaşanmaqda, qarşıdurmalar sürməkdə, narahatlıqlar artmaqdadır. Türk-İslam dünyasında olması lazım olan birlik və bərabərlik ruhunun gərəyi kimi yaşanmaması, həm bəzi problemlərə zəmin hazırlamaqda, həm də mövcud problemlərə qalıcı həllər yaradılmasını çətinləşdirməkdədir. Bu vəziyyətin sona çatması, müsəlmanların və digər bütün cəmiyyətlərin hüzura, güvənə və sülhə qovuşa bilmələri üçün, Türk-İslam dünyasında möhkəm birliyin təsis edilməsi üçün şərtdir. Müsəlmanlar, Allahın Qurani Kərimdə buyurduğu kimi, qardaş olduqlarının şüuruyla hərəkət etməli, bir ailənin fərdləri kimi sevgi, hörmət və səmimiyyətlə birlik olmalıdırlar.

Uca Rəbbimizin Qurani Kərimdə buyurduğu, “Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər” (Ənfal surəsi, 73) ayəsinin əmri, müsəlmanların bir-birlərinin vəlisi, yəni qoruyucusu və dostu olmaları, bir-birlərinə kömək etmələri və birlik içində hərəkət etmələridir. Uca Allah, bunun edilməməsi vəziyyətində dünyada böyük qarışıqlıqlar və narahatlıqlar yaşanacağını bildirməkdədir. Məhz bu səbəblə müsəlmanlar Quranda bildirilən qardaşlıq və dostluq ruhuna uyğun hərəkət etməli, yaşanan böyük ağrıların önünə keçilə bilməsi və bunların tam mənasıyla sona çatması üçün həmrəylik içində olmalı,

birlik halına gəlməlidirlər. Yaşanan şərtlər, müsəlmanların birlik olmasının zəruri olduğunu açıq şəkildə göstərməkdədir. Türk-İslam dünyası, ya birləşəcək, sülh və rifah mühiti meydana gələcək, hüzur və təhlükəsizlik təsis ediləcək, aydın günlər yaşanacaq, ya da yaşanan neqativliklər və acılar davam edəcək.



Yaşanan problemlərin həlli, birlik və bərabərlik içində hərəkət etməkdir

İslam Mədəniyyətinin bütün dünyanı aydınlatdığı, elmdə, incəsənətdə, arxitekturada, ticarətdə dünyaya nümunə olduğu dövrlər, müsəlmanların birlik və bərabərlik içində hərəkət etdikləri dövrlər olmuşdur. 10-cu və 11-ci əsrlərdə və bunu izləyən zamanlarda, İbni Heytem, Əl Cebr, İbni Sina və daha bir çox qabaqcıl İslam aliminin işləriylə müsəlmanların elm dünyasına qatqıları; Osmanlı dövründə Memar Sinan başda olmaq üzrə böyük sənətkarlarla arxitektura və incəsənət dünyasına qazandırdıqları, bütün dünyanın təqdirini qazanmışdır. Bütün bu əsrlər boyunca, Quran əxlaqıyla əxlaq qazanan müsəlmanların, getdikləri hər yerə tolerantlıq, ağıl, elm, incəsənət, estetik, təmizlik və rifah aparmalarının və İslam dünyasının, dünyanın ən müasir və ən çağdaş sivilizasiyası olmasının təməlində, birlik ruhunun təmin etdiyi hüzur, güvən və sülh mühiti vardır. Dövrümüzdə də Türk-İslam dünyası gücünü, nurunu, bərəkətini təkrar əldə etmə ehtiyacındadır.

Ancaq bu istiqamətdə ediləcək hər cür çalışma üçün əvvəlcə, bütün müsəlmanlar arasında qardaşlıq ruhunun yaşanması, Türk-İslam dünyasının birliyinin təsis edilməsi lazımlıdır. Fərqləri tolerantlıq ilə qarşılayan, gücünü və enerjisini yalnız İslamın, müsəlmanların və insanlığın xeyrinə istifadə edən, plüralizmin lehinə olan, barışdırıcı və sülh sevər bir mədəniyyət müsəlmanlar arasında hakim olsa, İslam dünyası, 21-ci əsrin ən böyük mədəniyyətlərindən birini qura bilər. Əks halda, dağılmış, ayrılmış, bir-birlərindən qopmuş olan müsəlmanların öz dəyərlərini müdafiə etməyə belə güc çatdırmaları çox çətin olacaq. Halbuki, insan haqları, inanc, həyat və fikir azadlıqları mövzusunda

mənfi yanaşmalarla qarşı-qarşıya qalmaları vəziyyətində, müsəlmanların dəyərlərini birlikdə fikirlə müdafiə etmələri Quran əxlaqının bir gərəyidir. Birlik və bərabərlik içində icra ediləcək fikri mübarizənin çox təsirli olacağı, istənən nəticəyə qısa müddətdə çatıla biləcəyi açıqdır.

Müsəlmanlar fərqləri deyil, ortaq dəyərləri əsas götürməlidir

İslam Birliyinin keçmişdə yaşanmış olması, bu gün də yenidən qurula biləcəyinin ən əhəmiyyətli dəlillərindən biridir. Müsəlmanların bu mövzuda ümidvar olmaları, imkanları istiqamətində bu birliyin meydana gəlməsini təşviq etmələri, İslam dünyasının qardaşlığı və birliyi üçün səy göstərmələri son dərəcə əhəmiyyətlidir. Müsəlmanlar, mömin qardaşlarının şövq və həyəcanlarının artmasına, dostluq və birliyə həsrət duymalarına vəsilə olmalıdırlar. Xüsusilə, fikir liderləri, ziyalıların, cəmiyyətin nümunə götürdüyü insanların bu istiqamətdə rəftarlarıyla, məsləhətləri ilə, yazıları ilə nümunə olmaları lazımlıdır.



Birlik və bərəbərliyə duyulan həsrətin, konkret addımlarla dəstəklənilməsi də əhəmiyyətlidir. Bütün iman edənlər bir-birlərinə axirət qardaşı gözüylə baxıb, bir-birlərinin səhvlərini və ya qüsurlarını deyil, gözəl istiqamətlərini görməlidirlər. Fərqlilikləri bir ayrılıq və ya bir uzaqlaşma səbəbi olaraq deyil, rəng fərqi, mədəni müxtəlifliyi, gözəllik olaraq qiymətləndirməlidirlər. Sevgi, mərhəmət, anlayış və şəfqətlə qarşılarındakılara yaxınlaşmalı, qardaşlarına sevgi duymalı, onları hər zaman tərifləyən və hörmətli bir üslub istifadə etməlidirlər. Müsəlmanlar, Rəbbimizin, iman edənlərin bir-birlərinin qardaşları olduqlarını buyurduğu ayəni həmişə yadda saxlamalıdırlar:

Bütün müsəlmanlar eyni Uca və Bir olan Allaha iman etməkdə, yalnız Onun razılığını, rəhmətini və cənnətini qazanmaq üçün çalışmaqda, aləmlərə rəhmət olaraq göndərilmiş sevimli peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə könüldən itaət etməkdə, eyni Kitaba tabe olmaqdadırlar. Hamısının məqsədi, Quran əxlaqının yer üzündə yaşanmasıdır.

Bütün məqsədləri eyni olan müsəlmanların bir-birlərini sevmələri və birlik içində hərəkət etmələrindən daha asan nə ola bilər? Yetər ki, İslam əxlaqının gərəyi olan sevgi, mərhəmət, fədakarlıq, anlayış, bağışlayıcılıq kimi gözəl xüsusiyyətlərini, ətrafımızdakı insanlara olduğu kimi, fərqli ictimaiyyətlərdə olan müsəlman qardaşlarımıza da lazımınca göstərək. İslam əxlaqını tam olaraq bilməyən və məlumat əksikliyindən ötəri yaşamayan kəslərə göstərməmiz lazım olan tolerantlıq, fərqli düşüncələrə sahib mömin qardaşlarımızdan əsirgəməyək. Bütün insanları olduğu kimi, onları da mərhəmət və anlayışla qucaqlayaq.

Müsəlmanların birliyi sevgi və səmimiyyət üzərinə təsis edilməlidir

Allah qorxusu və sevgisindən qaynaqlanan, həqiqi sevgi və səmimiyyət, iman edənlərə verilmiş olan ən gözəl nemətlərdəndir. Bu nemət, iman edənlər arasındakı ünsiyyət və dialoqlara mütləq əks olunmalıdır. Müsəlmanların quracağı birliyin də, səmimilik və həqiqi sevgi üzərinə qurulması lazımdır. Unutmamaq lazımdır ki, Axırzamanda insanların yaşadığı ən böyük bəlalardan biri sevgisizlikdən qaynaqlanan sərtlik, anlayışsızlıq, soyuqluq, mərhəmətsizlikdir. İman edənlər isə bir-birlərini, Allahı və elçisini sevdiklərini bildikləri üçün sevər; Uca Allahdan qorxub elçisinə itaət etdiklərini bildikləri üçün bir-birlərinə sayğı və hörmət duyar. Yalnız iman etmələri belə bir-birlərini sevmələri üçün yetərli səbəbdir. Bu səbəbdən müsəlmanların müşavirə və müzakirə mühitlərinə, bir ailə mühitinin yaxınlığı, səmimiliyi, dürüstlüyü hakim olmalıdır. Qurani Kərimdə, Peyğəmbərimiz (s.ə.v) ilə birlikdə hicrət edən və onları qarşılayan möminlərin bir-birlərinə duyduqları səmimi sevgi və fədakarlıqları, bütün möminlərə belə nümunə verilmişdir:

> *Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.*
>
> **(Həşr surəsi, 9)**

İndiki vaxtda da müsəlmanlar, eynilə səhabələri kimi bir-birlərini könüldən sevməlidir. Türk-İslam Birliyinin özündə, şəfqət və mərhəmətiylə bütün insanlara nümunə olan Peyğəmbərimiz (s.ə.v)-in əxlaqı və səhabələrinin ruhu olmalıdır. İslam əxlaqını, Məkkə və Mədinədən bütün dünyaya çatdıran bu ruhdur. Səhabənin bir-birinə olan səmimi sevgisi, bağlılığı, həmrəylik və birlik ruhu onlara güc və qüvvət vermiş, etdikləri işlərdəki bərəkəti artırmış, bütün işlərində onları

müvəffəqiyyətli etmişdir. Bu gün də müsəlmanlar eyni həmrəylik, fədakarlıq, vəfa və sədaqətlə hərəkət etdiklərində, “möhkəm bir divar kimi” saf bağladıqlarında, Rəbbimizin verəcəyi güc və qüvvətlə, inşaAllah bütün problemlərin öhdəsindən gəlinəcək. Quranda əmr edildiyi kimi səmimilik və sevgiylə yaxınlaşıldığında, İslam dünyasının bütün problemləri asanlıqla həllə qovuşacaq.

Müsəlmanların birlik olmasına maneə törədən səbəblərdən birinin, şeytanın oyunu olan qürur və eqoizm olduğu unudulmamalı, bu pis əxlaq xüsusiyyətlərindən çəkinilməlidir. Uca Allah, eqoist insanı sevmədiyini, “...Allah heç bir özündən razını, özünü öyəni sevmir.” (Hədid surəsi, 23) ayəsiylə bildirmişdir. Eqoizm və qürur, iman edənlər arasında gərginliyə səbəb ola biləcək, bu səbəbdən onları bir-birindən uzaqlaşdıracaq, sevgilərini azaldacaq, mərhəmət və şəfqət duymalarına maneə törədəcək pisliklərdir. İslam dünyası bir çox çətinlik və sıxıntılara qarşı-qarşıya ikən, fərdi hesablar və nəfsin kiçik oyunlarıyla zaman itirmək, səmimi olaraq iman edən müsəlmanlara yaraşmayacaq bir rəftardır. Hər müsəlmanın bu səhvə yol verməkdən Allaha sığınması, qürurun maneə törətməyə çalışdığı xeyirli olan nə varsa onu edərək, eqoizmin iman edənlərin birlik və bərabərliyinin qarşısında mane olmasına icazə verməməsi lazımdır.

Bütün dünya, Türkiyənin müsəlmanları birləşdirməsini gözləyir

Yer üzündəki son Türk-İslam Birliyi, böyük, şanlı Osmanlı İmperatorluğu idi. Quran əxlaqıyla şəkillənmiş olan Osmanlı rəhbərliyi dövründə yaşanan Türk-İslam Birliyi, birlik və bərabərlik ruhu yaşandığında müsəlmanların sülh içində, çox rahat və hüzurlu yaşadıqlarını göstərən gözəl bir nümunədir. Bu gün Qərbdə də bir çox aydın və dövlət adamı tərəfindən, xüsusilə köhnə Osmanlı coğrafiyası üzərində bir əsrdir davam edən boşluq yoxlanılmaqda və həllin də ancaq Osmanlı modelinin, yəni tolerantlıq və ədalətə söykənən bir Türk-İslam Birliyinin, yenidən qurulmasıyla mümkün olacağı fikri əks-səda tapmaqdadır.

Ölkəmiz, varisi olduğu böyük Osmanlı İmperatorluğu ilə müsəlman dünyasının əsrlərlə mənəvi öndərliyini etmişdir. Bu səbəblə, hələ də bu coğrafiyada bütün müsəlmanların sevgisinə və marağına məzhər olmaqdadır. Həmçinin təcrübəsi, inkişaf etmiş xarici əlaqələri, yetişmiş insanı və ziyalılarıyla Türkiyə, Türk-İslam dünyasının birləşməsinə öndər olmağa bacarıqlı görülməkdədir. İttifaqla böyük bir kütlə, Türkiyəni bu vacib vəzifə üçün namizəd göstərməkdədir. (http://www.turkislambirliginedogru.com)

Türkiyənin, Türk-İslam dünyasının birliyinin təmin edilməsində qabaqcıl olması, tarixin yüklədiyi bir məsuliyyətdir. Ancaq bu məsuliyyətin gərəyi kimi yerinə gətirilə bilməsi üçün, əvvəlcə bütün İslam dünyasına nümunə təşkil edə biləcək bir modelin yaradılması, digər bir ifadəylə birlik istəklərinin sözdə qalmaması lazımdır. Bunun üçün də ölkəmizdəki fikir liderlərinin, ziyalıların, vətəndaş cəmiyyət quruluşlarının liderlərinin bir

yerə gəlmələri, bu birliyin praktikada necə yaşana biləcəyini göstərmələri böyük əhəmiyyət daşımaqdadır.

FƏSİL

Türk-İslam Birliyi necə olmalıdır?

Haqqında bəhs etdiyimiz birliyin bərabərlik anlayışı, bir cəmiyyətin digərinə, bir mədəniyyətin o birinə, bir qrupun başqasına üstün gəlməsinə söykənən deyil, hamısının digəri ilə bərabər olduğu tolerant, sevgi və dostluğa söykənən həmrəylik ruhu ilə olacaq.

Türk-İslam dünyasının birliyi, Allahın icazəsi və lütfü ilə, yer üzünə həsrəti çəkilən sülhü və hüzuru gətirəcək olan birlikdir. Bu birlik, sevgi, qardaşlıq, şəfqət, tolerantlıq, həmrəylik və məhəbbət təməli üstünə qurulacaq. Yaşandığı bölgəyə iqtisadi rifahı, demokratik həyatı, ədaləti gətirməyi hədəf alacaq. Mənəvi dəyərlərin ucaldılmasını, incəsənətin, texnologiyanın, elmin ən üst səviyyələrinə çıxmasını özünə məqsəd hesab edəcək.

Türk-İslam Birliyi, Qərb dünyası ilə də yaxın əlaqələr içərisində olacaq. Bu birlik sevgi və ədalət təməli üzərinə qurulacağı üçün, tərəflərin haqlarını zəmanət altına alarkən, qarşılıqlı mənfəətlərin qorunmasını da təmin edəcək.

Bu şəkildə, birliyə daxil olan ölkələrin yanında bütün dünya dövlətlərinin də rifah səviyyələri yüksələcək.

Dövrümüzdə Türk-İslam dünyasına hakim olan bir-birindən fərqli fikirlər, şərhlər və modellər arasında razılaşma təmin edilə bilinməməyi, müsəlmanların birlikdə hərəkət etmələrinə mane olmaqdadır. Bu birliyin bərabərlik çağırışı, etnik mənşəyə, iqtisadi şərtlərə, ya da coğrafi vəziyyətə görə edilməyəcək; irq, dil və mədəni xüsusiyyətlərdən qaynaqlana biləcək hər cür nifrət bu birliyin qardaşlıq damı altında, ortadan qaldırılacaq. Bəhs etdiyimiz birliyin bərabərlik anlayışı, bir cəmiyyətin digərinə, bir mədəniyyətin o birinə, bir qrupun başqasına üstün gəlməsinə söykənən deyil, hamısının bir digəri ilə bərabər olduğu tolerant, sevgi və dostluğa söykənən həmrəylik ruhu ilə olacaq.

Türk-İslam Birliyi çözüm yaradan mərkəz olmalıdır

Türk-İslam Birliyi dəyişən siyasi şərtlərə asanlıqla uyğunlaşma təmin edə biləcək bir elastikliyə və lazımlı strategiyaları inkişaf etdirə biləcək bir perspektiv görmə qabiliyyətinə sahib olmaq məcburiyyətindədir. Dünyadakı hadisələr qarşısında qınamaq, ya da qənaət gətirməklə kifayətlənən bir təşkilat deyil, təşəbbüs istifadə edə bilən aktiv bir mərkəzə ehtiyac duyulduğu açıqdır. Bu mərkəzin davamlı təqib və koordinasiya vəzifəsini boynuna götürməsi, fəaliyyətlərinin bütün üzv ölkələrin mənfəətlərini əhatə edici olması lazımdır. Bu birlik bütün inkişafları obyektiv bir yanaşmayla qiymətləndirərək, Türk-İslam dünyasının tələblərini göz qarşısında saxlamalıdır. Üzv ölkələr arasında meydana gələ biləcək böhranları aradan qaldırıcı, mənfəət qarşıdurmalarını ortadan qaldırıcı və müsəlmanların digər cəmiyyətlərlə əlaqələrində onları qoruyucu bir mexanizm olaraq vəzifə yerinə yetirəcək Türk-İslam Birliyi, Türk-İslam dünyasının mədəni, iqtisadi və siyasi fəaliyyətini də artıracaq.

Böyük öndərimiz Atatürkün fikirləri əhəmiyyətli bir mesaj ehtiva etməkdədir

Qurduğu müasir dövlət anlayışı ilə Türkiyə cümhuriyyətini müsəlman ölkələrin ən sabit demokratiyası halına gətirən Mustafa Kamal Atatürkün, Türk-İslam dünyasının necə bir quruluş içində birlik və bərabərliyini təmin edə biləcəyi istiqamətində də əhəmiyyətli qiymətləndirmələri vardır. Bir dövlətin ən əhəmiyyətli ünsürlərindən birinin milli sərhədlər daxilində var olma haqqı olduğunu ifadə edən Atatürkün təsbitlərinin doğruluğu, keçən zaman içərisində isbat edilmişdir.

Bilindiyi kimi, Osmanlı İmperatorluğunun dağılma prosesində, Osmanlı torpaqlarında yaşayan xalqların bir qismi səhv istiqamətləndirmələrə qapılaraq Osmanlının yanında yer almaq yerinə, xarici güclərlə əməkdaşlıq etmişlər. Ancaq müxtəlif imtiyazlar qazanacaqlarını ümid edərək bu yolu seçənlər əməkdaşlıq etdikləri ölkələrin hegemoniyası

altına girmişlər və müstəmləkələşdirilmişlər. Bu xalqlardan bəziləri, Cümhuriyyətin ilk illərində Mustafa Kamala nümayəndələr göndərərək, özlərini müstəmləkə vəziyyətinə salan liderlərinin bəsirətsizliyindən şikayət etmiş və hətta bəziləri Türkiyə Cümhuriyyəti ilə birləşmə tələblərini dilə gətirmişlər. Atatürkün bu təkliflərə verdiyi qarşılıq, Türk-İslam Birliyinin təməlinin necə olması lazım olduğunu göstərən əhəmiyyətli bir cavabdır:

"Bütün İslam aləminin mənəvi olduğu qədər maddi cəhətdən də birlik içində və müttəfiq hala gəlməsindən yalnız sevinc duyarıq. Bunun üçün də bizim öz hüdudlarımız içərisində müstəqil olduğumuz kimi, suriyalılar və iraqlılar da milli hakimiyyətə söykənən müstəqil bir güc olaraq ortaya çıxa bilməlidirlər." (Mustafa Kamal, 24 aprel 1920, 4-cü (gizli) iclas www.mihenk.gr/arsiv/18/ mihenkokulu.htm)

Görüldüyü kimi Atatürkün təyin etdiyi prioritet, bu ölkələrin də müstəqilliklərini qazanmalarıdır. Türk-İslam Birliyinin əhəmiyyətinin dərk edən Atatürk, bu birliyin böyük təsirə sahib ola bilməsi üçün, üzvlərinin milli sərhədləri içində müstəqilliyini qazanmış, milli iradəyə söykənən və öz ayaqları üzərində dayana bilən dövlətlər olmaları lazım olduğuna diqqət çəkmişdir. Bu səbəbdən, bu gün də, qurulacaq bu birliyin üzvlərinin torpaq bütünlüyünü və müstəqilliklərini qoruması son dərəcə əhəmiyyətlidir.

(http://www.ataturkuiyianlamak.com/)

FƏSİL

Türk-İslam dünyasına çağırış

Bu gün artıq bütün dünyada din əleyhinə fikir sistemləri çökməyə üz tutmuş, insanlar Allaha imana və din əxlaqına yönəlməyə başlamışlar. Üstəlik İslam, dünya gündəminin ən əhəmiyyətli mövzusu olmuş, insanlığın diqqəti Haqq dinə çevrilmişdir. İçində olduğumuz dövrün texnoloji imkanları isə, müsəlmanların həm bir-birləri ilə əməkdaşlıq etmələrini asanlaşdırmış, həm də insanlara İslam əxlaqının gözəlliklərini izah etmək üçün hər cür kütləvi informasiya imkanını təmin etmişdir.

Ancaq bir tərəfdən də İslam dünyasının bir qismində kasıblıq və cəhalət vardır. Bundan faydalanan bəzi kəslər, guya İslam adına İslamdan kənar hərəkətlər edərək, dünyanın gözündə müsəlmanları zənn altında buraxmaqdadırlar. İslam əxlaqına qarşı olan bəzi kütlələr də, müsəlmanların bu vəziyyətindən faydalanaraq onlara qarşı hər cür zülmü tətbiq etməkdə, daha böyük zülmləri də planlamaqdadırlar.

Çözüm, bütün müsəlmanları birləşdirəcək və onlara doğru yolu göstərəcək bir Türk-İslam Birliyinin qurulmasıdır. Türk-İslam Birliyinin qurulması üçün çalışmaq, hər müsəlmanın vəzifəsidir:

Bütün müsəlman hökumətlər, Türk-İslam Birliyinə hazırlanmalıdır. Digər Müsəlman ölkələrlə aralarındakı əlaqələri inkişaf etdirməli, bir tərəfdən də həqiqi İslam əxlaqının öz ölkələrində də daha yaxşı yerləşməsi üçün mədəni fəaliyyətlərdə olmalıdırlar.

Bütün müsəlman vətəndaş cəmiyyət quruluşları, müxtəlif təşkilatlar, vəqflər, media mənsubları, fikir liderləri; müsəlmanlar arasındakı ayrı-

seçkiliklərin aradan qaldırılması, birlik və bərabərliyin təmin edilməsi üçün səy göstərməlidirlər.

Hər müsəlman fərd, getdiyi məsciddə, oxuduğu məktəbdə, iş yerində, ziyarət etdiyi internet platformasında, üzvü olduğu vəqfdə və ya quruluşda, dünya müsəlmanlarının birliyi üçün səy göstərməli, digər müsəlmanları bu mövzuda təşviq etməlidir. (http://www.turkislambirliginecagri.com)

Dünyaya işıq tutacaq, həm müsəlmanlara, həm müsəlman olmayanlara gözəllik təqdim edəcək, yer üzünə ədalət və sülh gətirəcək o böyük İslam mədəniyyətinin yenidən yaşıllaşması bütün müsəlmanların duasıdır. Allahın icazəsi ilə, Türk-İslam Birliyinin qurulması, bütün bu gözəlliklərə bir vəsilə olacaqdır.

Bu müqəddəs vəzifədə xidmət etmək istəyən müsəlmanlar

Gəlin, müsəlmanların arasını düzəldək. Bir-birinin məscidində namaz qılmayan, salamlaşmayan, bir-birinin yazdığı kitabı oxumayan, kiçik bir fikir fərqliliyi səbəbiylə qardaşına düşmən kəsilən müsəlmanların arasını düzəldər. Bu kimi süni ayrı-seçkiliklər qalxsın. Allahın evləri olan məscidlər, bu və ya digər qrupun, bu və ya digər məzhəbin deyil, bütün müsəlmanların məscidi olsun. Hər müsəlman bir-biriylə salamlaşsın, bir-biri ilə söhbət etsin. Bir-birinə xoş rəftar göstərsin. Camaat və ya fərdi ədavətlər sona çatsın. Və bütün müsəlmanlar, birlik olaraq, təvazökarlıq və xoş rəftar içində, Allaha daha çox yaxınlaşmaq, Onun dininə daha çox xidmət etmək üçün çalışsınlar.

Və Allahın bizlərə verdiyi bu əmri heç bir zaman unutmasınlar:

> *Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz.*
>
> **(Al İmran surəsi, 103)**

FƏSİL 9

Şərqi Türküstanda hüzurun təmin edilməsi üçün çözüm: Türk-İslam Birliyi

Cənab Adnan Oktarin ABŞ "Pine river" reportaji (28 avqust 2008)

PINE RIVER: ...Üzv olan ölkələrdən ibarət olan bir İslam Birliyinin qurulmasını təklif edirsiniz. Yalnız Orta Şərqdəki deyil eyni zamanda Asiya və Avropadakı müsəlman ölkələrin də daxil edildiyi və AB quruluşunda bir-birlik təklif edirsiniz. İslam Konfransı Təşkilatı hal-hazırda var olduğuna görə sözünü etdiyiniz İslam Birliyi, İKT-nın edə bilmədiyi nəyi edəcək?

ADNAN OKTAR: Müsəlmanların birlikdə hərəkət etmələri, qardaş olmaları Qurana görə fərzdir. Bunun üçün Türk-İslam Birliyi olması şərtdir. Müsəlman Türk dövlətlər bu könül birliyinin damı altında toplanmalıdır. Amma hər dövlət ayrı, milli dövlət olaraq qalacaq. Hər dövlət öz daxili işində azad davranacaq, lakin Türk-İslam Birliyi damı altında ortaq hərəkət edəcək. Belə bir birlik meydana gəlsə, mövcud qarışıqlıq, bu fitnə rahatlıqla sona çatar. Böyük bir coğrafiyada, çox böyük bir tarazlıq ünsürü olar bu birlik. İlk olaraq bunun ən böyük faydası, terror dərhal anında dayanar. Terror deyə bir mövzu qalmaz. İkincisi iqtisadiyyat müdhiş canlanar. Lakin ən əhəmiyyətlisi mənəvi fərahlıq və hüzur meydana gəlir. Yəni bütün cəmiyyətlər, cəmiyyət içindəki bütün seqmentlər hüzurlu olar. Dinsiz də rahat yaşayar, dindar da rahat yaşayar.

Mənim söylədiyim Türk-İslam Birliyi, bir könül birliyi, bir sevgi birliyi, məhəbbət birliyi və ortaq ağıl birliyidir. Belə səmimi bir birlik meydana gətirmək, dostanə qardaşlıq mühiti meydana gətirə bilmək üçün şiddətli

sevgi lazımdır. Şiddətli coşğu lazımdır. Rəsmiyyətlə olmaz bunlar. Coşğuyla həyəcanla olar. Yəni bir ölkəyə kömək əli uzatmaq, onu qardaş bilib dərdinə əlac tapmaq, bir yerdə terror olduğunda toplu şəkildə qərar verib dərhal anarxiyaya son vermək, bunlar sevgi tələb edir.

PINE RIVER: "İslam birliyinə çağırış" başlıqlı məqalənizdə belə yazmısınız;

Müsəlmanlar bir-birindən fərqli cəmiyyətlərin qarşılıqlı tolerantlıq və sülh əlaqələri quracaqları bir sistem qurmaq üçün toplu şəkildə çalışmalıdırlar... Lakin, 11 sentyabr hücumları sonrasında əhəmiyyətli bir problemlə qarşılaşıldı. İslam adına danışdığını qarşıya qoyan, lakin İslamın əsasını anlamaqdan uzaq bəzi kütlələr insanlığın faydasına çalışacağına onu yıxmağa çalışırlar. Günahsız insanlara hücum edib öldürərkən İslamın qadağan etdiyi ən böyük günahı işləmişlər. Digər bir deyişlə dünyanı xaosa salmışlar.

Təklif etmiş olduğunuz bu AB quruluşunda bir İslam Birliyi, terror probleminin necə öhdəsindən gələcəksiniz?

ADNAN OKTAR: Terrora qarşı icra ediləcək ən təsirli mübarizə, fikri və elmi mübarizədir. Terrora zəmin hazırlayan ideologiyalar ortadan qaldırılmadıqca, yəni bataqlıq qurudulmadıqca, ağcaqanadlarla mübarizənin nəticə verməsi qeyri-mümkündür. Terrorun mənşəyində Darvinizm vardır. İnsanları guya bir növ heyvan olaraq görən, inkişafın ancaq mübarizəylə mümkün ola biləcəyini zənn edən, həyatda qalmaq üçün güclü olması lazım olduğu təlqinləriylə yetişən bir insanın sevgi dolu və mərhəmətli olması gözlənilə bilməz. Bu insanın mərhəmətsiz olması, mənfəətləriylə zidd düşdüyündə gözünü qırpmadan bir insanı öldürməsi, müdafiə etdiyi ideologiya üçün qırğın etməkdən çəkinməməsi darvinist təlqinlərin təbii nəticəsidir. İslam adına ortaya çıxdığını iddia edərək terrora və şiddətə müraciət edənlər də əslində darvinistdir.

Müsəlmanlıqda şiddətin olmayacağını, Quran açıq aşkar göstərir. Hətta Allah cinayət işləyən bir adam olduğunda da belə, "Əgər bağışlasanız sizin üçün daha xeyirlidir" buyurur. Müsəlman hansını seçər? Daha xeyirli olanı seçər, təbii ki, əfvi seçər. İslamda əfv vardır. Şəfqət vardır. Mərhəmət vardır. Şiddətin yeri əsla yoxdur. İslam sülh deməkdir, sülhə çağırır Allah.

Terrorla mübarizə üçün insanlara Darvinizmin təhlükələrini, həqiqi üzünü yaxşı izah etmək lazımdır. Elmi heç bir dəyəri olmadığını tam göstərmək lazımdır. Kitablar, məqalələr, açıq iclaslar, konfranslar, video nümayişləri kimi mədəni işlərlə çox qısa müddətdə cəmiyyətlər şüurlandırıla bilər. İnsanlar Darvinizmin əsl üzünü gördüyündə, inancsızlığın, sevgisizliyin, mərhəmətsizliyin, qəddarlığın, şiddətin zəmini dərhal ortadan qalxar. Türk-İslam dünyasında güclü birlik təmin edildiyində, həm bu işlər çox rahat edilər, həm də Türk-İslam Birliyinin gücü şiddətə müraciət etməyə meylli, qarışıqlıq və anarxiya meydana gətirmək istəyənlər üçün çox daşındırıcı olar.

PINE RIVER: Yazılarınızda, sülh dolu bir dünya üçün müsəlman birliyinin lazımlı olduğunu vurğulayırsınız;

"İslam Birliyi yalnız müsəlmanların deyil bütün insanların hüzuru üçün çalışmalı və verdiyi qərar və həyata keçirdiyi tətbiqlərində sülhsevər olmalıdır. İslamın özü müsəlmanların, anlayışlı, şəfqətli, tolerant, səbirli və fədakar olmalarını əsas alan Quranda bildirilən gözəl əxlaqdır. İslam insanları sülh dolu bir dünyaya çağırar."

Türkmənistanın keçmiş Respublika başçısı Saparmurat Türkmənbaşının "Ruhnaməsi"ndə də bənzəri bir mesaj gözə dəyməkdədir: "Türkmənlər digər xalqları qardaşları, öz dostları olaraq görməkdədir. İrqçiliyin türkmənlər arasında yeri yoxdur. Türkmənlər fərqli dillərə, dinlərə və digər millətlərin ənənələrinə hörmət edərlər."

Bəhs etdiyiniz İslam Birliyi, müsəlman ölkələri necə birləşdirəcək, miliyyətçiliyi və irqçiliyi necə aradan qaldıracaq?

ADNAN OKTAR: Türk-İslam Birliyinin əsasını Quranda bildirilən sevgi, anlayış, etidal, təvazökarlıq və ağılla düşünmək meydana gətirəcək. Allah Quranda üstünlüyün yalnız təqvaya görə olduğunu bildirmişdir. Bir insanı digərindən üstün edən maddi imkanları, dərisinin rəngi, inancları, mənsub olduğu soy deyil. Bir insan ancaq mənəvi olaraq digərindən daha üstün ola bilər. Yəni daha təvazökar bir insan, Allahdan daha çox qorxan, Allahı daha çox sevən bir insan, daha köməksevər, daha fədakar, daha səbirli, daha yumşaq xasiyyətli bir insan Quran əxlaqını ən yaxşı şəkliylə tətbiq edir. Belə bir əxlaq həm insanlar nəzərində, həm də inşaAllah Allah Qatında daha qiymətlidir. Amma bu üstünlük, digərini əzmək, istismar etmək mənasında bir üstünlük deyil. Türk-İslam Birliyinin Türk millətinin liderliyində təsis ediləcəyini, Türk millətinin lider olacağını söyləyərkən də hər hansı bir əzici, hakim edici liderlikdən bəhs etmirəm. Tam tərsinə belə bir liderliyə talib olmaq əziyyətə, çətinliyə talib olmaqdır. Bu birliyə daxil olan bütün cəmiyyətlərə və insanlığa xidmətə talib olmaqdır. Hamımız hz. Adəmin övladlarıyıq. Yəni bütün İslam aləmi tək bir ürəkdir. Bütün Türklük aləmi tək bir ürəkdir. Heç birinin bir-birindən fərqi yoxdur. Amma xidmətə talib olma mövzusunda türklərin öndər olmasının ideal olacağını düşünürəm. Çünki həqiqətən tarixə də baxdığımızda həmişə belə olmuşdur. Osmanlı dövründə də həmişə millətimiz bu işə könül vermiş və liderlik etmiş, bunun əziyyətini çəkmişdir. Onun üçün mənim gördüyüm Türk millətinin yenə bu vəzifəyə talib olması lazımdır.

PINE RIVER: “Müsəlmanların birlik olmalarının faydaları” başlıqlı məqalənizdə belə yazmısınız;

İslam Birliyi, həm müsəlmanlar arasında yaşanan mübahisələrə həll gətirəcək həm də müsəlmanlar ilə başqa güclər arasındakı döyüş və qarşıdurmaların sona çatmasını təmin edəcək.

İslam Birliyinin nizamsızlığın olduğu dövlətlər və millətlərlə məşğul olmaqdakı təməl meylinin iqtisadi olacağını qəbul etmək doğrudur?

ADNAN OKTAR: Türk-İslam Birliyi həm siyasi, həm mədəni həm iqtisadi olaraq ciddi bir güclənməyə vəsilə olacaq. Yəni bu birlik, həyatın hər sahəsini əhatə edən müdhiş gözəlliklər gətirəcək. Həm üzv ölkələri, həm də digər ölkələri hər baxımdan qoruyub nəzarət edəcək, darda, çətinlikdə olana kömək əli uzadacaq, anarxiya və qarışıqlığı tamamilə ortadan qaldıracaq, zənginlik və bərəkətin artmasını təmin edəcək, ədalətli, demokrat, sevgiyə əhəmiyyət verən bir-birlik olacaq. Qafqazdan Tanzaniyaya, Fasdan Ficiyə qədər uzanan geniş bir coğrafiyaya yayılmış olan Türk-İslam dünyası, birlik və bərabərlik içində hərəkət etdiyində, Allahın icazəsiylə, yenidən şahlanacaq. ABŞ, Rusiya, Çin, İsrail və bütün Avropa dövlətləri Türk-İslam Birliyinin qurulmasıyla uzun illərdir davam edən kök salmış problemlərin bir anda çözümə qovuşduğunu görəcək, bu vəziyyətdən hər kəs faydalanacaq. Türk-İslam dünyası xaricində qalan böyük dövlətlərin təhlükəsizliyə, iqtisadiyyata, mədəni dəyərlərə dair bütün narahatlıqları bu birliyin qurulmasıyla tamamilə ortadan qalxacaq. Terrorla mübarizə sona çatacaq, mədəni qarşıdurma riski tamamilə ortadan qalxacaq, yeraltı qaynaqları və xammaldan bütün insanların ən gözəl şəkildə faydalanması təmin ediləcək, iqtisadiyyat sabitliyə qovuşacaq və böhran ehtimalı aradan qaldırılacaq, hərbi xərclərə ayrılan büdcə insanların daha keyfiyyətli və etibarlı bir şəkildə yaşamaları üçün sərf ediləcək. Amerikanın əsgərlərini torpaqlarından minlərlə kilometr uzağa göndərməsi lazım olmayacaq, İsrail divarlar arxasında yaşamayacaq, Avropa Birliyi ölkələri hər hansı bir iqtisadi maneələrlə

qarşılaşmayacaq, Rusiya təhlükəsizlik narahatlığı duymayacaq, Çin xammal çətinliyi çəkməyəcək.

Amerika Birləşmiş Dövlətləri, təxminən 400 milyard dollarlıq hərbi büdcəsi ilə silahlanma siyahısının başında yer almaqdadır. ABŞ-ı 60 milyard dollar ilə Rusiya, Rusiyanı da 42 milyard dollar ilə Çin izləməkdədir. Türk-İslam Birliyi, İslam dünyasıyla əlaqədar bütün qarşıdurma və gərginlikləri ortadan qaldıraraq qlobal bir sülh və hüzur mühiti təmin edəcək, yalnız müsəlman ölkələrdə deyil dünyanın digər bir çox ölkəsində də müdafiə xərclərinin azaldılmasını təmin edəcək. Beləcə silah texnologiyasına qoyulan sərmayə, silahların inkişaf etdirilməsinə xərclənən pul, rahatlıqla təhsil, tibb, elm, mədəniyyət kimi sahələrə yönləndiriləcək. Türk-İslam Birliyi, müsəlman aləmini də tam mənasıyla inkişaf etdirəcək. Yaradılacaq İslam Ortaq Bazarı sayəsində, bir ölkədə istehsal edilən məhsullar, gömrük, kvota kimi sərhəd maneələrə ilişmədən bir başqa ölkədə asanlıqla satışa çıxarıla biləcək. Ticarət sahəsi genişləyəcək, bütün müsəlman ölkələrin bazar payı artacaq, ixracat inkişaf edəcək, bu vəziyyət, müsəlman ölkələrdəki sənayeləşmə prosesini sürətləndirəcək, iqtisadiyyatda təmin ediləcək inkişaf ilə texnologiyada da inkişaf yaşanacaq. İqtisadiyyatı güclü bir Türk-İslam aləmi, Qərb dünyası və digər cəmiyyətlər üçün də əhəmiyyətli bir rifah qaynağı olacaq. Bu cəmiyyətlər qarşılarında güvən içində, narahatlıq duymadan əməkdaşlıq edə biləcəkləri, ticari fəaliyyət edə biləcəkləri bir güc tapacaqlar.

PINE RIVER: Bu gün var olan müəyyən bir vəziyyətə baxaq. Çinin Sincan bölgəsində son zamanlarda hücumlar oldu. Şərqi Türküstan, Sincanın çox hissəsinin müsəlman bir bölgə olduğu bilinir. Bununla əlaqədar sizə üç sual soruşmaq istəyirəm;

1) Sincandakı insanlara İslam Birliyinin meydana gəlməsi necə bir ümid verəcək?

2) Sincan problemini Çin ilə həll etmək mövzusunda İslam Birliyinin ələ ala biləcəyi variantlar nələrdir?

3) Ümumiyyətlə müsəlman olmayan ölkələrdə iqamət edən çoxluq təşkil edən müsəlmanlar olan bölgələrlə əlaqədar çözüm tələb edən mövzular üçün sizin düşündüyünüz çözüm nədir?

ADNAN OKTAR: Kommunizm dövründə Türk dövlətləri daha təmiz, daha dürüst, daha gözəl qaldılar, pozulmadılar. Yəni tam əksinə nəticə oldu. Bu gün gedin Şərqi Türküstana, çox gözəl əxlaqlıdır insanlar. Çox təmiz əxlaqlı, xalis müsəlmanlar vardır. Bu da Allahın bir lütfüdür. Dövrümüzdə Çinin Şərqi Türküstana tətbiq etdiyi təzyiq siyasəti bütün dünyadan reaksiya görür. Çin, Şərqi Türküstana da Tibetə də çox qatı davranır. İlk növbədə bu təzyiq və şiddət siyasətinin tamamilə ortadan qalxması lazım. Lakin təbii ki, burada əsl məsələ Darvinizmin Çində də yerlə bir edilməsi, Çində də bu istiqamətdə bir fikri fəaliyyətimiz var. Məzlum Şərqi Türküstan xalqının bu zülmdən tezliklə qurtarılması son dərəcə vacibdir.

Çinin təzyiqləri heç bir vicdanın qəbul edəcəyi kimi deyil. Yəni buraxsın Şərqi Türküstan xalqı öz imkanlarıyla, öz dövlətində istədiyi kimi azad yaşasın. Çin ticarət etmək istəyirsə, gəlsin ticarətini etsin. Amma istismar etmək istəyirsə buna kimsə icazə verməz. Nə istəyir Çin Şərqi Türküstandan və əsir edəndə nə keçəcək əlinə? Yəni əsir etməkdən necə xoşbəxt olacaq? Bu, ürəyinə nə kimi bir sevinc verəcək? Bir zəfərdir bu? Buraxsın çəkilsin Şərqi Türküstandan tamamilə. Oradakı insanlar azadlıq içində məscidlərinə getsinlər, fabriklərinə getsinlər. Söhbət etsinlər, bayram sevinci yaşasınlar.

Çinin burada bir gözəllik etməsi lazımdır artıq. Bunun vaxtı gəldi. “Bu ölkə müstəqilliyi haqq edən bir ölkə. Biz bura gərəksiz müdaxilə etdik. Heç bir məqsədi də yox, heç bir məntiqi də yox. 21-ci əsrə yaraşacaq bir şey deyil bu. Biz buradan əsgərimizi də çəkirik. Siyasi təzyiqimizi də qaldırırıq. Bu dövləti azad elan edirik” dediyində, Çin bütün dünyada sevilər. Hər kəs hörmət edər. Baxın o zaman Çin dünyaya necə açılır. Buraxsınlar Şərqi Türküstanı demokratik olsun. Dünyəvi olsun. Dünyada müstəqil bir ölkə olaraq gözəl yerini alsın. Çin bundan qat-qat zəngin olar. Yəni bundan itkisi olar deyə düşünməməsi lazımdır. Etibar itirməz. Hörmət qazanar. Bu qürur məsələsi ediləcək bir şey deyil. Əgər Şərqi Türküstandan çəkilsə, bununla əlaqədar müqavilələr də edilə bilər. Daha çox onlara elektrik verilə bilər, neft verilə bilər. Onları müşkül vəziyyətdə buraxacaq bir şey onsuz da olmaz. Yəni elektrikin satılması, neftin satılması, enerji satılması onsuz da İslam ölkələrinin istədiyi bir şey. Bu onların lehinə olar. Ucuz da satılar lazım olsa. Amma yetər ki, bu zülm və haqsızlıqdan imtina etsin. İstədiyi neft olsun, istədiyi elektrik olsun, istədiyi təbii qaz olsun, amma bunun üçün milyonlarla insanı əsir edib əzmənin bir mənası yox. Bu, qarşılıqlı razılaşmalarla da edilə bilər. Bütün Türk dövlətləri toplanıb Çin ilə bu mövzuda razılıq əldə edə bilər. Məsələn 50 illik müqavilə bağlayaq deyilir. Və həqiqətən də satılar neft. Amma təbii ki, bunlar ancaq Türk-İslam Birliyi ilə olar. Türk-İslam Birliyini sürətləndirmək lazım. Bu birliyin Çinə də fayda gətirəcəyini, Çinə gözəl bir üslubla izah etmək lazım. Çin bəlkə bu birliyin əleyhinə olacağını düşünə bilər. Halbuki tam tərsinə Çinin lehinə olar, Çini hər istiqamətdən qurtarar. Hərbi istiqamətdən də qurtarar, bir hücuma qarşı da qurtarar. İqtisadi istiqamətdən də qurtarar. Müasirləşməsini təmin edər. Öz millətinin qurtuluşu üçün də Çinin Türk-İslam Birliyini dəstəkləməsi lazımdır.

PINE RIVER: İslam Birliyinin Mərkəzi hansı ölkədə olacaq? Niyə bu ölkə seçilmiş olacaq?

ADNAN OKTAR: Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdi (ə.s.)-ın İstanbuldan çıxacağı rəvayət edilir inşaAllah. "Əhli Beytimdən bir şəxs (hz. Mehdi (ə.s.)) (dünyaya) sahib olana qədər qiyamət qopmaz. O, İstanbulu fəth edəcək" deyə bildirmiş Peyğəmbərimiz. İnşaAllah bu mənəvi bir fəth olacaq. Böyük İslam alimləri də Axırzamanda, İslam aləminin mərkəzinin İstanbul olacağını söyləyirlər. Hazırki siyasi hadisələr də, Türkiyənin əhəmiyyətli və aktiv bir rol boynuna götürdüyünü göstərir. Qafqazda, Orta Şərqdə hətta Afrikada Türkiyə sülh və sabitliyin liderliyini edir. Çox gözəl bir gedişat var inşaAllah, Türkiyənin öndərliyində 10-15 il içində dünyada çox aydınlıq dövr başlayacaq. Mövcud fitnələrin, qarışıqlıqların hamısı sona çatacaq. Hz. Süleyman dövrü kimi çox bərəkətli, bolluq içində bir dövr yaşayacağıq inşaAllah. Dünyanın qurtuluşu çox yaxın inşaAllah... (www.harunyahya.tv)

Adnan Oktarın "Asia Rfa" radiosu müsahibəsi (iyun 2008)

ASIA RFA: Bəli, biz sizi əsərlərinizdən tanıyırıq. Elm Araşdırma Vəqfindən tanıyırıq. Əvvəlcə Elm Araşdırma Vəqfi ilə əlaqədar qısaca məlumat verərsinizmi? Hansı sahədə iş görür? Nə vaxt quruldu? Bu sahədə qısaca dinləyicilərimizə.

ADNAN OKTAR: Bəli, Elm Araşdırma Vəqfi Atatürkçü, milliyyətçi, müqəddasatçı, mənəviyyatçı, doğruları, gözəlləri müdafiə edən, Türkiyənin Böyük Türkiyə olmasını müdafiə edən, Türk-İslam Birliyini müdafiə edən, Türk-İslam Birliyi coğrafiyasındakı bütün müsəlmanların, əsir dövlətlərin, əsir millətlərin, qurtuluşunu müdafiə edən igid bir birlikdir.

ASIA RFA: Sizin Türk-İslam Birliyi dediyiniz zaman haraları əhatə edir?

ADNAN OKTAR: Adriatikdən Çinə qədər hər yer. Yəni Qafqaz bunun içinə daxil, əfəndim, Türküstan bunun içinə daxil. Şərqi Türküstan, Qazaxıstan, Azərbaycan, Əlcəzair, Fas, Tunis, Misir, Pakistan, İran hamısı içinə daxil.

ASIA RFA: Burada Xristian və Buddist türkləri hara yerləşdirirsiniz?

ADNAN OKTAR: Onlar o birlik içərisində son dərəcə rahatlayacaqlar. Yəni onların haqqı ən gözəl şəkildə müdafiə olunacaq. Yəni hətta ateist olanlara da lazım olan hörmət, əlaqə, nəzakət göstəriləcək.

ASIA RFA: Bəli, Harun bəy, indi təbii ki, Şərqi Türküstanı bilirsiniz. İndi təbii ki, Ənvər Paşa, tacikistanlı, bugünkü Türk-İslam coğrafiyası içində vəfat etmişdir, amma Türkiyədə bir çox insan Ənvər Paşanı xəyalpərəst deyə söyləyər. Amma əgər Türküstan, Turan Birliyi o zaman reallaşmış olsaydı bəlkə belə deməzdilər. Amma bu gün Nursultan Nazarbayevin

ortaya atdığı, təbii ki, keçmişdən bəri bu var. Türküstan Birliyi qurulması, belə bir ifadələr var. Buna siz necə baxırsınız?

ADNAN OKTAR: Bir birlik vardır. Türk-İslam Birliyidir. Ən mükəmməl, ən möhtəşəm, ən güclü, ən inandırıcı, zəmini oturmuş. Hər kəsin qəbul edəcəyi və hər yeri, hər kəsi əhatə edən, ədalətli olan birlik budur. Türk-İslam Birliyi içərisində İsrailli yəhudiləri də müdafiə edəcək. Buddistləri də müdafiə edəcək. Ateistləri də müdafiə edəcək. Hamısını qoruyub, nəzarət edəcək. Türkün növü olmaz. Türk Türkdür. Dünyanın harasında olursa olsun bunlar qardaşdır. Müsəlmanın da növü olmaz. İstər Azərbaycanda olduğu kimi Şiələrdən meydana gəlsin. Əfəndim, Sünnilərdən meydana gəlsin. Vəhabi olsun, Ələvi olsun. Hər nə olursa olsun. Bunlar hamısı bizim qardaşımızdır. Bölücü izahların heç birini qəbul etməmək lazım. Hamısını birləşdirəcəyik inşaAllah.

ASIA RFA: İndi burada təbii ki, 100 illik Rusiyadan çıxdılar Türk Respublikaları, keçmişdən Türküstan coğrafiyası dediyimiz zaman Buxara, Səmərqənd bunlar İslam mədəniyyətlərinin mərkəzi olan yerlərdir lakin, 100 illik bu kommunist, materialist, Darvinizm təhsilindən keçmiş bir cəmiyyət. İndi burada İslam, Türk-İslam Birliyi burada necə qurulacaq, infrastruktur varmı? Buradakı İslam anlayışına necə baxırsınız? Yəni bu birliyin mümkünlük nisbəti nə qədər?

ADNAN OKTAR: Kommunizm dövründə Türk dövlətləri daha da təmiz, daha dürüst, daha gözəl qaldılar, pozulmadılar. Yəni tam əksinə nəticə oldu. Yəni bu gün gedin Şərqi Türküstana gözəl insanlar vardır. Çox təmiz əxlaqlı, xalis müsəlmanlar vardır. Qadınlar olsun, gənclər olsun bunların hamısı qüsursuz bir İslam əxlaqına sahibdirlər. Məsələn bir çox yerdə degenerasiya olmuşdur müsəlmanlar, amma oralarda olmamışlar. Məsələn, Türküstana getdiyimiz zaman, təəccüblə qarşı-qarşıya qalırıq, yəni son dərəcə dürüst, gözəl, təmiz insanlarla qarşılaşırıq. Kommunizm

tam əksinə təsir etmişdir. Bu da Allahın bir lütfüdür. Çox təmiz qalmışlar. Təcrid qalmışlar. Və kimsə də onlara bir zərər verə bilməmişdir. Bu birlik, təmiz birlik, qarşıdakı 10 il içərisində, 15 il içərisində rahatlıqla meydana gələcək kimi görünür. İlk inşaAllah Azərbaycandan başlayırıq Allahın icazəsiylə, ilk oradan başlanacaq.

ASIA RFA: Bu çox əhəmiyyətlidir, bu gün dünyada yumşaq güc dediyimiz zaman təhsil ilə bütün dünyaya, təsirinizi yaya bilirsiniz. Bu gün Elm Araşdırma Vəqfi, Harun Yəhya hoca olaraq çox əsərləriniz var. Bu gün Uyğur Türkcəsiylə CD-lər Şərqi Türküstana qədər çatdı. Biz radioda da yayım etdik. Bu işlərinizdən qısaca bəhs edərsinizmi? İndiyə qədər neçə əsər yazdınız? Hansı dillərə çevrildi? Buna necə bir reaksiya gəlir əsərlərinizə?

ADNAN OKTAR: 300-ü keçdi indiyə qədər yazılan kitablar, ən çox Yaradılış Atlası dünyanı sarsıtdı. Bütün Avropanı sanki Darvinizm mövzusunda yerlə bir etdi.

Yəni atom bombası təsiri etdi onların ifadəsiylə həqiqətən bir gecənin içərisində Fransa öz ifadələriylə tarixinin ən böyük mədəni məğlubiyyətini almış oldu.

Və bu həqiqətən öz ifadələriylə hələ də davam edir. Zəncirləmə təsir müntəzəm davam edir. Bunu izah edən bir çox yazımıza internet saytlarımızdan baxa bilərsiniz. Kitablarımızın xarici dilə çevrilmə sayı da 60-ı keçib hal-hazırda. 60 ayrı dilə çevrildi. Kitab olaraq "Kommunist Çinin zülm siyasəti və Şərqi Türküstan" adlı kitabım Türkcə, İngiliscə Almanca olaraq mövcuddur. Saytdan bunu endirə bilərlər qardaşlarımız. "Kommunist Çinin zülm siyasəti və Şərqi Türküstan". Sırf ona aiddir və İngiliscə, Almanca, Türkcə var. Sayt olaraq da Türkcə və İngiliscə olaraq Şərqi Türküstan ilə əlaqədar saytımız mövcuddur (www.doguturkistan.com).

Bura baxdığında qardaşlarımız hər cür məlumatı görəcəklər. Sənədli film olaraq "Kommunizmin qanlı tarixi" var. I, II və III, onlardan da istifadə edə bilərlər. Məqalə olaraq, "Kommunist torpaqlarda bir İslam cəmiyyəti Şərqi Türküstan" var. "Şərqi Türküstandakı Çin zülmü görməzlikdən gəlinməməli" şəklində bir məqaləm var. "Şərqi Türküstan həqiqəti" deyə yenə bir məqaləm var. Lakin təbii ki, burada əsl məsələ Darvinizmin Çində də yerlə bir edilməsi, Çində də bu istiqamətdə bir fəaliyyətimiz var. Lakin kommunist bir ölkə olduğu üçün təbii orada demokratiyadan danışmaq o qədər də mümkün deyil. Lakin bu son zamanlarda Avropadan və Amerikadan asılı hala gəldi Çin. Yəni iqtisadi siyasətindən ötəri xaricə açılmağa məcbur qaldı. İndi bir mənada əli həm Amerikaya həm Avropaya məhkum kimi görünür.

Həqiqətən xarici ticarəti bu gün kəssə xarici ölkələr, Çinin iqtisadiyyatı yerlə bir olar. Yəni bir anda Çini aşırtma gücünə sahibdirlər əslində Avropa da, Amerika da. Ona görə Çin əvvəlki qədər belə baş qadıracaq bir gücə sahib deyil. Şərqi Türküstanın qurtuluş vaxtının gəldiyinə də bu bir işarədir. Yəni bu dövrü çox yaxşı qiymətləndirə bilərik artıq. Çünki Şərqi Türküstan, dünyanın ən təmiz müsəlmanlarının, bəlkə ən əfəndi insanlarının yaşadığı bir yerdir. Ən çox təcrid olunmuş, ən seçmə insanların yaşadığı bir yerdir. Mən bunu şəxsən özüm müşahidə etdim bilirəm yəni əminim. Ona görə bu insanların bu zülmdən tezliklə qurtarılması son dərəcə həyati, yəni bütün dünyanın namusudur bu. Bütün dünyanın üzərinə düşən bir namus borcudur bu.

Mütləq Çinin əlindən bu böyük Türk dövlətini qurtarmaq lazımdır. Burada Çinin müdaxiləsi heç bir vicdanın qəbul edəcəyi kimi deyil. Buraxsın Şərqi Türküstan öz imkanlarıyla öz dövlətində istədiyi kimi azad yaşasın. Çin ticarət etmək istəyirsə gəlsin ticarətini etsin. Çinə Şərqi Türküstanın hücum edəcəyi bir vəziyyət ola bilməz. Yaxşı, nədir istədiyi Çinin. Yəni nə mənfəəti var? Əgər bir çıxar istəyirsə ticarət ola bilər bu,

edək, Şərqi Türküstan etsin Çinlə ticarət etsin. İstismar etmək istəyirsə buna kimsə icazə verməz. Bunun xaricində bir ölkəni əsir etmənin aləmi nə? Yəni nə istəyir Çin Şərqi Türküstandan və əsir olunca nə keçəcək əlinə. Bu şəkildə necə xoşbəxt olacaq? Bu vəziyyət, nə kimi ürəyinə bir sevinc verəcək? Bir zəfərdirmi bu? Buraxsın çəkilsin Şərqi Türküstandan tamamilə. Oradakı insanlar azadlıq içində məscidlərinə getsinlər, fabriklərinə getsinlər. Söhbət etsinlər, bayram sevincinə dönsün. Çinin burada bir gözəllik etməsi lazımdır artıq. Bunun vaxtı gəldi. Açıq şəkildə meydana çıxsın ortaya biz burada səhv etdik. Bu ölkə müstəqilliyi haqq edən bir ölkə. Biz bura gərəksiz müdaxilə etdik. Heç bir məqsədi də yox heç bir məntiqi də yox. Belə 21-ci əsrə yaraşacaq bir şey deyil bu. Biz buradan əsgərimizi də çəkirik. Siyasi təzyiqimizi də qaldırırıq. Bu dövləti azad elan edirik dediyində, Çin bütün dünyada sevilər. Hər kəs hörmət edər. Bu gözəlliyi etməsi lazım Çinin.

ASIA RFA: Bəli, indi siz "Kommunist Çinin zülm siyasəti və Şərqi Türküstan" kitabınızda da bəhs edirsiniz. Çində 49-dan sonra edam edilən öz vətəndaşı xaricində müsəlmanların sayı milyonlarla sayılır, amma bu gün ABŞ-ın İraqa girməsi, Əfqanıstan, sonra Fələstin məsələsi burada biz dünya mediasında görürük, gündə neçə adam öldüyünü. Amma ən ağrılı olan bu gün Şərqi Türküstanda yalnız kitab yazdığı üçün, şeir yazdığı üçün içəridə olan, edam edilən minlərlə insan var. On minlərlə insan var, amma dünya səssiz buna. Nə səbəbə?

ADNAN OKTAR: Bu mövzuda Türk-İslam Birliyi düşüncəsini müdafiə edən hər kəsin yeri yerindən oynatması lazım. Bizim önümüzdəki günlərdə bu istiqamətdə bir işimiz başlayır. İlk başda Azərbaycan ilə başladıq. İndi sıra Şərqi Türküstanda, Şərqi Türküstanı mətbuatda gündəmə gətirəcəyik, yəni Çinin artıq əlini bu ölkədən çəkməsi, bu insanları rahat buraxması lazım, bir də davamlı adam öldürülür. Yazı yazdı deyə adam öldürmək,

havaya baxdı deyə, yerə baxdı deyə adam öldürmək. Bu zülm, ən vicdansız insanın belə edəcəyi bir şey deyil.

Çin bunu etməklə dünyada alçalır. Özünü hörmətdən salır. Hər şeyini hörmətdən salır. Millətini hörmətdən salır, dövlətini hörmətdən salır. Bunu etməsin. Bunu bir dürüstlük anlayışı içərisində, ağılla, əfəndilik anlayışı içində etsin, düşünsün. Çəkilsin, buraxsın bu ölkəni azad olsun Şərqi Türküstan. Baxın o zaman dünya Çinə necə açılır. Türkiyənin dünyagörüşü nə qədər gözəl olur. Məsələn Türkiyədən işçilər gedər Çinə, işləməyə gedərlər, bura gələnlər olar. Tam fərqli bir xətt olar.

Amma bu qanayan yara olduğu müddətcə, bütün millətin ürəyində bir qəzəb meydana gələcək. Yəni bir çox insan, bir çox ticarət adamı iş qurmaq üçün Çinə sırf bu nifrətdən ötəri gedə bilmir. Çünki bu qədər insanı öldürən, bu qədər cinayət işləyən bir ölkəyə, insan sinəsini gərə-gərə gedə bilərmi? Yerlər insan qanı dolu. İnsan qanına basaraq gedəcəksən orada, Çində. İnsan qanının üstündə müsəlman gedə bilməz. O qanı yerdən təmizləyəcəklər. Bu cinayətləri dayandıracaqlar bu zülm qalxacaq. Buraxsınlar Şərqi Türküstanı demokratik olsun. Dünyəvi olsun. Dünyada müstəqil bir ölkə olaraq gözəl yerini alsın. Çin bundan qat-qat zəngin olar. Yəni bundan itkisi olar deyə düşünməməsi lazımdır. Nüfuz itirməz, etibar qazanar bundan. Bu qürur məsələsi ediləcək bir şey deyil.

ASİA RFA: İndi burada Türküstan coğrafiyasına baxdığımız zaman Çin üçün strateji baxımdan çox əhəmiyyətli. Çin bu gün ABŞ-dan sonra ən çox enerji istehlak edən ölkələrdən biridir. İnkişaf etmək üçün enerji, neftə ehtiyac var. Bu da Orta Asiyadan təmin edilir. Bu gün Qazaxıstandan neft boru xətti Şanxaya qədərdir. Şərqi Türküstandan təbii qazı var. Buranı tarixdə 4 dəfə işğal etmiş Çin, Türküstan coğrafiyasını, 4 dəfə super güc olmuş. Buradan bəslənmiş. Bu səbəbdən bura Çin üçün çox əhəmiyyətlidir, Çin buraxmaq istəmir. Bunun tərsinə Qərbi Türküstana

istiqamətli bir açılma siyasəti var. Yəni Türk dünyası olaraq İslam dünyası olaraq nə edilməsi lazım? Uyğurlar bu gün İslam dünyasına bir az küskün çünki 11 sentyabrdan sonra, beynəlxalq terrorizmə qarşı mübarizəni bəhanə edərək, Çin bir çox uyğuru həbs etdi. Bu gün oruc tutmaq qadağandır, təməl inanc azadlığı yoxdur. Bu, Əfv Təşkilatının hesabatlarında da təyin olundu. Siz buna necə baxırsınız?

ADNAN OKTAR: Çinin bu soyuq müharibə dövrünün başını buraxması lazım. Əgər Şərqi Türküstandan çəkilsə bununla əlaqədar razılaşmalar da edilə bilər. Yəni daha çox onlara elektrik verilə bilər, neft verilə bilər. Onları müşkül vəziyyətdə buraxacaq bir şey onsuz da olmaz. Onlara elektrikin satılması, neftin satılması, enerji satılması onsuz da İslam ölkələrinin istədiyi bir şeydir. Bu onların lehinə olar. Ucuz da satılar lazım olsa. Amma yetər ki, bu insanların yaxasını buraxsın. İstədiyi neft olsun, istədiyi elektrik olsun, istədiyi təbii qaz olsun, amma bunun üçün bu qədər milyonlarla insanı əsir edib əzmənin bir mənası yoxdur. Bu, qarşılıqlı razılaşmalarla da edilə bilər. Məsələn Türkiyə ilə də razılaşma edilə bilər. Dövlətlərlə Çin razılaşma edə bilər. Bütün Türk dövlətləri toplanıb Çin ilə bu mövzuda razılığa gələ bilər. Biz səni təbii qaz cəhətdən, elektrik cəhətdən enerji cəhətdən, neft cəhətdən tam mənasıyla doyuracağıq. Amma sən bu tərtəmiz insanların bir yaxasını burax, bu qədər. Mövzu bu, məsələn 50 illik müqavilə bağlayaq deyilir və həqiqətən də satılar neft. Çinin istədiyi neft olsun.

ASIA RFA: Bəli, burada siz Türkiyənin Şərqi Türküstan siyasətinə necə baxırsınız? Yəni bu gün Türkiyədə çox çətinlik var. 1998-ci ildə Məclisdən bir sərəncam çıxmışdı. Bu gün Şərqi Türküstanın göy bayrağını asmaq qadağandır. Çox çətinlik yaşayır burada vətəndaş cəmiyyət təşkilatlarımız. Amma Türkiyə deyir ticari əlaqəmizə zərər verər. Bu səbəblə Çin, “biz Şərqi Türküstan vətəndaş cəmiyyət təşkilatlarına orada bir sıra şeylərə icazə verməyəcəyik” deyir. Amma ticari əlaqəyə

baxdığınız zaman Çindən 14 milyard dollarlıq mal alırıq. Biz yalnız 1 milyard dollarlıq mal satırıq. Bu gün milli sənaye Türkiyənin milli sənayesini keyfiyyətsiz Çin malları yox edir. Böyük bir təhdiddir bu gün Çin malları. Türkiyənin siyasəti nə olmalı? Təbii ki, Türk dünyası dediyimiz zaman Türkiyə Osmanlıdan gələn köklü böyük bir dövlət. Amma bu gün bir sıra siyasətlərdə daxili qarşıdurmalardan ötəri xaricə çox əhəmiyyət verə bilmir Türkiyə. Siz Türkiyənin Şərqi Türküstan siyasətlərinə necə baxırsınız?

ADNAN OKTAR: Türkiyə işin doğrusu bir Türk-İslam Birliyi siyasətini ruhunda istər istəməz mühafizə edir. Yəni genlərində var. Hər Türk Türk-İslam Birliyinin qurulmasını şüur altında istəyər. Amma Türkiyənin Çinə tək başına gücünün çatması mümkün deyil. Bu ancaq Türk-İslam Birliyi ilə olar. Türk-İslam Birliyini sürətləndirmək lazımdır. Çox sürətləndirmək lazım. Bu birliyi Çinə də fayda gətirəcəyini, Çinə gözəl bir üslubla izah etmək lazım. Çin dövlətinə bunu çox gözəl bir üslubla izah etmək lazım. Çin bəlkə bu birliyin əleyhinə olacağını düşünə bilər. Çinin lehinə, Çini qurtarar bu, hər istiqamətdən qurtarar. Hərbi istiqamətdən də qurtarar, bir hücuma qarşı da qurtarar. İqtisadi istiqamətdən də qurtarar. Müasirləşməsini təmin edər. Təəssüf ki, Çinin öz xalqı da sürünür. Mən görürəm qəzetlərdə filan balaca daxma kimi yerlərdə yaşayırlar. Sürünür milləti. O insanlar da rahatlayarlar. Öz millətinin qurtuluşu üçün də Türk-İslam Birliyini, Çinin dəstəkləməsi lazımdır. Bu birlik bir işğal birliyi deyil, bir eqoist birlik deyil. Bu bir sevgi birliyi, dostluq birliyi və həmrəylik birliyi və anlayış tolerantlıq, mülayimlik birliyi və dünyəvi zəmində olacaqdır.

Zəmini dünyəvi zəminə oturacaq bu çox əhəmiyyətlidir. Dünyəvi olduqdan sonra, sülh tərəfdarı olduqdan sonra, demokratiyanı müdafiə edən bir sistem olduqdan sonra Çinin bundan çəkinməsi üçün bir səbəb yoxdur. Bu təbii ki, İsrailin də rahatlaması deməkdir. Bütün bölgədə

qarşıdurmanın bir anda dayanması deməkdir. Çünki Fələstin də bilirsiniz iztirab içindədir, amma İsrail də iztirab içindədir, çünki hər an başlarına bir bomba düşməsi ehtimalı olur. Hər an bir şey olması ehtimalı vardır. Divarların arxasında yaşayır İsrail. Sanki əsir oldular, öz-özlərini əsir etdilər. Divarın içinə həbs etdilər. Yıxaq o divarları, açaq. Dayanmadan oraya ticarət avtomobilləri getsin. Avtobuslar getsin, yük maşınları getsin. Gəmilər getsin dəniz yoluyla bir fərahlıq olsun, Çini də bu mövzuda razı salmaq üçün.

Təbii ki, bu daha çox vətəndaş cəmiyyət quruluşlarının işiylə ola bilər bir az. Amma bu istiqamətdə bizim çox işimiz olacaq önümüzdəki günlərdə. Çini bu gərəksiz qorxularından qurtaracaq, klassik dövlət siyasətlərindən imtina etməsini təmin edəcək bir düşüncə bu. Çünki klassik dövlət siyasətində nə edərsən, mənfəəti olan bir yer vardır, gedər oranı işğal edərsən. Adamları da əzərsən orada yaşayarsan. Yəni qan əmərək yaşamağa ehtiyac yoxdur. Bu sevgiylə olar, dostluqla olar. Yəni yarasaya uyğundur qan əmərək yaşamaq. Çinə yaraşmaz bu.

ASIA RFA: İndi çinlilərdə belə bir Türk-İslam qorxusu vardır. Bu səbəbdən son dövrdə müsəlman Uyğur Türklərinə qarşı təzyiq getdikcə artır. Daha bir həftə əvvəl bir müəllim ilə reportaj etdim. Məktəbdə yemək yeyərkən Bismillah deyərək yeyin deyə söyləyən müəllimi, dindardır deyə işindən atmışlar. Bu, yaxında olmuş. 21-ci əsrdə, bu gün olan hadisələr bunlar. Bunlar kimi yüzlərlə nümunə göstərə bilərik. Belə bir şeydə biz Türk-İslam Birliyi dediyimiz zaman Çini daha çox ürkütdüyümüzdə, Şərqi Türküstana təzyiq daha artacaq? Bu necə olacaq? Əbdüləzizdən bəri Şərqi Türküstanda Pantürkizm Panislamizmin Türkiyədən qaynaqlandığını söyləyib yazan cild-cild kitablar vardır. Bu gün də yazırlar bunu. Yəni belə bir Çin varkən bu tezis orada necə bir təsir edər sizcə?

ADNAN OKTAR: Bir Pantürkizm, bir Panislamizm vardır. Bir də Türk-İslam Birliyi vardır. Pantürkizmdə əgər bir insan istəsə bunu, Türk irqinin dünya irqlərinin üstündə olduğu və bütün dünya irqlərinin ona kölə olacağı şəklində şərh edə bilər. Bundan təbii ki, qorxar insanlar. Yaxud məsələn İslam Birliyi olaraq düşünər.

O qatı qaydaların hakim olduğu çox mərhəmətsiz bir sistemə çevirməyə çalışa bilər şəxslər. Tarixin qaranlıqlarında biz bunu gördük. Daha əvvəlki dövrlərdə gördük. Nə odur, nə budur, burada nəzərdə tutulan. İlk əvvəl burada dünyəvilik sığortası vardır. Sistem tam bir dünyəvi sistem üzərinə oturacaq bu çox əhəmiyyətlidir. Buddist birinci sinif insan olacaq, ateist birinci sinif insan olacaq, birinci sinif vətəndaş olacaq. Müsəlman birinci sinif vətəndaş olacaq. Xristian birinci sinif vətəndaş olacaq. Yəhudi birinci sinif vətəndaş olacaq. Bu dünyəviliklə təmin ediləcək. Amma coşğun bir sevgi mühiti və güvən və təbii ki, güclü bir hərbi birlik, hərbi quruluş. Harada terror vardır? Qan axıtmağa da ehtiyac yoxdur. Yoldaş deyərsən, terroru kəs. Adam dayandırar, daşındırıcı güc qarşısında bir insan əlini uzatmaz. Dünyanın harasında olursa olsun terror olduğunda əlaqədar şəxsi çağırarsan, yoldaşım ayıb edirsiniz, bunu etməyin dediyində mövzu bitər. Amansız bir güc olacaq çünki Türk-İslam Birliyinin hərbi gücü ağla sığmaz bir güc olacaq. Kimə xahiş etsə mövzu bitər. Bu səbəbdən qarışıqlıq bitəcək. Ədalətsizlik bitəcək. Onun üçün kimsə buna etiraz etməz.

ASIA RFA: Belə olduğu zaman Türkiyənin də Tənzimatdan bəri davam edən Qərbliləşmə, Avropa Birliyinə girmə proyekti necə olacaq?

ADNAN OKTAR: Avropa Birliyinə Türk-İslam Birliyinin lideri olaraq girsə, Avropa şahlanar. Avropa birsə yüz olar o zaman. Dünyanın ən böyük dövləti halına gəlir Avropa. Amma Türk-İslam Birliyi də, hamısının üstündə birinci dövlət olar. Yəni bütün dünyanı sərvətə, mala, bolluğa

boğar bu. Yəni yemək içki artıq zibil kimi, küçələrə tökülləcək hala gələr. Yəni mal o qədər bollaşar ki, insanlar nə edəcəklərini təəccüblənər. Zənginlik elə bir bollaşar ki, insanlar təəccüblənər.

Bu israf, müharibə, dağa-daşa bomba atmaq, bundan qaynaqlanır. Fələstində, məsələn İsrail bir az pul qazanır, qazandığı pulu olduğu kimi hərbi xərclərə sərf edir. Qardaşım nə gərək gəl Türk-İslam Birliyinin quruluşu içərisində yerini al. Öz dövlətin müstəqil olsun. Unitar dövlətini qur. Kimsə sənin dövlətinə bir şey demir. Hərbi strukturun da olsun amma bu sistemi dəstəklə sən, və hərbi xərclər etməyinə də gərək qalmasın. Dağı-daşı bombalamağına gərək qalmasın. Milyonlarla insanı öldürməyinə gərək qalmasın. Zülm etmə, burax bunları rahatla, budur məntiq.

ASIA RFA: Bəli, indi bu təbii ki, Türk Respublikaları dediyimiz zaman bu gün dünyada 7 Türk bayrağı dalğalanır Birləşmiş Millətlərdə. Lakin Türküstan coğrafiyasına baxdığımız zaman buradakı dövlət başçılarının çoxu kommunist rejimdən çıxmış insanlardır. Bu gün Özbəkistanın ən böyük qorxusu İslam. Yəni bu gün İslam qorxusuyla insanlara, insan haqq və hüquqları baxımından Özbəkistan ən geri ölkələr siyahısındadır. İndi belə bir coğrafiyada bu respublikalarda bu idarəetmə dəyişmədiyi müddətcə bu Türk-İslam Birliyini bunlara necə izah edəcəksiniz?

ADNAN OKTAR: Özbəkistanda təqdim edilən İslam, insanların qorxacağı kimi bir şeydir, yəni orada demokratiya yoxdur. İnsan haqları yox. Zülm var, kəsmə var, biçmə var və heç bir məzhəbə, öz xaricində heç bir düşüncəyə yaşama haqqı yoxdur. Gəlin baxaq sən bir sünni ol, bitərsən bu sistemdə yaxud cəfəri ol bitərsən. Mütləq ki, o sistemə uyğun gələcəksən. Halbuki mənim izah etdiyim sistemdə hər məzhəb, hər din mümkün qədər azad yaşayar. Və hüzur içində yaşayar.

Özbəkistan bunu bilsə belə bir sistemi, onlar başımızın üstündə yeri var bu sistemin deyər. Amma tanıdılan Pantürkizm və Panislamizm, tam fərqli şeylərdir bunlar. Bunlarda qan var, gözyaşı var. Bizim izah etdiyimizdə sevgi var, sülh var, qardaşlıq var, hüzur var və mümkün olduğu qədər fikir azadlığı var, düşüncə azadlığı var. Hər insana düşüncəsindən ötəri hörmət etmə var. Nə gözəl, məsələn adam dinsizsə söyləsin. Niyə gizləsin, münafiq olacağına, mərdanə açıqca söyləsin. Yoldaş, mən dinsizim desin, bilərsən nə gözəl bax, rahat. Dinsizsə o sənin dinsiz yoldaşın, qardaşındır. Ola bilər, Allah onu o şəkildə yaratmışdır. Ola bilər, Allah dinsiz insan yaradacağını da söyləyir Quranda.

ASIA RFA: İndi Türküstan coğrafiyasında mən internetə girib belə gənclərin yazdıqları fikirlərə baxdığım zaman dünyəvilik dediyimiz zaman bir dinsizlik olaraq anlayırlar. Bu dünyəviliyi də tam olaraq izah edə bilmiş deyilik. Yəni siz dünyəvilikdən bəhs edirsiniz. Dünyəvilik necə bir şeydir sizdən ala bilərikmi fikrinizi?

ADNAN OKTAR: Dindarın ola bildiyi qədər sərbəst olduğu, dinsizin də ola bildiyi qədər sərbəst olduğu, dövlətin hakim olduğu bir sistem. Məsələn dinsiz namaz qılmaz hörmət edərsən, oruc tutmaz hörmət edərsən. Şərab içər hörmət edərsən. Dindar da gedər namazını qılar hörmət edərsən. Oruc tutar hörmət edərsən. Quran oxuyar hörmət edərsən. Dünyəvilik budur, bax. Məsələn Quran satar, dini kitablar satar hörmət edərsən. O da ateistdir öz inancıyla əlaqədar kitab satar ona da hörmət edərsən. Dünyəvilik budur.

ASIA RFA: İndi Şərqi Türküstan 20 milyon müsəlmanın yaşadığı məhz Mahmud Qaşqarilərin, Yusif Has Haciblərin doğulduğu torpaq. Amma bu gün burada həqiqətən insanlıqdan kənar bir tətbiq vardır. Sizin tövsiyəniz Şərqi Türküstan müsəlmanlarına, bu gün Qərb dünyasında ABŞ-da, Yaponiyada müxtəlif bölgələrdə oradakı zülmü izah etmək üçün, müxtəlif

yollarla fəaliyyətini davam etdirən bir çox vətəndaş cəmiyyət təşkilatları vardır. Belə bir vəziyyətdə bu gün Çin getdikcə böyüyür. Böyüdükcə bir sıra həssas mövzulara heç dözümü yox. Tibet hadisəsini də görürük. Şərqi Türküstan məsələsi bu iki həssas mövzu, Çinin ən həssas mövzularından biridir.

ADNAN OKTAR: Tibeti də qurtaracağıq.

ASIA RFA: Şərqi Türküstanlılara nə tövsiyə edərsiniz? Nə edilməsi lazımdır?

ADNAN OKTAR: Çinin təbii ki, çox üstünə getmək doğru deyil. Ediləcək şey mədəniyyət. Çox keyfiyyətli bir gənclik yetişdirmək lazımdır. Çox dindar, şüurlu, anti-darvinist, anti-marksist, anti-kommunist, başı çox yaxşı işləyən, professorlar, elm adamları, həkimlər, hüquqşünaslar. Çin bu gücə qarşı qoya bilməz. Qarşısı alınmayan güc vardır, mədəniyyət. İkiqat olar onun qarşısında. Mədəniyyətə çox əhəmiyyət versinlər. Mənim saytlarıma girsinlər, bütün kitablarımı oxusunlar, pulsuz endirilir. Hamısını oxusunlar çox şüurlansınlar, Çinin gözünün içinə mənalı-mənalı baxsınlar. Çin geri çəkiləcək. Edə bilməz yəni gücü çatmaz. Mədəniyyət qarşısında heç bir güc qarşı qoya bilməz. Sən deyirsən ki, günəş doğulmuş. Mən inanmam deyir. Pərdənin kənarını bir açırsan, bir bağlayırsan bir saniyədə bitdi. Orada yüz adam varsa yüzü də birdən düşər mövzu bağlanar. Darvinizmin olmadığını çox yaxşı mənimsəmiş Şərqi Türküstan gəncliyi, bunu çox gözəl izah edən mütəxəssisləşmiş Şərqi Türküstan gəncliyi, hər getdiyi yerdə bunu izah etsə, bunda bəhs etsə Şərqi Türküstan onsuz da bir polad qala olmuş olur. Çin əsgəri orada gəzsə nə olar, hoppansa nə olar? Bilməm nə olsa nə olar? Aslanın üstünə quş qonmuş kimi olur. Bütün məsələ Şərqi Türküstanı aslanlaşdırmaqda, onun üstünə 4 dənə qarğa da qonsa, o aslan yenə gedər. İstədiyi qədər gedər, istədiyi yerə gedər. Aradakı qardaşlıq bağını gücləndirmək,

mədəniyyətdən güzəştə getməmək, bu təmiz hallarını daha da gücləndirmək və bu şəkildə davam etmək. Çin buna qarşı qoya bilməz. Çin getdikcə inkişaf edir. Super dövlət olduqca Türkiyəyə də möhtac, Avropaya da möhtac, Amerikaya da möhtac. Sabah o biri gün bu dövlətlər birləşib bir memorandum versələr. Çin küt deyə oturar. Bir maliyyə embarqoya ən çox 15 gün dözə bilər Çin. Gücü çatmaz yerlə bir olar Çin. Belə bir gücü var dünyanın. Amma Şərqi Türküstan gəncliyinin də, fövqəladə mədəni, çox yüksək əxlaqlı, milli şüuru yüksək olması lazımdır. Bu gözəl əxlaqlarını yaxşı bir şəkildə möhkəmlədib, yeni nəsillərə köçürən, pozulmağa qarşıda çox diqqətli, degenerasiyaya qarşı çox diqqətli, mübarizə edən bir rəftar içərisində olacaqlar. Onlar aslan olsunlar. Çin onların üstündə qarğa kimi uçsun heç bir şey olmaz, gəzişsin.

ASIA RFA: Bəli. Bundan sonra Şərqi Türküstan ilə əlaqədar necə iş görməyi düşünürsünüz? Çox kitablar yazdınız, CD çıxartdınız, internet üzərindən əldə edəcəklər, biz bunun anonsunu edərik amma bundan sonrakı planınız nədir, Şərqi Türküstana və ya Türküstan coğrafiyasına istiqamətli?

ADNAN OKTAR: İlk Azərbaycandan başlamağı düşünürük. Daha əvvəl də söylədim. Şərqi Türküstan, Türk dövlətləri və İslam ölkələrinin azadlığı üçün cəhd göstərəcəyik amma təbii ki, vacib olanlar vardır. Ilk vacib olan Azərbaycan ilə Türkiyənin birləşməsi çünki ən uyğun mövqedə hal-hazırda onlardır. O Laçin koridoru açılacaq. Türkiyə ilə Azərbaycan birləşəcək iki müstəqil unitar dövlət, dünyəvilik sistemi vardır. Amma pasport ləğv edilir. Viza ləğv edilir. İstədiyi yerdə yaşamaq azadlığı olacaq. Ticarət mümkün olduğu qədər sərbəst olacaq və bir hərbi müqavilə. Azərbaycan Türkiyə arasında hərbi müqavilə olacaq, mövzu bu qədər. Al sənə Türk-İslam Birliyinin birinci mərhələsi. Amma arxasından Şərqi Türküstan təcilidir. Çünki əsir mövqeyindədir. Yəni əsir olma şiddəti

birinci plana alınmağı tələb edir. Çünki zülm harada şiddətlidirsə, prioritetin oraya verilməsi lazımdır. Prioritet orada. Hətta digər İslam ölkələrindən daha da təcili deyə bilərəm onun mövqeyi. Çünki əsirliyinin şiddəti daha yüksəkdir. Fələstindən daha şiddətlidir, Şərqi Türküstanın mövqeyi. Ona görə, mətbuat yoluyla mövzunu çox gündəmə gətirmək, ictimaiyyətin bunu anlatmaq lazımdır. İctimaiyyət təzyiqi də Çini çox qorxudar. Böyük mətbuatda, böyük elanlarla, böyük xəbərlərlə, köşə yazıları ilə, televiziya xəbərləriylə küncə sıxışdırmaq lazımdır. O istiqamətdə bir işimiz olacaq önümüzdəki günlərdə.

ASIA RFA: Sizin bu kitablar nəşr olunduqdan sonra Çin Xalq Respublikasından sizə bir etiraz, bir təzyiq gəldimi?

ADNAN OKTAR: Gəlmədi, amma heç əhəmiyyət vermərəm onu söyləyim. Hətta daha xoşuma da gedər elə bir şey etsələr. İnadına inadına yüz misli, min misli daha çoxunu edərəm. Kaş ki, elə olsa, etiraz etsələr.

ASIA RFA: Bəli Çin dilində kitablarınızda da gördüm. Bunu göndərə bilirsinizmi? Çində oxucularınız varmı?

ADNAN OKTAR: Çində çox şükür əlhəmdülillah kitablarımdan təsirlənib namaz qılan, oruc tutan, İslama girən çox qardaşımız oldu. Onlarla da bir şəkildə əlaqəmiz olur, amma indi adlarını versək, əlaqələri versək, təbii ki, Çin dövlətiylə aralarında problem ola bilər, o olmaz. Lakin kitablarımızı da Çinə əlhəmdülillah göndəririk. Girir, uyğun bölgələr var oralardan. Çinin içərisinə kitablarımız paylanır.

ASIA RFA: Burada təbii ki, Darvinizmi çürütdünüz onsuz da, indi böyük Qərb dünyasını, bir də Amerika və böyük Çini qarşınıza alırsınız. Bu güc sizə haradan gəlir?

ADNAN OKTAR: Allahdan gəlir təbii ki. Allaha insan kürəyini söykədimi "Hamidullahı metin" deyir Allah, "urvetül vuska" Allahın qopmaz

qoparılmaz ipinə yapışdıq. Kürəyimizi Allaha söykədik evelAllah. O zaman böyük bir güc halına gəlir müsəlman.

ASIA RFA: İndi çox gözəl nəşrləriniz var, Türkiyədə də müəllimlərə göndərildi. Məhz bir sıra əleyhinizə mediada yazılar çıxdı. Bu kitabları bizim radio dinləyiciləri soruşur. Yəni bu qaynaq, bu qədər işlər maddi olaraq haradan gəlir?

ADNAN OKTAR: Allah Öz yoluna gedənlərə kömək edəcəyini Quranda ifadə edir. Mənim şəxsi olaraq heç bir malım mülküm yox. Nə üstümə bir avtomobil, nə bir ev, nə bir torpaq, dünyada mənim bir malım yox. Amma Allaha şükür dostlarıma Allah hər yerdən bir nəsib qapısı açır. Və halalıyla gözəl yollardan, Allah imkan verir həqiqətən də çox da müvəffəqiyyətli olurlar. Bu mövzuda müxtəlif iddialar ortaya atmışlardı. Dövlətin təşkilatları bunu araşdırdı. Baxdılar ki, başdan sona qədər halal. Yəni heç bir şəkildə qanunsuz, hüquqsuz heç bir şey yox. Bütün pul qaynaqlarının halal olduğunu gördülər. Allah Öz yolunda irəliləyənə kömək edər. Bütün məsələ buna səmimi niyyət etməkdə. Biz səmimi niyyət etdiyimiz üçün Allah yolumuzu açır. Hz. Süleyman da elə idi. Allaha səmimi ürəklə niyyət etdi bağlandı. Allah o dövrün ən böyük zəngini və ən böyük gücü halına gətirdi Hz. Süleymanı. Zülqərneyn də elə idi. Allaha səmimi ürək ilə bağlandı. Allah onu o zamanın super gücü halına gətirdi. Bizdə inşaAllah elə olarıq bu dövrdə. inşaAllah.

ASIA RFA: Bəli, Şərqi Türküstan məsələsini neçə yaşınızda nə vaxt eşitdiniz? Necə bilirdiniz?

ADNAN OKTAR: Orta məktəb illərindən bilərəm. O məni həmişə hirsləndirmişdir, həmişə gərmişdir. Həmişə içimdə bir boşluqdur, çünki mən Çindəki uşaqları həmişə düşünürəm. Gənc qızları düşünürəm. Orada dinsiz çinlilərin əlində onlar nə olur, nə bitir. İnsan düşünə bilmir hətta yəni belə qaranlıq bir mağaraya həbs edilmiş, uşaqları, günahsız gənc

qızlar düşünün, yarasalar uçuşur. Kabus filmlərində olar ya, mənim də ağlımda həmişə elə qalmışdır. Bir kabus içində yaşayan insanlar qalmışdır. Onun üçün, onları qurtarma əzmiylə yaşadım hər zaman. Türk-İslam Birliyi düşüncəsi həmişə mənim uşaqlığımdan bəri vardır. Getdikcə də inkişaf edir.

ASIA RFA: Haralısınız, harada doğuldunuz? Belə Şərqi Türküstanlılara, kökünüz haralara qədər söykənir? Maraqlana bilərlər.

ADNAN OKTAR: Mən Hz. Həsən soyundan Seyidim. Peyğəmbərimiz (s.ə.v)-i nəslindən gəlirəm. Qafqaza keçmiş bizim atalarımız o zamanlar. Orada da zülm vardı bilirsiniz. Canlarını qurtarmaq üçün Qafqaza keçmişlər. Sonra Qafqazda da zülm olunca orada yenə seyidlərə qarşı bir qırğın başladı. Kommunist Rusiya dövründə, o zaman da qaçıb Türkiyəyə gəldilər. Ankaraya, Balaya yerləşmiş atamgil. O zaman Osmanlı Dövləti onları işlə təmin etmiş. MaşaAllah, o zaman Osmanlının belə qoruyucu bir istiqaməti hər zaman vardı bilirsiniz. Sonra Ankaraya yerləşdik. Mən Ankarada doğuldum böyüdüm. İlk, orta və lisey təhsilimi orada aldım. Sonra İstanbula Fındıqlı Gözəl Sənətlər Akademiyasına gəldim. Memarlıq ixtisasında, orada bir müddət oxudum. Sonra fəlsəfə fakültəsinə keçdim. Kommunistlərin daha sıx olduğu bir yer idi ora. Fəaliyyət etmək üçün oraya keçmişdim. Fındıqlı Gözəl Sənətlər Akademiyası da elə idi, marksistlərin idarəsində idi. Orada da elə sıx fəaliyyətlərim olmuşdu. Kitab fəaliyyətlərinə də o dövrlərdə başladım.

ASIA RFA: Marksistlərdən, Türkiyədəki marksistlərdən reaksiya alırsınızmı? Türkiyədəki sosialist marksistlərdən, hal-hazırda məsələn.

ADNAN OKTAR: O zaman bəli. Hal-hazırda almıram, amma o zamanlar məktəbə gedərkən təhdid edirdilər. Öldürə biləcəklərini, məktəbə gəlməməm lazım olduğunu söyləyirdilər. Mən də dedim qədərimdədirsə ölərəm. Ona görə elə bir təhdiddən qorxmam dedim. Ona görə gedib

gələcəyəm dedim və açıq-aşkar gözlərinin qarşısında namaza gedirdim. Məscidə gedib gəlirdim. Bir neçə dəfə təhdid etmişlərdi ölümlə.

ASIA RFA: Türküstan coğrafiyasında haralara getdiniz?

ADNAN OKTAR: Daha heç bir yerə getmədik. Amma gəldiyimizdə azad olaraq gələcəyik inşaAllah. Azad Şərqi Türküstana gələcəyik inşaAllah.

ASIA RFA: Son olaraq Şərqi Türküstanlılara nə demək istəyərsiniz? Nə mesaj göndərmək istəyərsiniz?

ADNAN OKTAR: Onlar mənim canım ciyərim, möhtərəm qardaşlarım, çox sevdiyim insanlar, uşaqlığımdan bəri onların qurtuluşu üçün dua edirəm və cəhd göstərirəm. Bu önümüzdəki 10-15 il onların qurtuluş illəri inşaAllah. Bütün əsir türklər, əsir müsəlmanlar xilas olacaqlar inşaAllah. Özlərini çox yaxşı yetişdirsinlər. Mədəniyyətlərini artırsınlar, imanlarını artırsınlar, Allahdan qorxularını artırsınlar. Allaha sevgilərini artırsınlar. Anti-darvinist olaraq özlərini yetişdirsinlər. Darvinizmin oyunlarını saxtakarlıqlarını öyrənsinlər. Mənim saytlarıma girsinlər, oralara baxsınlar. Bir-birlərinə sevgilərini çox sıxlaşdırsınlar. Degenerasiyaya qarşı çox diqqətli olsunlar. Milli mədəniyyəti çox möhkəm mühafizə etsinlər. Geri qalanına qarışmasınlar. Qurtuluşları çox yaxın inşaAllah.

ASIA RFA: Bəli bizə çox qiymətli zamanınızı ayırıb, bizimlə bu söhbəti etdiyiniz üçün çox təşəkkür edərik.

ADNAN OKTAR: Mən də təşəkkür edirəm.

(www.harunyahya.tv)

Hörmətli Adnan Oktarın "Ekin TV"-dəki canlı müsahibəsi (12 yanvar 2009)

ADNAN OKTAR: Axırzamanda çəkdiyimiz acılar, müsəlmanların çəkdiyi acıların səbəbi Axırzamanı bilməmələri və Axırzamanın gərəyini etməmələrindən qaynaqlanır. Peyğəmbərimiz (s.ə.v) bu xəstəliyin həllini söyləmiş. Xəstəlik var, dərmanı da var, dərmanını istifadə etmir müsəlmanlar, mən dərmanını izah edirəm. Dərmanından çəkinirlər. Əgər dərmandan qaçınsalar xəstəlik davam edər və əzab çəkmə də davam edər. Yəni qan, müsəlmanların tökülən qanı bəs etmədi müsəlmanlara, İraqda tökülən qanlar, Əfqanıstanda tökülən qanlar, Fələstində tökülən qanlar bəs etmədi? Müsəlmanlar artıq birləşsin. Türk-İslam Birliyini meydana gətirək. Türk Dövlətləri də əsir mövqedədir. Məsələn, Şərqi Türküstanda çinlilər dayanmadan zülm edir orada, bizim qardaşlarımıza. Onlar müsəlman, dindar, xalis, tərtəmiz Türk qardaşlarımız bizim. Məzlum insanlar. Oradakı gənc qızlar, uşaqlar pərişan vəziyyətdədirlər, kimsənin bundan xəbəri yoxdur. Şərqi Türküstanda nələr olduğundan kimsənin xəbəri varmı?

EKİN TV: Xeyr, yox.

ADNAN OKTAR: Bilmirlər. Böyük ölkə...

EKİN TV: Şərqi Türküstanı bilən belə yox, hocam.

ADNAN OKTAR: Təbii ki, bax nə qədər ürküdücü bir şeydir bu. Orada gizli şəkildə qırğınlardan, yox olan insanlardan, faili məchulla öldürülən insanlardan, gecə yarısı evindən alınıb aparılıb bir daha gəlməyən insanlardan kimsənin xəbəri varmı?

EKİN TV: Yox.

ADNAN OKTAR: Məhz bax, bunların hamısının həlli, Türk-İslam Birliyidir. Bu dinsiz belə olsa bir insan, onun üçün də insani bir borcdur. Müsəlman üçün fərz, dinsiz üçün də insanlığı varsa o insanın, insanlığı varsa onun üçün də insanlıq borcudur. (www.harunyahya.net)

Hörmətli Adnan Oktarın APA xəbər agentliyi (Azərbaycan) müsahibəsi (avqust 2008)

ADNAN OKTAR: Türk-İslam Birliyinin olmadığı dövr həmişə ağrılı dövr olacaq. Yəni bunun çarəsi yoxdur. Bunu Qafqaz ölkələrində də görürük, başqa bölgədə də görürük, hələ də görməyə davam edirik. Bunun əvvəli axırı kəsilməz, bu qan dayanmaz. Bunun tək həlli Türk-İslam Birliyidir. Bunu gecikdirmək günah altında buraxar insanları. Onun üçün, bizim millət olaraq, Türk milləti olaraq bunun üçün var gücümüzlə Qazaxıstan, Azərbaycan, Türkiyə, Şərqi Türküstan, bütün Türk dövlətləri, Qırğızıstan, hamımız ilk olaraq bu birliyi, təcili bir araya gəlib həll etməmiz lazımdır. Keçən hər gün zərərimizə və əleyhimizə olar, Allah əsirgəsin. Baxın bu gün Gürcüstanda axan qanlar, abxazların çətinliyi, rusların çəkdiyi iztirab, bunların hamısının mənşəyində Türk-İslam Birliyinin olmaması yatır.

(www.harunyahya.tv)

Hörmətli Adnan Oktarın "Abi Dhabi TV" müsahibəsi (19 fevral 2009)

ADNAN OKTAR: Müsəlmanlar həllinə yanaşmadıqları üçün bu hadisələr davam edir. Çözümü, bütün müsəlmanların birlik olmasıdır, bu fərzdir, Allahın əmridir. Namaz qılmaq kimi, oruc kimi fərzdir. Bir insan namazını qılmırsa fisq içindədir. İslam aləminin birləşməsini və birlikdə hərəkət etməsini istəmirsə yenə fisq içində olar yəni günaha girmiş olar. Bunun ən gözəl çözümü Türk millətinin liderliyində Türkiyənin liderliyində Türk dövlətlərinin dəstəyində bir Türk-İslam Birliyidir. Türk millətini lider olaraq görməmin səbəbi əxlaqi və mücahid ruhu cəhətdən çox güclü bir millətdir, metafizik bir millətdir Türk milləti və xüsusi vəzifəlidir, Allah elə yaratmışdır. Yəni Allahın qılıncıdır Türk milləti, Seyfullahdır, belə bir xüsusiyyəti vardır. Qılınc deyərkən gedib insanları doğramaq, kəsmək deyil, ədalət qılıncı bu, ədalətiylə, gözəl əxlaqıyla, sevgisiylə, şəfqətiylə, mərhəmətiylə, dürüstlüyüylə Türk milləti bu mövzuda liderlik vəzifəsini mükəmməl edəcək gücə sahib və təcrübəsi vardır, yüzlərlə illik təcrübəsi vardır. Yəni üç qitədə İslam ölkələrini çox gözəl xoşbəxtlik içində, hüzur içərisində idarə etmiş, az bir güclə. Yenə bu eyni quruluşun yenidən təsis edilməsi lazımdır, yeni müasir Osmanlı kimi bir Türk-İslam Birliyinin meydana gəlməsi lazımdır. Belə bir quruluşda xristianlar, yəhudilər, hətta buddistlər və ateistlər, hər kəs rahatlayar. Bütün müsəlman aləmi hüzur içində yaşayacaqdır.

(www.harunyahya.tv)





FƏSİL

Giriş

Çin, 20-ci əsrə, İngiltərə, Fransa, Almaniya, Yaponiya və Rusiya kimi ölkələrin təzyiqləri altında əzilmiş və paramparça olmuş bir imperatorluğun qalıqları üzərində girdi. Ölkədə imperatorluq rejimi devrildikdən sonra, on illər boyunca güclü bir mərkəzi nüfuz qurulamadı. Ancaq 1949-cu ildə iqtidara gələn Kommunist Partiya ilə birlikdə, Çin qısa müddətdə böyük bir qorxu rejiminə çevrildi. Bu çevrilmə prosesində on milyonlarla insan bəhs edilən qanlı ideologiyanın təzyiqçi və totalitar tətbiqləri səbəbiylə həyatını itirdi. İqtidarını ancaq şiddətlə mühafizə edilən və kommunizmin bəlkə də ən mərhəmətsiz və ən vəhşi tətbiqini qüvvəyə qoyan Çin Kommunist Partiyası, bütün Çin xalqı üçün tək tip bir həyat və düşüncə tərzi təyin etdi. Bu dövr boyunca, kommunist iqtidarın qaydalarına uyğun gəlməyənlər isə mərhəmətsizcə yox edildi.

Bu gün görünüşdə kommunizmin vəhşi tətbiqləri sona çatmışdır. Artıq insanlar kupon qarşılığı yemək almır, eni tip geyimi geyinməyə məcbur edilmir, Maonun "kiçik qırmızı kitabı"nı əzbərləmədikləri üçün işgəncə görmürlər. Ancaq kommunist rejimin yeni dünya nizamına uyğunlaşdırılan versiyası bütün mərhəmətsizliyi ilə həyatdadır.

Çin Kommunist partiyasının gözündə insan ancaq istehsal etdiyi müddətcə qiymətlidir və yalnız Kommunist partiyanın təyin etdiyi şəkildə və müəyyən sərhədlər daxilində düşünə bilər. Düşündüklərini də eyni qatı sərhədlər içində dilə gətirə bilər. Lakin bu gün Çinin dörd bir tərəfində olan çalışma düşərgələri, bu düşərgələrdə işləyən milyonlarla insanı alçaldan və istismar edən bir iş nizamı, xalqın gözü qarşısında reallaşdırılan toplu edamlar, həbsxanalarda geniş şəkildə edilən işgəncə üsulları, edam edilən məhkumların orqanlarının satılması, kommunist

idarəetmənin bu çirkin üzünü ortaya qoymaqdadır. Buna baxmayaraq xüsusilə son iyirmi ildir müxtəlif mətbuat orqanlarında Çinin liberal və demokrat bir xəttə doğru sürətlə irəlilədiyi təbliğatı edilməkdədir. Ancaq burada çox əhəmiyyətli bir nöqtə göz ardı edilməkdədir. Çinin müxtəlif səbəblərlə iqtisadi sahədə kapitalist tətbiqlərə keçməsi və qapılarını bəzi sahələrdə xarici sərmayəçilərə açmış olması, bu ölkənin siyasi quruluşunda və ideologiyasında bir dəyişmə yaşandığı mənasını verməməkdədir. Əksinə yuxarıda ifadə etdiyimiz insanlıqdan kənar tətbiqlər, iqtidardakı Çin Kommunist partiyasının zehniyyətində dəyişən bir şey olmadığını göstərməkdədir. Kitabın irəliləyən hissələrində bu vəziyyət bütün nümunələriylə ortaya qoyulacaq.

Bu kommunist vəhşiliyin ən çox hədəfi olan bölgə isə, uyğur müsəlman türklərin yaşadığı Şərqi Türküstandır. Çinin ən qərb nöqtəsində yerləşən Şərqi Türküstan təxminən iki əsrdir işğal altındadır və xüsusilə son əlli ildir kommunist Çin idarəetməninin despot rejimi altında əzilməkdədir. Şərqi Türküstan, Çinin təbliğatları nəticəsində dünya ictimaiyyət

tərəfindən “Xinjiang” -Sincan- (Çin dilində “yeni qazanılmış torpaqlar”) olaraq tanınmaqdadır və çox insan bu torpaqlarda yaşanan insanlıq dramından xəbərsizdir. Halbuki əhalinin əksəriyyətini Uyğur mənşəli müsəlmanların meydana gətirdiyi Şərqi Türküstanda, Çin Kommunist partiyası tərəfindən, Çinin heç bir bölgəsində yaşanmayan ölçülərdə şiddət və təzyiq tətbiq olunmaqdadır. İşgəncə, edam, çalışma düşərgələri, dini təzyiq Şərqi Türküstanda uzun illərdir gündəlik həyatın bir hissəsi halına gəlmişdir.

Müsəlmanlar yalnız dinlərini yaşamaq istədikləri üçün həbs olunmaqda, işgəncələri ilə məşhur Çin həbsxanalarında aylar, hətta illər boyunca saxlanılmaqda, azadlıq və demokratiya tələblərini dilə gətirənlər mərhəmətsiz şəkildə edam edilməkdədir. Bununla yanaşı Çinin assimilyasiya edici siyasətləri Şərqi Türküstanın əksəriyyətini meydana gətirən müsəlmanların, dillərini danışmalarını, mədəniyyətlərini davam etdirmələrini maneə törətməkdə və hətta dilədikləri qədər uşaq sahibi olmalarını belə qadağan etməkdədir. Həccə getmələri, namaz qılmaları və oruc tutmalarına maneə törədilən Şərqi Türküstan müsəlmanlarının gözlədikləri kömək isə dünyanın dörd bir tərəfindəki vicdanlı insanlar üçün son dərəcə asandır:

Bu kommunist zülmün sona çatması üçün çözüm, fikri mübarizə icra edilməsi və Türk-İslam aləminin birlik olmasıdır. Allah, Quranda müsəlmanlara bir olmağı, birlik olmağı əmr etmişdir. Dağılıb ayrılmaq, Quran əxlaqına zidd bir vəziyyətdir. Müsəlmanların qardaş olduqlarının dərk edib ittifaq etmələri, Quran əxlaqına və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə uyğun gələrək birlik olmaları lazımdır. Türk-İslam coğrafiyası dünyanın həm yeraltı qaynaqları həm də yerüstü zənginlikləri baxımından ən bərəkətli bölgələrindən biridir. Türk-İslam aləmi gənc və geniş əhalisiylə də əhəmiyyətli bir gücdür. Bu zənginliklərin və gücün, ədalətli, mehriban, mərhəmətli, demokrat, səmimi bir nüfuzda

toplanması, əlbəttə Türk-İslam aləminin çox böyük bir güc qazanması deməkdir. Türk-İslam Birliyinin təsis edilməsiylə qazanılacaq bu güc, yalnız Şərqi Türküstandakı qardaşlarımızın deyil bütün İslam aləminin və bütün dünyanın qurtuluşu olacaq.

Çinin, Şərqi Türküstanı, hər cür ünsiyyət imkanını məhdudlaşdıraraq dünyaya bağlı bir bölgə halına gətirməsi, bölgədə yaşanan insanlıq dramının bütün ölçüləri ilə öyrənilməsini maneə törətməkdədir. Ancaq bu, Şərqi Türküstanda əzilən və zülm görən günahsız insanları unutmaq və bu mövzuda laqeyd davranmaq üçün etibarlı bir bəhanə deyil. Bu səbəblə Şərqi Türküstan mövzusunda dünyaya hakim olan bu səssizliyi ortadan qaldırmağa istiqamətli hər cür fikri səy son dərəcə əhəmiyyətlidir. Bağlı qapılar ardında yaşanan insanlıqdan kənar hadisələrin bütün ölçüləri ilə gözlər önünə sərilməsi, həm bu məzlum xalqın səsini eşitdirməsinə vəsilə olacaq, həm də dünya ictimaiyyətin diqqətini bu mövzuya çəkəcəkdir. (www.doguturkistan.com)



Bu kitabda məqsəd qoyulan da, həm Çinin dörd bir tərəfində yarım əsrdən uzun müddətdir davam edən kommunist zülmün təməl səbəblərini təsbit etmək, həm məzlum Şərqi Türküstan xalqının səsini eşitdirmək, həm də Türk İslam Birliyinin qurulmasının vacibliyini bir daha xatırlatmaqdır. Şərqi Türküstan müsəlmanlarının dincliyə və təhlükəsizliyə qovuşmaları üçün ediləcək hər cür cəhdin müvəffəqiyyətə çatması, zülmün təməl səbəblərinin doğru təsbit edilməsi və bunlarla əlbirliklə, gərəyi kimi mübarizə edilməsi ilə mümkündür.

Bu kitabda görəcəyimiz kimi, Şərqi Türküstana edilən zülmlərin təməl səbəbi, Çin dövlətinə hakim olan materialist fəlsəfə və kommunist ideologiyadır. Həyatın bir növ həyat mübarizəsi olduğunu və irəliləmənin yalnız qarşıdurma ilə təmin edilə biləcəyini qarşıya qoyan materialist fəlsəfənin səbəb olduğu şiddətin ortadan qalxması, ancaq Allahın əmr etdiyi əxlaqın insanlar tərəfindən qəbul edilməsi və həyata keçirilməsi ilə

mümkündür. Allah insanlara ədaləti, tolerantlığı, sevgini, mərhəməti, hörməti, paylaşmağı, fədakarlığı və bağışlayıcılığı əmr etmişdir. Fərqli etnik mənşələrin, bir qarşıdurma səbəbi olmadığını, insanların bir-birlərinin irqlərinə, dillərinə, inanclarına hörmət göstərmələri lazım olduğunu bildirmişdir. Bu əxlaq anlayışının yer üzündə qəbul görməsi, sülh, hüzur və tolerantlığın tək çarəsidir. Yer üzünü bir zülm yurdu halına gətirənlərin təməl dayaq nöqtəsi olan materialist ideologiyaya qarşı veriləcək fikri mübarizə də, məhz bu səbəblə yer üzündə ədalətin və sülhün hakim olması üçün edilməsi lazım olan ən əhəmiyyətli mübarizədir.

Yaşadığımız dövrdə ilkin olaraq ediləcək şey tezliklə Türk-İslam Birliyinin təsis edilməsi və bir tərəfdən dünyadakı zülm və ədalətsizliklərə fikirlə qarşı çıxarkən bir tərəfdən də bunların əsl həlli olan Quran əxlaqının yayılması üçün göstərilən səyə sürət qatılmasıdır. Çünki, Quran əxlaqının yayılması ilə birlikdə, Allahın icazəsi ilə, 21-ci əsr yer üzündən haqsızlığın, ədalətsizliyin, zülmün və əziyyətin qalxdığı, sülhün, hüzurun, təhlükəsizliyin və ədalətin hakim olduğu bir çağ olacaq. Quranda bu gözəl dövr bizə bu şəkildə müjdələnilməkdədir:

> *Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir...*
>
> **(Nur surəsi, 55)**

FƏSİL 2

Qorxu dövləti Çin

Kommunist partiyanın 1949-cu ildə iqtidara gəlməsiylə Çin çox qısa müddətdə bütün dünyaya qorxu salan bir dövlətə çevrildi. Və ilk günlərdəki şiddətə və təzyiqə söykənən siyasəti, fasiləsiz şəkildə bu günə qədər davam etdi. Kommunist ideologiyanın insana və hər cür insani fakta qarşı etdiyi laqeyd və mərhəmətsiz davranış, insanlar arası əlaqələri mexanikiləşdirən maddiyyatçi yanaşma, şəfqətli və ədalətli idarəetmə anlayışı yerinə, mərhəmətsiz və zalım bir idarəetmə anlayışına səbəb olmaqdadır.

Maonun qurduğu kommunist Çində, nizamın və sabitliyin ancaq qorxu və şiddətlə təmin edilə biləcəyi inancı hakimdir. Bunun üçün dövlət, bütün fərdlərin xüsusi həyatlarını son dərəcə möhkəm nəzarət altında tutmaqda, ən kiçik bir şübhədə insanı mərhəmətsizcəsinə cəzalandırmaqdadır. Çində bir vətəndaşın cəzalandırılması üçün ciddi cinayət törətməsinə ehtiyac yoxdur. Çin dövləti, xaricdə yaşayan ərinə qəzet yazıları göndərən bir qadını, rahatlıqla, Çinin dövlət sirlərini ifşa etməklə günahlandırıb həbs edə bilməkdədir.1 Ya da xarici bir jurnalistə adi bir bildiriş verən bir adamı vətən xainliyi ilə günahlandırıb çalışma düşərgəsinə göndərə bilməkdədir. Təbii olaraq bu şərtlər altında təhlükəsizlik, hüzur və sabitlik yerinə narahatlıq, qorxu və etibarsızlıq hakimdir. Belə bir ictimai quruluşda sevgi, fədakarlıq, mərhəmət kimi duyğulardan bəhs etmək o qədər də mümkün olmadığı kimi azadlıqdan, demokratiyadan və insan haqlarından bəhs etmək də qeyri-mümkündür. Çin vətəndaşları, hökumətin hər hansı bir səhvini tənqid edə bilməz, nə düşündüklərini azad şəkildə ifadə edə bilməz, yenilikdən və ya

dəyişmədən bəhs edə bilməzlər. Buna cürət edənlərin aqibəti digərləri üçün kifayət qədər daşındırıcıdır.

Hər nə qədər bəzi Qərb dairələri iqtisadiyyatda edilən liberal islahatları qarşıya qoyaraq Çinin demokratikləşdiyini düşünsələr də, Qırmızı Çin hökumətinin diktatura rejimindən imtina etməyə heç niyyəti yoxdur. Çin torpaqlarında yaşananlar bunun isbatıdır və gərək Çin, gərəksə Şərqi Türküstan xalqları da mərhəmətsiz tətbiqlərin ən əhəmiyyətli şahidləridir.

Kommunist Partiya oliqarxiyası

Çin Xalq Respublikası, mühakimə, icra etmə və qanunvericilik orqanlarının tək bir idarəyə, Çin Kommunist Partiyasına bağlı olduğu, totalitar bir rejimdir. Milli və regional olaraq polis təşkilatında, orduda və vətəndaş təşkilatlanmalarında əsl heyət Kommunist Partiya rəhbərləridir. Partiya rəhbərləri vəzifə başındaykən olduğu qədər, təqaüdə çıxdıqdan sonra da etibarlıdırlar. Kommunist Partiya bu təşkilatlanması sayəsində həyatın demək olar hər sahəsində hakim mövqedədir. Bu səbəbdən siyasi və ictimai həyatda kommunist ideologiya xaricinə çıxılması mümkün olmaz. Fərdlərin düşüncələri, inancları və tətbiqləri kommunist ideologiyaya və partiyanın əmrlərinə görə olmalıdır. Ən kiçik bir boyun qaçırma və hətta yayınma ehtimalı ağır bir şəkildə cəzalandırılar.

Çin mövzusunda mütəxəssisləşmiş olan İngilis jurnalist John Mirsky, bu kommunist iqtidarı belə izah edir:

Çin Kommunist Partiyası Quran təhsilini qadağan etmişdir.

Çin ordusu, Şərqi Türküstanı möhkəm nəzarət altında tutmaqdadır. Müsəlmanların həyatlarının hər anına nəzarət edilməkdə, Kommunist Partiya tərəfindən riskli olaraq görülənlər həbs olunmaqdadır.

...Onlar üçün (Kommunist Partiyası) sabitlik, böyüklərin və Kommunist Partiyasının iqtidarda olması ilə bağlıdır. Bu vəziyyətə istiqamətli hər hansı bir təhdid, onlara görə ən təsirli olduğunu düşündükləri şeylə, kobud qüvvətlə, qarşılıq görməlidir.2

Bunun ən nəzərə çarpan nümunəsi Mao tərəfindən reallaşdırılan "Böyük tərəqqi" və "Mədəniyyət inqilabı" kampaniyaları əsnasında yaşanmışdır. Xalqın kommunizmə təslim olması və kommunist ideologiyanı həyata keçirməsi üçün son dərəcə mərhəmətsiz və zalım bir şəkildə üsullara müraciət edilmişdir. Kəndlilər məhsullarını qurumlara verməyi və kommunist istehsal anlayışına keçməyi qəbul edənə qədər bilərəkdən aç buraxılmış, ən ağır şərtlərdə işlədilərək əzilmişdir. Milyonlarla insanın həyatını itirdiyi bu tətbiq əsnasında kommunizmə qarşı olanlar da təbii olaraq məhv edilmişdir. Aydın və təhsilli seqmenti hədəf alan Mədəniyyət İnqilabı isə, ölkədəki bütün müxalif səsləri ola biləcək ən qəddar şəkildə susdurmuşdur. "Dövlətin yuxarı heyətlərində belə, hələ də kommunizmi mənimsəyə bilməmiş kəslər olduğunu və bunların öyrədilməsi lazım olduğunu" qarşıya qoyan Maonun təlimatıyla başlayan Mədəniyyət İnqilabı, ölkədəki demək olar ki, hər təhsilli və mövqe sahibi insanın alçaldılması, döyülüb işgəncə görməsi və hətta edam edilməsi əməliyyatı olmuşdur. Maonun nəzərdə tutduğu formada paltarı geymədikləri, kommunist marşları əzbərdən bilmədikləri kimi adi bəhanələrlə insanların işgəncə görüb, qətl edildikləri bu dövr sonunda Maonun istədiyi olmuş, kommunizm artıq insanların "zehinlərinə tam olaraq yerləşmişdir". (Mao dövründə yaşanan vəhşiliklə əlaqədar daha ətraflı məlumat üçün baxın: Kommunizm pusquda, Harun Yəhya).

Maonun, kommunist Çini qurduğu 1949-cu ildən günümüzə qədər keçən müddət içərisində bu təzyiq və təhdid rejimi, Kommunist Partiyanın əhatəli təşkilatlanması ilə mühafizə edildi. Demək olar beş-on adam başına bir mülki polisin düşdüyü, hər kəsin bir başqasının xəbərçisi

mövqeyinə gəldiyi bu mühitdə Kommunist Partiya nüfuzunu şiddətə və gücə söykəyərək dəstək oldu. Bunun üçün daha ilk gündən mərhəmətsiz bir ordu və polis təşkilatlanması yaradıldı. Dövlət və Xalq Təhlükəsizlik Nazirliyinə bağlı Xalqın Silahlı Polisi (PAP) və Xalqın Qurtuluş Ordusu (PLA) bu məsuliyyəti boynuna götürdü. İlk qurulduğu gündən bəri Kommunist Partiyanın silahlı qolu olaraq hərəkət edən PLA, 6 milyon əsgəri ilə, bu gün dünyanın ən böyük ordusu mövqeyinə gəlmişdir.

Çində yaşanan iqtisadi inkişaflardan yalnız Kommunist Partiya rəhbərləri istifadə etməkdə, xalq isə aclıq və kasıblıq içində yaşamağa davam etməkdədir.

Kommunist Çindəki vəhşiliyin ideologiyası

Kitabın sonrakı hissələrində Şərqi Türküstan müsəlmanlarının yaşadıqları əziyyət və işgəncələrə nümunələri ilə nəzər salacağıq. Bununla yanaşı kommunist Çin idarəetməninin öz xalqına etdiyi zülmü də araşdıracağıq. Bu nümunələri oxuyarkən, çox vaxt mərhəmətsizliyin necə bu qədər adi bir tətbiq kimi yaşandığına, zalımlığın və qəddarlığın necə bu qədər adi qarşılandığına təəccüblənə bilərsiniz. Ancaq unutmayın ki, Allahın inkar edildiyi, insanların özlərindən başqa kimsəyə qarşı məsul olmadıqlarını düşündükləri, axirət inancının olmadığı cəmiyyətlərdə sevgi, mərhəmət, bağışlayıcılıq kimi hisslərin yerini eqoizm, mərhəmətsizlik və zalımlıq alar.

Şərqi Türküstanda çinli mühacirlərin olduğu bölgələr ilə Türklərin sıx olaraq yaşadığı bölgələr arasında həyat standartı baxımından çox böyük fərq vardır. Məsələn çinlilərin olduğu paytaxt Urumçi (üstdə) tam bir müasir şəhər görünüşündəykən, müsəlman əhalinin daha çox yaşadığı Kaşqar (sol səhifədə), 19-cu əsrin əvvəlində donub qalmış kimidir. Xalqın böyük əksəriyyəti dolanışıq çətinliyi çəkməkdə, nəqliyyat torpaq yolları üzərindən at arabalarıyla təmin edilməkdədir. Bunun əsl səbəbi isə kommunist Çin idarəetməninin Şərqi Türküstan xalqı üzərində yarım əsri aşan bir müddətdir davam edən zülmüdür. Hər cür iqtisadi, siyasi və hüquqi haqları əllərindən alınan Şərqi Türküstanlı müsəlmanlar, yalnız Kommunist Partiyanın onlara çəkdiyi sərhədlər içində həyatlarını davam etdirmək məcburiyyətindədirlər. Lüks otellərin, alış-veriş mərkəzlərinin, plazaların olduğu, nəqliyyatın şoselərdən təmin edildiyi Urumçidə say baxımından az olan müsəlmanlar ya kiçik restoranları işlətməkdə, ya da təmizlik və ya qapıçı olaraq işləməkdədirlər. Hər hansı bir sərmayə və ticarət haqqı olmayan xalq, yalnız bu kimi işlərdə işləyə bilməkdədir. Bu vəziyyət, köklü bir mədəniyyətin beşiyi olan, zəngin təbii qaynaqlara sahib Şərqi Türküstan xalqının öz vətənlərində ikinci sinif insan rəftarı gördüklərinin və tam mənasıyla əsarət altında olduqlarının açıq bir göstəricisidir.

Bu səbəblə vicdan sahibi insanların, yaxşılığı əmr edib pislikdən daşınmağa çağırmaq məsuliyyətləri gərəyi din əxlaqını izah etmələri və insanları Allahın dininə dəvət etmələri bu zülm və işgəncələrin sona çatdırılması üçün ən köklü həll olacaq. Həmçinin Allah bir Quran ayəsində, “Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır.” (Ali İmran surəsi, 104) deyə bildirmişdir. Bu

əhəmiyyətli məsuliyyəti yerinə yetirərkən, din düşməni ideologiyaların bütün istiqamətləri ilə ifşa edilməsi və dayaq nöqtələrinin çökdürülməsi də gözəl əxlaqın yayılması üçün ediləcək fikri mübarizənin əhəmiyyətli bir mərhələsidir. Şərqi Türküstan və Çindən bəhs edildiyində isə bu ideologiyanın adı kommunizmdir.

Tiananmen meydanında 1989-cu ildə tələbələrin başlatdığı üsyan, Kommunist Partiya tərəfindən mərhəmətsiz şəkildə cəzalandırıldı.

Materialist bir dünya görüşünə sahib olan kommunist ideologiyaya görə, tək mütləq varlıq maddədir və tarixi, iqtisadi və sosioloji proseslər də daxil olmaq üzrə inkişaf edən hər cür hadisə maddənin fərqli formalarının bir əks olunmasıdır. Buna görə hər şey davamlı dəyişmə və inkişaf içərisindədir. Və bu inkişafın itələyici gücü qarşıdurmadır. Bütün kainat kimi insanlıq tarixi də qarşıdurma sayəsində inkişaf etmiş, insan bu qarşıdurma sayəsində irəliləmişdir (Ətraflı məlumat üçün baxın: Kommunizm pusquda, Harun Yəhya).

İnkişaf etmək üçün davamlı qarşıdurmanın olması lazım olduğunu müdafiə etmək isə, əslində insanlığı tamamilə ortadan qaldırmağa istiqamətli bir addım, sonu gəlməz qan tökmə quyusudur. Bu vəziyyətdə, bu ideologiyaların təqibçiləri davamlı bir-birləri ilə zidd düşər, bir-birlərinə zülm edər, irəliləmə adı altında bir-birlərinin qanını tökərlər. Allahın insanlara əmr etdiyi sevgi, hörmət, fədakarlıq, paylaşma kimi insani duyğular, istənilən sülh və hüzur mühiti tamamilə ortadan qalxar. Hətta bu kimi ülvi xüsusiyyətlərin cəmiyyətin irəliləməsinin qarşısında mane olduğu düşünülər. Bu ideologiyanı Çində həyata keçirən Mao, ardında 60 milyonu aşan ölü, on milyonlarla işgəncə görmüş insan və mərhəmətsiz bir cəmiyyət buraxmışdır.

Halbuki ixtilaflar və ziddiyyətlər, vəhşilik və qırğın etməyi tələb etməz. Ziddiyyətlər hər yerdə mövcuddur. Gecə ilə gündüz, qaranlıq ilə aydınlıq, soyuq ilə isti, yaxşı ilə pis həmişə vardır. Ancaq bu ziddiyyətlər gözəlliklərin vurğulanması, tolerantlıq, sülh və bağışlama kimi gözəl əxlaq xüsusiyyətlərinin ortaya çıxması üçün yaradılmışlar.

Eyni vəziyyət fikri sahədə də keçərlidir. İnsanların fərqli düşüncələri və ya inancları olmaları, bir-birlərini öldürüb mərhəmətsizcəsinə qətl etmələrinə səbəb ola bilməz. Allah insanlara düşmənlərinə belə gözəl davranmağı, gözəl söz söyləməyi əmr edər. Hər ziddiyyət, Quran əxlaqının gətirdiyi ağıl və vicdana sahib insanlar tərəfindən sülh, hüzur və tolerant mühitində həll edilər.

Ancaq kommunizm bunun tam ziddini iddia edər. Necə ki, kommunizmin ən əhəmiyyətli ünsürlərindən biri olan qarşıdurmaçılıq, insanları bir növ inkişaf etmiş heyvan olaraq görən darvinist düşüncə ilə birləşincə ortaya milyonlarla insanın ölümünə, bir o qədərinin də həyatlarının qaralmasına səbəb olan vəhşiliklər çıxmışdır. Bu səbəblə Mao və onun təqibçiləri, bir heyvan sürüsü olaraq gördükləri xalqın çəkdiyi ağrılardan heç bir şəkildə

təsirlənməmiş, bunu təbiətin məqbul və normal bir prosesi olaraq görmüşlər.

Maonun, kommunizmə müxalif olanları darvinist ön mühakimə ilə heyvan olaraq qəbul edişi, Harvard Universitetindən tarixçi Ceyms Reeve Puseyin "China and Charles Darvin" (Çin və Çarlz Darvin) adlı kitabında belə vurğulanar:

Mao Tse-Tung 1964-cü ildə, bütün alçaq heyvanlar yox ediləcək deyə təhdid sovurmuşdu. Bununla düşmənlərini insanlıqdan çıxarırdı, bu qismən Çin ənənəsindəki ifrata, qismən də İctimai darvinist realizmə söykənirdi. Eynilə anarxistlər kimi, inqilaba reaksiya verənləri təkamüllü müvəffəqiyyətsizliklər olaraq görür və soylarının tükənməsini layiq olduqlarını düşünürdü. Xalqın düşmənləri insan deyildi və insan olaraq rəftar görməyi haqq etmirdilər.3

Maonun öz sözləri də Puseyin bu şərhlərini dəstəkləyirdi. Qırmızı Çinin qurucusu, eyni dövrlərdəki bir nitqində isə "Çin sosializminin təməli, Darvinə və Təkamül nəzəriyyəsinə söykənməkdədir"4 deyirdi.



Tiananmen meydanında yaşanan vəhşilik, hadisələr sona çatdıqdan sonra da davam etdi. Üsyana qatılanların böyük qismi sonradan edam edilərkən, bir çox adam da həbs olunub çalışma düşərgələrinə göndərildi.

Məhz Maonun, darvinist sayıqlamaları səbəbiylə “insani rəftara layiq olmadığını” düşündüyü cəmiyyətlərdən biri də Şərqi Türküstan müsəlmanları idi. Çünki Şərq Türküstan xalqı inancı gərəyi kommunizmə şiddətlə qarşı çıxırdı. Ancaq bu haqlı reaksiyalarının qarşılığını son dərəcə mərhəmətsiz bir şəkildə alırdılar. Hələ də təzyiq və əsarət altında yaşayan Şərqi Türküstan, milyonlarla övladını kommunist rejimə şəhid verdi. Yüz minlərlə müsəlman Çin həbsxanalarında işgəncə gördü, evlərindən sürgün edildi, torpaqlarını tərk etmək məcburiyyətində buraxıldı.

FƏSİL 3

Mədəniyyətlər mərkəzi Şərqi Türküstan

İki min iki yüz illik keçmişi ilə Türküstan torpaqları, dünyanın ən əhəmiyyətli və köklü mədəniyyətlərinə ev sahibliyi etmişdir. Qərbdə Xəzər dənizi və Ural dağlarının Cənub hissəsinə, Şimalda Sibirə, Cənubda İran, Əfqanıstan və Tibetə, Şərqdə Çin və Monqolustana sərhəd olan Türküstan, olduqca geniş bir sahəyə malikdir.

Bu gün, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Türkmənistanın daxil olduğu bölgə Qərbi Türküstan olaraq xatırlanmaqda, iki əsrdir Çinin əsarəti altında olan bölgə isə Şərqi Türküstan olaraq adlandırılmaqdadır. Türküstanın coğrafi və strateji olaraq daşıdığı əhəmiyyəti anlamaq üçün isə, əvvəlcə bölgənin iki nəhəng gücü olan Rusiya və Çinin bu torpaqlara olan maraqlarını göz qarşısında saxlamaq kifayətdir. Coğrafi quruluşun da səbəb olduğu siyasi meydana gəlmələr nəticəsində bu gün Qərb və Şərq olaraq ikiyə ayrılmış olan Türküstan torpaqları üzərində, Rusiyanın və Çinin çox əhəmiyyətli planları vardır.

Bu iki ölkənin haqqında bəhs etdiyimiz bölgədən nə bahasına olursa olsun imtina etməmə ehtirasının arxasında, bölgənin strateji mövqeyi ilə yanaşı, sahib olduğu zəngin yeraltı ehtiyatları da böyük rol oynamaqdadır. Qərbi Türküstandakı Türk dövlətləri Rusiya üçün, Şərqi Türküstan isə Çin üçün itirilməməsi lazım olan əhəmiyyətli bir xammal qaynağı xüsusiyyətindədir.

Çin, 2009-cu ilin iyul ayının ilk günlərindən etibarən bütün dünyanın gözü qarşısında, Şərqi Türküstanda yaşayan müsəlmanlara qarşı yeni qırğına başladı. Şərqi Türküstanda yaşanan bu son qırğın, Çin tərəfindən öz daxili təhlükəsizliyiylə əlaqədar bir problemin yatırdılması kimi göstərilməyə çalışılmaqdadır. Halbuki, bu son dərəcə səhv və istiqamətləndirici bir məlumatdır. Şərqi Türküstan gəncləri bir müddətdir, ucuz iş qüvvəsi təmin etmək məqsədiylə çıxarılan qanunlara söykənərək yaşadıqları yerlərdən çıxarılmaqda və başqa əyalətlərə aparılaraq oralarda işlədilməkdədir. 26 iyun gecəsi, Guandong əyalətinin Şaoguan şəhərindəki bir fabrikdə işlədilən 600 Uyğur Türkü hücuma məruz qalmış, qaldıqları yataqxanaya hücum edilərək səhərə qədər döyülmüşlər. Bu basqın nəticəsində təxminən 60 Uyğur Türkü həyatını itirmişdir. Uyğur türklərinin bu hadisəsi qınamaq və təcavüzkarların tapılaraq ədalətə təslim edilmələrini təmin etmək üçün etdikləri nümayiş isə Çin rəhbərliyi tərəfindən böyük bir qırğına çevrilmişdir.

Rusiya, Bolşevik İnqilabı sonrasında, fərqli Türk boylarından fərqli dövlətlərin qurulduğu Qərbi Türküstan üzərində güclü bir yoxlama mexanizmi meydana gətirdi. Əvvəlcə, bölgənin əsrlərdir "Türküstan" olaraq bilinən adı rədd edilib, bu torpaqlar "Sovet Orta Asiyası" olaraq adlandırıldı. Beləcə Türklərin sahib olduqları ortaq milli şüurun yox edilməsi hədəflənirdi. Rusiyanın bu torpaqlardakı siyasətinin əsas maddəsini isə İslamı bu torpaqlardan silmək meydana gətirirdi. Bu dövr boyunca bir tərəfdən müxtəlif sanksiyalarla Türklərin milli mədəniyyətləri yox edilməyə çalışılarkən, digər tərəfdən də mədrəsələr, məscidlər, dini təhsil verən təşkilatlar bağlanıldı və din ictimai həyatdan tamamilə çıxarıldı. Eyni zamanda Krım türkləri də bir gecədə toplu şəkildə Sibirə sürgün edildi, evlərinə və torpaqlarına da ruslar yerləşdirildi. Üstəlik, Orta Asiya millətləri arasında süni etnik qarşıdurmalar və müharibələr yaradıldı. Sovet rejiminin türkləri assimilyasiya etməyə istiqamətli bir başqa tətbiqi isə, Qafqaz və Orta Asiya müsəlmanları arasında ana dilləri ilə yanaşı ikinci bir dil inkişaf etdirmək oldu. Bu səbəblə, bu gün bəhs etdiyimiz cəmiyyətlər arasında ünsiyyət qurmaq üçün türk dili yox, rus dili seçilməkdədir.

Şərqi Türküstan isə, Qərbi Türküstanda yaşananlara çox bənzər, ancaq daha şiddətli bir təzyiq dövrü yaşadı. 1700-ci illərin ortalarında Çin işğalına məruz qalan Şərqi Türküstan, qısa müddətə müstəqilliyini əldə etdi. Ancaq dünya və bölgə siyasətində yaşanan dəyişikliklər Şərqi Türküstanın müstəqillik həsrətinin reallaşmasına mane oldu. Təxminən 10 milyon km2 əraziyə sahib olan Çin, 2 milyon km2 –lik sahəsi ilə dünyanın nəhəng ölkələrindən biri olan Şərqi Türküstanda tətbiq etdiyi təzyiq və təcrid siyasətləriylə bir xalqı bütünlüklə məhv etməyə çalışdı.

Eyni Qərbi Türküstanda Rusiyanın etdiyi kimi Şərqi Türküstanda da çinlilərin ilk işi bölgənin adını dəyişdirmək oldu. Çinin qoyduğu yeni ad, "Sincan Uyğur Muxtar Bölgəsi" idi. Daha sonra da bütün imperialist

dövlətlərin izlədiyi siyasətlərin bənzərləri bir-bir tətbiq edildi. Xalqın inanclarına, ənənə və adətlərinə, dini tətbiqlərinə qarşı mərhəmətsiz savaş icra edildi, bir çox sahədə etnik ayrı-seçkilik tətbiq olundu, müstəqillik tələbləri şiddət yoluyla yatırdıldı, müdafiəsiz insanlar torpaqlarından sürgün edildi, sürgün edilənlərin yerinə çinlilər yerləşdirildi. Bütün bunların üzərinə bir də vəhşiliyi ilə tanınan "Çin işgəncələri" və zülmü əlavə olundu.

Dünya ictimaiyyətdə çox az bilinən bu zülmün detallarına girmədən əvvəl, Şərqi Türküstanın tarixi, geostrategiya və geosiyasi mövqeyi üzərində dayanmaq lazımdır.

Şərqi Türküstanın Çinin bir hissəsi olduğu iddiasını çürüdən ünsürlərdən biri də Uyğur türklərinin, dilləri, dinləri, ənənələri, həyat tərzləri və mədəniyyətləri ilə Çin xalqından tamamilə fərqli olmalarıdır.

Türk-İslam sivilizasiyasinin beşiyi: Şərqi Türküstan

Tarixi e.ə. 200-cü illərə (göytürklər və hunlar dövrünə) qədər söykənən Türküstan torpaqları, tarixin ilk dövrlərindən bəri türklərin ana yurdu, min ildən bəri də İslam torpağıdır. Tarix boyunca Türküstan adı ilə bir dövlət və ya xanlıq qurulmamasına baxmayaraq, Orta Asiyanın böyük hissəsini meydana gətirən bəhs etdiyimiz sahə, qədim dövrlərdən bəri türklərin məskunlaşma mərkəzi olduğu üçün Türküstan olaraq adlandırılmışdır. Xüsusilə də tədqiqatçılar tərəfindən tarixin ilk mədəniyyət mərkəzlərindən biri olduğu ifadə edilən Şərqi Türküstan, geostrategiya mövqeyi etibarilə Qərb və Şərq mədəniyyətlərinin qaynayıb-qarışdığı bir sahə olmuşdur.

"More than 95 per cent of China's heroin consumption was smuggled from the Golden Triangle," Mr Jia said.

Law enforcement authorities have pledged a comprehensive campaign to tackle the country's drug problem. Serious drug offences, such as trafficking, attract the death penalty in China. The government last year announced a "show no mercy" policy to traffickers and users.

BBC HOMEPAGE | WORLD SERVICE | EDUCATION

BBC NEWS

You are in: World: Asia-Pacific
Tuesday, 29 February, 2000, 05:23 GMT

China concerned about rise in prostitution

The Chinese culture minister, Sun Jia-zheng, has voiced concern about an increase in prostitution, accusing local government officials of being involved in some cases.

Mr Sun said that increased competition in the entertainment industry had led to some dance halls becoming venues for prostitution.

He added that he supported a nation-wide campaign against the sex business.

From the newsroom of the BBC World Service

Son illərdə sürətlə artan cinayət növlərindən biri də narkotik ticarətidir. Kommunizmin bir nəticəsi olaraq insanlarda yaranan mənəvi boşluq, narkotik istifadəsində və ticarətində artım meydana gətirmişdir. Aparılan statistikalar, Çində narkotik istifadə edənlərin sayının sürətlə artığını göstərməkdədir.

Cinayət nisbətlərində yaşanan artımda diqqət çəkən məqamlardan biri də, cinayət törədən qadınların sayında yaşanan artımdır. Aparılan

statistik çalışmalar və araşdırmalar qadınlar arasında cinayət törətmə nisbətinin olduqca çox olduğunu göstərməkdədir. Bununla birlikdə təcavüz, qadın ticarəti kimi qadınlara qarşı işlənən cinayətlərdə də artım mövcuddur. Qadınların və uşaqların fahişəlik ticarətində istifadə edilməsinə olduqca sıx rast gəlinməkdədir. Tək bu səbəblə bir çox adam nəzarətə alınıb həbs olunmuşdur. Cəmiyyətdə yaşanan əxlaqi degenerasiyanın əhəmiyyətli göstəriciləri arasında olan bu cinayətlərlə yanaşı, rüşvətin yayılması da Çindəki ictimai çöküntünü göstərən bir başqa ünsürdür.

İnsanların da heyvanlar kimi tərbiyə edilə biləcəyini düşünən və mənəvi təhsili əhəmiyyətsiz edən Çin Kommunist Partiyası, görüldüyü kimi öz əlləri ilə ortaya çıxardığı bir canavarla mübarizə etməyə çalışmaqdadır. Və bütün bu mənzərə qarşısında çözümü daha çox şiddətdə görməkdədir. Halbuki yaşanan maddi və əxlaqi çöküntüyə maneə törətmənin yolu daha çox insan həbs etmək, daha çox insanı edam etmək, daha çox insanı cəzalandırmaq deyil. Çin, bütün kommunist rejimlərin yaşadığı qaçınılmaz sonu yaşamaqdadır və belə bir problemin öhdəsindən gələ bilmənin ilk addımı mənəvi sağlam və güclü bir nəslin yetişdirilməsidir. Çünki ancaq mənəvi güclü olanlar heç bir şərtdə əxlaqsızlığa və pisliyə yanaşmazlar. Allahı və dini tanımayan, Allahdan qorxmayan və hesab verəcəyini ümid etməyən bir insanın, pislikdən uzaq dayanması üçün heç bir səbəb yoxdur. Onu çirkin bir həyatdan uzaq tutacaq olan, pis əxlaq göstərməsinə mane ola biləcək olan yalnız din əxlaqıdır. Çünki Allah iman edənlərə çirkin hərəkətləri qadağan etmişdir:



China's Smack Attack

Cheap and readily available,heroin is claiming thousands of young new addicts, especially in the booming megacities of coastal China. BY MAHLON MEYER

Seks köleleri YOK SATIYOR

Genç kuşak Çinli kadın yazarların ülkelerindeki uyuşturucu seks ve kadın üçgenini anlatan kitapları adeta kapışılıyor...

Çeviri: **ASLI KAYABAL**
Faks: *(0212) 505 68 02*

Henüz 30'lu yaşlarındaki Çinli kadın yazarlar Çin edebiyatında devrim yaptı. Seksin hâlâ tabu olduğu bu Asya ülkesinde Wei Hui ve Mian Mian'ın Çin'deki seks dünyasına ışık tutan kitapları yok satıyor. Mian Mian, "Bonbon" adlı kitabında, okuru izbe lokallerde seks, uyuşturucu ve intiharlarla hayatları kararan Çinli hayat kadınlarıyla buluşturup, uyuşturucuyla mücadele kliniklerinin iç yüzünü anlatıyor.

Uzun yıllar eroin bağımlısı olan genç Şangaylı yazar, L'Express'e konuştu. Mian Mian, "Hayatımı alkole, müziğe, eroine ve çikolataya adadım. Edebiyat bana ilaç gibi geldi" diyor. Mian, şu sıra bir hastanede kontrol altında tutuluyor. Bir bebek bekliyor, bu nedenle bol bol soya sütü içiyor. Günün birinde kitabının yayımlanacağını hiç düşünmemiş. Ama Bonbon bir şekilde sansürden geçti ve

...” De: “Rəbbim həm aşkar, həm də gizli törədilən yaramaz əməlləri, hər cür günahı, haqsızcasına zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur”.

(Əraf surəsi, 33)

Allahdan qorxan insan bu əmrlərə qeydsiz-şərtsiz riayət edər:

Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır.

(Hucurat surəsi, 15)

Across China, new youth gangs are fueling an alarming rise in the number and viciousness of crimes committed by juveniles. BY PAUL MOONEY

A RHYME CURRENTLY POPULAR AMONG SCHOOLKIDS in Hunan province seems to parody the swaggering American youth ethos: "Going to school is a real drag/And it costs lots of money/Why not join a gang? Food, drink, status/And sleep each night with a honey." In the People's Republic—in Mao's home province, no less—one is hard-pressed to imagine the lines being much more than the braggadocio of a few fortunate kids with access to MTV.

书如镜天天照 壮志为梯步步高
The Kids Are Not Alright

Çin dövləti öz vətəndaşlarına xəstəlik aşılayır

Fahişəliyin və narkotik istifadəsinin artması Çində qanla yoluxan xəstəliklərin də yayılmasına səbəb olmuşdur. Bunların başında QİÇS gəlməkdədir. Rəsmi idarələrin verdiyi məlumatlara görə bu gün Çində yarım milyon QİÇS xəstəsi olduğu bilinməkdə, həqiqi rəqəmin isə bundan daha çox olduğu təxmin edilməkdədir. Çin dövləti, əxlaqi çöküntü qarşısında, problemi həqiqətən həll edici tədbirlər almadığı kimi, QİÇS xəstələri üçün də hər hansı bir tədbir görməməkdədir.

Bununla birlikdə, Çindəki QİÇS hadisələri ilə əlaqədar xüsusilə son zamanlarda dünya ictimaiyyətinə əks olunan məlumatlar Çin hökumətinin xəstəliyin yayılmasının qarşısının alınmasına çalışmadığını, əksinə səlahiyyətlilərin xəstəliyin yayılmasında vasitəçi olduğunu göstərməkdədir. QİÇS-in artmasının səbəblərinin ilk sıralarında, xalqın cüzi rəqəmlər qarşılığında qanlarını satmaları və bu qan alış-verişinin son dərəcə qeyri-sağlam şərtlərdə reallaşdırılması vardır. Çin dövləti az bir pul qarşılığında vətəndaşlarının qanlarını almaqda, ancaq steril vəsaitlərin istifadə edilməməsi bir faciə ilə nəticələnməkdədir. Xalqa şpris başına 5 dollar qarşılığında plazma hüceyrələrinin alınacağı və qanlarının təkrar özlərinə veriləcəyi vəd edilməkdədir. Ancaq həmişə eyni şprislərin istifadə edilməsi tək QİÇS-in deyil, qan yolu ilə yoluxan daha bir çox xəstəliyin yayılmasına səbəb olmaqdadır.

China, in a Switch, Concedes It Is Facing AID...

Back Forward Stop Refresh Home AutoFill Print Mail

Address: http://www.nytimes.com/2001/08/23/international/asia/23CND-CHINA.html?todayshead go

Live Home Page Apple iTools Apple Support Apple Store Microsoft MacTopia

Favorites History Search Scrapbook Page Holder

www.nytimes.com

The New York Times ON THE WEB

August 23, 2001

China, in a Switch, Concedes It Is Facing AIDS Epidemic

By ELISABETH ROSENTHAL.

BEIJING, Aug. 23 — In a departure from the Chinese government's general reticence on the subject of AIDS, a senior official openly admitted today that China is facing an epidemic that is threatening to outpace official efforts to control it.

"Like many other countries, we are also facing a very serious epidemic of H.I.V.-AIDS," said Yin Dakui, China's vice minister of health, adding, "We have not effectively controlled the epidemic."

Mr. Yin's 90-minute news conference — the first on the topic by a government official — was the latest in a series of small steps suggesting that China is ready to address more openly a topic that has been mostly taboo in the past.

Mr. Yin stressed that China's epidemic of H.I.V, the virus that causes AIDS, was still relatively small — but he also released some alarming new statistics.

Reported H.I.V. infections rose 67.4 percent in the first six months of 2001 compared with last year, he said, and about 5 percent of drug users in China are now infected with the virus, up from less than five-tenths of 1 percent in 1995.

Internet zone

Çin, kommunizmi tərk etmir

Maodan sonra iqtidara gələn Tay Xiaoping ölkənin içində olduğu vəziyyəti düzəltmək üçün bəzi iqtisadi islahatlara müraciət etmişdir. Bazar iqtisadiyyatının kommunizmə tətbiq olunmuş bir törəməsi olan bu islahatlar qısa müddət üçün də olsa Çin iqtisadiyyatında qismi düzəlmə təmin etmişdir. Bu gün də bu islahatlar sayəsində qərb şirkətləri Çində sərmayə qoya bilməkdə və özəl şirkətlərin fəaliyyətlərinə icazə verilməkdədir (Əslində bu özəl şirkətlərin böyük əksəriyyəti də PLA ortaqlıdır və idarəetmədə generallar vardır).

Bu mənzərə ilk baxışda bəzi kütlələrə, Çinin artıq Maonun təlimlərindən yaxşı bir şəkildə qopmağa başladığı və demokratik anlayışın inkişaf etdiyi qənaətini vermişdir. Ancaq Çində son iyirmi ildir yaşanan müddət bir az daha əhatəli olaraq araşdırıldığında, bütün bu yalançı islahat və təkrar yoxlamalar, əslində daha köklü bir kommunist rejim üçün bir hazırlıq olduğu rahatlıqla görüləcək.

Necə ki, Sovet İttifaqının dağılması, "Marksizmin səhv düşüncəsinin tənəzzülü" olaraq düşünülürsə, həm Çindəki həm də dünyanın müxtəlif yerlərindəki Maocular üçün Çinin hal-hazırda içində olduğu ictimai tənəzzül "tətbiq səhvi" hesab edilməkdədir. Kommunist ideologiyaya görə ideal kommunist cəmiyyət müəyyən mərhələlərdən keçməlidir. Əvvəl kapitalizm yaşanmalı, ardından sosializmə, oradan da kommunizmə bir keçid olmalıdır. Məhz Çinin bugünkü kapitalist görüntüsünün əsl səbəbi, ideal kommunist nizama çatması üçün göstərilən bir səydir. Üstəlik Çin, çəkdiyi kapitalist mənzərəni mümkün olduğu qədər iqtisadi sahələri məhdud tutmaqda, siyasi sahədə isə Maoizmə bağlılığını davam etdirməkdədir. Ancaq kommunizmə keçid mərhələsinin əhəmiyyətli bir

addımı olduğuna inandığı sosializm mərhələsini reallaşdıra bilmək üçün kommunist partiyanı sosialist partiya olaraq yenilənməyə çalışmaqdadır.

Üstəlik Çin bu gün, sosializmə keçid üçün lazımlı görülən vəhşi kapitalist dövrü hər istiqaməti ilə yaşamaqdadır. Gəlir cədvəlindəki bərabərsizliyin, işsizliyin hər keçən gün daha da artması, kasıbların daha çox kasıblaşıb, zənginlərin daha da zənginləşməsi və bütün bunların nəticəsi olaraq yuxarıda da toxunduğumuz əxlaqi tənəzzül sanki Çin xalqının "ən yaxşısı Mao dövrü idi" deməsini təmin edə bilmək üçündür. Halbuki insanlara alternativ olaraq göstərilən Maoizm də çox böyük bir zülm və vəhşilik rejimidir. Hətta Maoizm ardında buraxdığı milyonlarla ölü ilə bir qan tökmə quyusudur. Yəni bu şəkildə insanlar bir zülmdən qaçarkən, başqa bir zülmün tələsinə düşəcəklər, həqiqi hüzur və xoşbəxtliyi əsla tapa bilməyəcəklər.

Necə ki, son zamanlarda Çində edilən araşdırmalar, Maoya olan marağın hələ də sıx şəkildə davam etdiyini və hətta xalqın bir qisminin Mao dövrünü seçdiyini göstərmişdir. 1970-ci illərin sonunda başlayan kapitalist tətbiqlərin səbəb olduğu naməlumluq və tənəzzül, 1986-cı ildə başlayan tələbə hadisələri ilə pik həddə çatmış və 1989-cu ildə yaşanan Tiananmen qırğını Maonu təkrar Çinin gündəminə gətirmişdir. “Atlantic Monthly” jurnalının 1992-ci ildə nəşr olunan bir sayında Çinin yenidən Maoizme dönüşü belə deyilməkdədir:

Əslində ötən ilin sonundan etibarən Maoya qarşı böyük maraq bütün Çini əhatə etməyə başladı. Maonun bir ucdan digər uca Çinə adını yazdığı, inqilab əleyhinə olanları öldürənə qədər döydüyü və hətta çılpaq bədənlərinə Mao adının həkk edildiyi Mədəniyyət İnqilabı günlərindəki siyasi dəlilik kimi olmasa da, Maonun Çində hal-hazırda böyük təsiri vardır... Bu Mao sevdası qarşısında dövlət nəşr orqanı olan Xinhua mətbəəsi, Maonun bütün əsərlərinin olduğu yeni bir cildini 10 milyondan çox nəşr etdi və dövlət büdcəli film şirkətləri də yeni dram sənədli filmlər hazırlayırlar. Hətta 1991-ci ildə çəkilən "Mao Zedung və oğlu" filmi, xüsusilə Maonun insani istiqamətləri olduğunu vurğulaya bilmək məqsədiylə romantik elementlərlə bəzənmişdir. Filmdə Maoya oğlu Mao Aryingin Koreya müharibəsində amerikalılar tərəfindən vurulduğu xəbərinin verildiyi an da var. Maonu insaniləşdirmə səyləri bu il də davam etdi və təbliğat məzmunlu "Mao Zedungun hekayəsi" kitabı satışa çıxdı.85

Dövrümüzdə Çindəki Mao təbliğatı sürətlə davam edir. Çin televiziyalarında, Maonun sözlərinin harada və hansı tarixdə deyildiyi mövzulu yarışmalar təşkil edilir, Mao plakatlarının sayı artırılır, Maonun təlimləri radio və televiziya kanallarından təkrar-təkrar yayımlanır. Üstəlik Çin xalqının böyük əksəriyyəti illərdir onlara verilən təlqinlər nəticəsində Maoya bir cür qurtarıcı missiyası yükləmiş, hətta ona mistik bir bağ ilə bağlanmış vəziyyətdədirlər. Bir çox çinli Maonun onları yol qəzalarından, pisliklərdən, xəstəliklərdən qoruduğunu düşünür. Ancaq çinli yazıçı Jie Lusheng, "Sun That Never Sets" (Əsla batmayan günəş) adlı kitabında başqa əhəmiyyətli həqiqətləri də vurğulamaqdadı. Jiaya görə, Çinin Maoya olan bağlılığı, ölkənin daha sabit göründüyü ilk illərə olan həsrətin bir əks olunması. Jia, lider əskikliyinin, degenerasiya olmuş cəmiyyət həyatının və cinayət nisbətlərinin artmasının, Maoya duyulan həsrəti də artırdığını yazır. Çinlilərin böyük hissəsi, Maonun

ideologiyasının həyat tapması ilə, Çinin üzərinə yenidən günəş doğulacağını sanır.

Bu təsbitlərin də göstərdiyi kimi, bu gün Çin, kommunizmdən uzaqlaşmamaqda, əksinə təyin olunmuş bir müddət içərisində kommunizmin bəlkə də daha qatı bir formasına doğru irəliləməkdədir. Kommunist ideologiyanın bu şəkildə canlı olması, Şərqi Türküstan üzərindəki təzyiqlərin də sürəcəyi mənasını verməkdədir. Çünki kommunist ideologiyanın İslama və müsəlmanlara baxışı hər zaman düşməncəsinə olmuşdur və olmağa davam etməkdədir.

Çinin "terrorizm" aldatması

11 sentyabr 2001-ci il tarixində Amerika Birləşmiş Ştatlarına qarşı təşkil edilən böyük terrorist hücum, dünyadakı bir çox tarazlığı dəyişdirəcək yeni bir strateji tənzimləməni də özü ilə gətirdi. ABŞ, ölkəsini hədəf alan beynəlxalq terrorizmə qarşı qlobal mübarizə başlatdı. Ancaq bəzi ölkələr, bu mübarizəni istismar edərək, öz mənfəətləri istiqamətində istifadə etməyə niyyətləndilər. Bunların başında Çin gəlirdi.

ABŞ-ın terrorizmə qarşı olan reaksiyasını, "Müsəlmanlara qarşı müharibə" kimi görmək və göstərmək istəyən Çin, 2001-ci ilin oktyabrında bir mesaj verdi. Mesajda, qısaca, "Çinin də Şərqi Türküstandakı İslamçı terroristlərə qarşı Qərb dünyası ilə əməkdaşlıq etmək istədiyi" deyilirdi.

Halbuki Çinin bu açıqlaması açıq-aşkar bir təhrifdən ibarətdir. Çünki Şərqi Türküstan xalqı, mənəvi dəyərlərinə sahib çıxmanın, mədəniyyətini və ənənəsini yaşada bilmənin, azad şəkildə dinini yaşayıb dilini istifadə edə bilmənin haqlı mübarizəsini verməkdədir. Və bu mübarizə uzun illərdir, Şərqi Türküstanlı liderlərin sahib olduğu sağlam fikir sayəsində son dərəcə demokrat bir platformada icra edilməkdədir. Bununla birlikdə hər cəmiyyətdə ola biləcəyi kimi Şərqi Türküstan xalqı arasında da, şiddətə meylli insanlar və ya qruplar ola bilər. Ancaq bu vəziyyət, Şərqi Türküstanın haqlı mübarizə icra etdiyi həqiqətini ortadan qaldırmaz. Bölgədəki həqiqi terrorist güc, bu kitab boyunca araşdırdığımız kimi, Şərqi Türküstandakı məzlum müsəlmanlara qarşı uzun vədəli soyqırım icra edən Çin rəhbərliyidir.

Bu həqiqət, qərb şərhçiləri tərəfindən də diaqnoz edilməkdə gecikmədi. Çinin bəhs etdiyimiz təbliğat cəhdinin ardından "The Washington Times"

qəzetində (10/14/2001) "Beware China's Ties to the Taliban" (Çinin Talibanla olan əlaqələrindən çəkinin) başlıqlı məqaləsi nəşr olunan amerikalı sabiq senator Jesse Helms bunlardan biriydi. Respublikaçı Partiyadan uzun illər Şimali Karolina senatorluğu və "Senat Xarici Əlaqələr Komitəsi" üzvlüyü edən Helms, bəhs etdiyimiz məqaləsində Çinin ABŞ-ı və Qərbi tərəfinə çəkmə cəhdinin nə qədər hiyləgər olduğunu izah edirdi. Əfqanıstandakı Taliban rəhbərliyi ilə Çin arasında çox yaxın əlaqələr olduğunu izah edən Helms, Çinin həm İslama, həm də Amerikaya düşmən olduğunu belə ifadə edirdi:

"...Çin və Amerikanın terrorizmə qarşı döyüşməkdə ortaq çıxara sahib olduqlarına dair bir fərziyyə vardır. Nə qədər avam və təhlükəli bir fantaziya... həqiqətdə isə, kommunist Çin hökuməti Orta Şərqdəki bütün terroristlərlə və terroru dəstəkləyən ölkələrlə çox yaxın əlaqələr içindədir..."

Amerikanın terrorizm ilə mübarizəsində Çin ilə ortaq çıxarlar paylaşdığını düşünənlər, böyük ehtimalla bu fərziyyələrini, Çinin Sincan bölgəsindəki xəyali Uyğur terrorizmi ilə olan mübarizəsinə söykəyirlər. Belə düşünmək əxlaqi fəlakət olacaq, çünki uyğurları bizə düşmən olan zərərli fanatiklərlə bir tutmanın heç bir haqlı tərəfi yoxdur. Uyğurlar, Pekinin mərhəmətsiz idarəetməsinə qarşı haqlı bir azadlıq mübarizəsi içindədirlər və bunu da böyük ölçüdə sülh yolları ilə icra etməkdədirlər. Buna görə, böyük bir təzyiqə məruz qalmaqdadırlar, Çin Hökuməti siyasi səbəblərlə insanları həbs etməkdə və işgəncədən keçirməkdə, məscidləri dağıtmaqda və sülhsevər nümayişlər edən insanların üzərinə atəş açmaqdadır.

"Həm strateji həm də əxlaqi olaraq, Amerika Birləşmiş Ştatları, Çini, terrorizmə qarşı ediləcək çözümün bir parçası olaraq qəbul etməməlidir. Əslində, şəxsən kommunist Çin bu problemin böyük bir hissəsidir."

Görüldüyü kimi, Qırmızı Çin torpaqlarında yaşanan həqiqətlərin fərqində olan amerikalılar da, Çinin Şərqi Türküstandakı müsəlman Uyğur türklərinə böyük zülm tətbiq etdiyini və bu səbəblə "terrorizmin həll ortağı" deyil, "terrorizmin bir hissəsi" olduğunu görməkdədirlər.

Bu düşüncə artıq bir çox qərbli tərəfindən paylaşılmaqdadır. Bu haqlı mübarizədən faydalanmaq istəyən bəzi ölkələrin cəhdlərinə qarşı diqqətli olmaq lazım olduğu fərqli insanlar tərəfindən dilə gətirilməkdədir. Məsələn "The Asian Wall Street Journal" qəzeti redaktorlarından Tomas Beal 2001-ci il noyabrın 5-i tarixli yazısında bu həqiqətləri vurğulamaqdadır:

"Amerikaya qarşı reallaşdırılan hücumlar qarşısında Çinin sərgilədiyi saxta qəzəb, bölgənin 18 milyonluq əhalisinin yarısından çoxunu meydana gətirən Sincandakı müsəlman türklərin milli və dini dəyərlərinə istiqamətli on ildir davam edən təzyiqi haqlı çıxarmaq üçün dünya səviyyəsində göstərilən reaksiyanı necə sui-istifadə etdiyini göstərməkdədir. Amerikanın Usama Bin Ladenə qarşı icra etdiyi kampaniyanı dəstəkləyərək, ya da heç olmasa buna qarşı çıxmayaraq nazir Jiang Zeminin ümidi Çinin insan haqları pozuntularını tənqid edən Qərbin simpatiyasını qazana bilmək idi.

Buş hökuməti, Çinin öz içindəki separatçı hərəkətləri Amerikaya qarşı təşkil edilən hücum ilə bərabər tutması cəhdini qəti olaraq rədd etməlidir. Beynəlxalq terrorizmə qarşı başladılan müharibə daxilində Çinin Şərqi Türküstandakı müsəlmanlara əziyyət etməsinə açıq və gizli dəstək olmamalıdır."

Yazısının davamında kommunist Çin idarəetməsinin Şərqi Türküstan xalqına etdiyi böyük zülmə yer ayıran Beal, bu basqının hələ davam etdiyini söyləyir. Beal yazısını bu sözlərlə bitirir:

"...Amerika Pekinin uyğurlara qarşı işlədiyi cinayətlər ortaq olmamalıdır. Çünki uyğurlar Amerikanın niyə terrorizmə qarşı mübarizə etdiyini ən yaxşı anlayan xalqlardan biridir..."

Türkiyə olaraq bizim də Çin ilə olan əlaqələrimizdə bu həqiqəti göz qarşısında saxlamamız, Şərqi Türküstandakı soydaşlarımızın və dindaşlarımızın haqlı mübarizəsinə diplomatik kanallardan dəstək olmamız lazımdır.

Çözüm darvinizmin təməl dayaqlarının ortadan qaldırılmasıdır

Kitabın bura qədər olan hissələrində tez-tez Çin vəhşiliyinin fəlsəfi təməlində Darvinizm və Materializm olduğunu vurğuladıq, kommunizm ilə Darvinizm arasındakı ittifaqa toxunduq. Başqa çalışmalarımızda araşdırdığımız digər bir çox nümunə də, Darvinizmin ortaya atıldığı gündən bəri bütün dünyanı bir müharibə və qarşıdurma sahəsi halına gətirdiyini, irqçiliyi və etnik təmizlik cəhdlərini qızışdırdığını ortaya qoymaqdadır. Yaxşı bəs, Darvinizm ilə müharibə arasındakı əlaqə nədir, necə olur da Darvinizm insanları anarxiya, xaos və qarşıdurmanın içinə çəkə bilməkdə, insanların bunları adi qarşılamasını təmin etməkdədir? Bu sualların cavabını qısaca bu şəkildə maddələr halında göstərə bilərik:

Darvinizmin səhv fikrinə görə insan təsadüflərin əsəridir və bir növ inkişaf etmiş heyvandır. Bu səbəbdən insanın təcavüzkarlıq, mərhəmətsizlik, şiddət kimi heyvani rəftarlar göstərməsində narahatçılıq yoxdur. Həmçinin insan təsadüflərin əsəri olduğuna görə bu rəftarları səbəbiylə kimsəyə qarşı da məsul deyil. Heç bir elmi dayağı olmamasına baxmayaraq yazılı və vizual mətbuatda cəmiyyətlərə davamlı bu təlqinin verilməsi, təhsil qurumlarında bu boş sözün sanki isbat edilmiş həqiqət kimi təqdim edilməsi, insanların fərqinə varmadan Darvinizmin cadusuna qapılmalarına səbəb olmaqdadır. Bu vəziyyətdə insanları sevgiyə, şəfqətə, mərhəmətə və fədakarlığa yönəldəcək bir maddə qalmamaqda, insanlar təbii olaraq cinayət, şiddət və pisliyə yönəlməkdədir.



Darvinizm və Materializm insanlığın irəliləməsinin qarşıdurmaya söykəndiyini qarşıya qoyar və hər cür qarşıdurmanı tərifləyər. Bunun elmi bir həqiqətmiş kimi qarşıya qoyulması və tarix boyunca müxtəlif dövlət adamları, rəhbərlər və hərbi səlahiyyətlilər tərəfindən də dilə gətirilməsi, ardında milyonlarla ölü, on minlərlə şikəst qalmış insan, xarabaya çevrilmiş şəhərlər və ölkələr buraxmışdır. İki dünya müharibəsini geridə buraxan insanlıq dövrümüzdə də, Darvinizmin qarşıdurmanı tərifləyən və irəliləmə üçün bir zərurət kimi göstərən təlqinlərin səbəbi ilə müharibələr, qarşıdurmalar, anarxiya və terror ilə boğuşmaqdadır.

Chinese delegates bring Mao to N.Y.

Darvinizmin təməl təlimlərindən biri də “ancaq güclü olanın həyatda qala biləcəyi” iddiasıdır. Bu səhv düşüncəyə görə gücsüzlər və zəif olanlar əzilməyə və yox olmağa məhkumdur. Həyatı bir mübarizə sahəsi olaraq görən və güclü olanın mərhəmətsiz olduğu müddətcə həyatda qala biləcəyini müdafiə edən Darvinizmin bu məntiqinə görə hər cür haqsız rəqabət məqbul qarşılanmalıdır. Əgər həyat bir mübarizədən ibarətsə, həyatda qala bilmənin tək gücün çatdığı qədər mübarizə aparmaq və özünü qoruya bilmək üçün bu mübarizədə mərhəmətsiz olmaqdır.

Görüldüyü kimi Darvinizm fərdləri və cəmiyyətləri mərhəmətsizliyə və zalımlığa yönəldən, müharibəni bir növ bioloji zərurət olaraq görən, qan tökməyi, əzab çəkməyi və çəkdirməyi inkişaf olaraq qiymətləndirən və bütün bunların dəyişməz bir "təbiət qanunu" olduğunu düşünən bir ideologiyadır. Bu düşüncə quruluşunun bir dövlətin rəsmi ideologiyası halına gəldiyində necə bir dövlət terroru ortaya çıxacağı isə açıqdır.

Məhz bu səbəblə Darvinizmin fikri olaraq məhv edilməsi və ortadan qaldırılması, bu qarşıdurmacı və qan tökücü fəlsəfənin və müxtəlif tətbiqlərinin də ortadan qalxması mənasını verməkdədir. Bunun üçün bir tərəfdən Darvinizmin qaranlıq üzü bütün insanlara ifşa edilməli, digər tərəfdən də insanların Allahı tanıyıb Ona iman etmələri üçün səy göstərilməli və cəmiyyətlərə həqiqi din əxlaqı izah edilməlidir.

Allah insanlara hər zaman ədalətə dəstək vermələrini sülhsevər və tolerant olmalarını, dünyada qarışıqlıq və təxribat törətməmələrini əmr etməkdədir. Bu səbəblədir ki, din əxlaqının özü insanlar arasında sülh, hüzur və təhlükəsizliyin təmin edilməsidir. Vəhyə söykənən hər üç İlahi din də (Xristianlıq, Musəvilik və İslam) qarşıdurmaya və şiddətə qarşıdır. Bu səbəbdən, darvinist fəlsəfənin rədd edilməsi və yerinə din dərrakəsinin hakim olması, insanlar arasında nifrət, kin və qarşıdurma yerinə sevgi, mərhəmət, tolerantlıq, və bağışlayıcılığın yerləşməsi mənasını verəcəkdir.

FƏSİL 7

Nəticə

Bu kitab boyunca, bir tərəfdən kommunist Çinin öz xalqına qarşı tətbiq etdiyi zülmü, bir tərəfdən də Şərqi Türküstanlı müsəlmanlara qarşı icra etdiyi səssiz soyqırımı dəlillərilə araşdırdıq.

İnsanların təsadüf əsəri var olduqlarını və kimsəyə qarşı hər hansı bir məsuliyyətləri olmadığını qarşıya qoyan Darvinizmin səbəb olduğu fəlakətlər bu dərəcə açıq ikən, vicdan sahibi insanlara düşən məsuliyyət, qan tökmə quyusu halına gəlmiş olan bu ideologiya ilə fikri sahədə ciddi bir mübarizə icra etməkdir. Bu mübarizənin əhəmiyyətli bir ölçüsü, Çindəki rejimin bu cür qatı və mərhəmətsiz olmasının təməl səbəbi olan darvinist və kommunist ideologiyaya qarşıdır. Çinin sərbəst bazar iqtisadiyyatını mənimsəməsiylə, bu ölkənin "Qırmızı təhlükə" olduğu həqiqətinin dəyişmədiyini bütün dünyaya izah etmək lazımdır. Pekin idarəetməsinin təməl siyasi düşüncəsi olan Maoist kommunizmə və bunun fikri dayağı olan Darvinizmə qarşı da bir kampaniya icra edilməli, bu ideologiyanın Çində və Kambocaya, Albaniya, Şimali Koreya kimi digər ölkələrdə səbəb olduğu qorxunc insanlıq cinayətlər gündəmdə tutulmalıdır. Darvinizmin və Maoizmin (bütün digər kommunizm versiyalarının) Çin xalqının əhəmiyyətli bir qismi tərəfindən sanıldığı kimi bir qurtuluş ideologiyası deyil, insanları vəhşilik və cinnətə sürüyən böyük bir aldatma və xurafat olduğu ortaya qoyulmalıdır. Kommunizmə qarşı mübarizə lazımlıdır və unutmamaq lazımdır ki, kommunizmin daxili üzünü ortaya çıxarmaq üçün ediləcək hər cəhd, Şərqi Türküstan müsəlmanları kimi kommunist zülm altındakı məzlum millətlərə kömək hökmünə keçəcəkdir.

Bununla birlikdə yalnız müsəlman olduqları üçün zülm, işgəncə və qırğına məruz buraxılan Şərqi Türküstanda yaşayan uyğurların bu vəziyyəti, bütün dünya müsəlmanlarının üzərinə bir məsuliyyət yükləməkdədir. Allah bir Quran ayəsində belə buyurar:

> *Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?*
>
> **(Nisa surəsi, 75)**

Bu ayədə əmr edildiyi kimi, məzlum müsəlmanların qurtuluşu üçün fikri mübarizə icra etmək, hər müsəlmanın vəzifəsidir. Bunun zamanımızın tələblərinə görə, yəni diplomatiya, media, vətəndaş cəmiyyəti cəhdləri kimi üsullarla icra edilməsi və bu yolla Çinin Şərqi Türküstandakı müsəlmanlara qarşı icra etdiyi sistemli soyqırıma qarşı çıxılması lazımdır.

Çin, bu bölgəni dünyaya unutdurmaq, gündəmə gəldiyində isə buradakı məzlum müsəlmanları "terrorist" kimi göstərmək səyindədir. Buna qarşı hər müsəlman, əlindəki hər imkanı istifadə edərək, Şərqi Türküstanda yaşanan zülmü bütün dünyaya eşitdirmək, beynəlxalq quruluşların diqqətini bu mövzuya çəkmək üçün çalışmalıdır. Müsəlmanlar, qəzetlərində, jurnallarında, internet saytlarında bu zülmü gündəmə gətirməli, Şərqi Türküstanın haqlı iddiasına dəstək olmalıdır. Dövlət adamları bu mövzunu gündəmlərində saxlamaları, gərək Çin ilə, gərəksə qərb ölkələrinə olan əlaqələrində bu mövzuda çözüm və ədalət tələb etməli, yurddaşlar dövlət adamlarını bu mövzuda vəzifəyə təşviq etməlidirlər. Vətəndaş cəmiyyət quruluşları bu iddiaya sahib çıxmalı,

Şərqi Türküstan mövzusunda konfranslar, panellər, xatırlama günləri təşkil etməlidirlər. Beləcə həm mövzu beynəlxalq sahədə gündəmə gətirilərək Çin üzərində hüquqi bir sanksiya yaradılmalı, həm də Şərqi Türküstanlı müsəlmanlara, "unudulmadıqları" göstərilərək, mənəvi rahatlıq verilməli və ümidləri təzələnməlidir.

Bunların yanında, bütün dünyaya həqiqi İslamı tanıtmaq, İslamın, terrorizmlə heç bir əlaqəsinin olmadığını, əksinə bu kimi fəlakətləri yer üzündən silmək məqsədi güddüyünü insanlığa göstərmək lazımdır. İslam adına terror etdiklərini iddia edənləri təkzib etmək və lənətləmək, İslamın digər dinlərə olan tolerantlığı və sülhsevər yanaşmasını həm izah edərək, həm də feli olaraq göstərmək əsrimizin əhəmiyyətli məsuliyyətlərindən biridir. Beləcə, zülmə məruz qoyaraq müsəlmanları "terrorist" kimi göstərərək beynəlxalq ictimaiyyətdə simpatiya toplama səyində olan Çin kimi təzyiqçi rejimlərin əlindən bu şans alınacaq, həqiqətlərin olduğu kimi görülməsi təmin ediləcək. Müsəlmanlar, bir "mədəniyyətlər qarşıdurması" axtarışında olmadıqlarını, əksinə hər din və mədəniyyət arasında sülh və uzlaşma istədiklərini, onsuz da bunun Quran əxlaqının bir gərəyi olduğunu ortaya qoymalıdırlar.

Qısacası, müsəlmanlar, dünyaya sülh və hüzur gəlməsi üçün çalışmalı, bu sülh və hüzuru hədəf alan hər cür gücə (bəzən özünü "İslam" maskasına büründürsə belə) etiraz etməlidirlər. Unutmamaq lazımdır ki, sülh və hüzurun yerinə müharibə və qarışıqlığın hakim olması, Quranda keçən ifadəylə bir "fitnə"dir və Allahın lənətlədiyi böyük bir günahdır.

Türkiyəyə düşən tarixi məsuliyyət

Həm Şərqi Türküstanın, həm də İslam dünyasının vəziyyəti haqqında yuxarıda ortaya qoyduğumuz fikirlər, Türkiyə cümhuriyyəti üzərində əhəmiyyətli bir tarixi məsuliyyət olduğunu göstərməkdədir.

Əvvəl Şərqi Türküstan baxımından mövzunu ələ alaq. Şərqi Türküstanlı müsəlmanlara kömək əli uzatması lazım olan bir nömrəli ölkə Türkiyədir. Çünki Şərqi Türküstanlı Uyğur müsəlmanları Türkdür. Danışdıqları dil Türk dilidir. Bizim həm din, həm də soy qardaşlarımızdırlar. Bu vəziyyət Türkiyəyə Şərqi Türküstanın hüququnu müdafiə etmək üçün beynəlxalq bir üstünlük təmin edər. Türkiyənin Makedoniyadakı türklərin və ya Şimali İraqdakı türkmənlərin hüququnu müdafiə etməsi necə beynəlxalq cəmiyyətdə məqbul qarşılanmaqdadırsa, Şərqi Türküstandakı uyğurların hüququnu müdafiəsi də məqbul qarşılanacaq.

Üstəlik, Şərqi Türküstanlı müsəlmanların hüququna sahib çıxmaq və onu müdafiə etmək, Türkiyə üçün eyni zamanda strateji əhəmiyyət daşımaqdadır. Bilindiyi kimi Orta Asiyadakı Türk Respublikalar, Türkiyə, Rusiya və İran kimi fərqli ölkələrin nüfuz mübarizəsinə səhnə olmaqdadırlar. Türkiyənin bölgədə digərlərindən daha çox təsirli olmasının bir yolu, iqtisadi güc və cəhdinin yanında, bölgə xalqlarının sevgi və etibarını daha çox qazanmasını təmin edəcək siyasi cəhdlərdən keçməkdədir. Türkiyənin Şərqi Türküstan iddiasına sahib çıxması, Türküstanın daxilində, yəni Orta Asiyadakı bütün Türk Respublikalarında Türkiyənin güc və iradəsinə olan inancı gücləndirəcək.



Şərqi Türküstanda yaşayan çinlilər ilə Uyğur müsəlmanlarının həyat standartları arasında böyük bir uçurum vardır. Bu vəziyyət Çinin müsəlman xalqını əzmək üçün tətbiq etdiyi siyasətlərin bir nəticəsidir.

Mövzunun ikinci istiqaməti isə, yuxarıda ifadə etdiyimiz "həqiqi İslamı dünyaya bir model olaraq göstərmək" missiyasıdır. Bunu da İslam dünyasında bacarmağa namizəd olan ən əhəmiyyətli ölkə Türkiyədir. Türkiyə, İslamın kökündəki sevgi, hörmət və tolerantlıq prinsiplərini qavramış, müasir ölkədir. Osmanlıdan gələn böyük bir mədəni mirasın və

tarixi səhnənin sahibidir. Qərb dünyası ilə ən yaxşı inteqrasiya olmuş İslam ölkəsidir. İslam dünyası və Qərb arasında qızışdırılmaq istənən süni "mədəniyyətlər qarşıdurması"na qarşı ən təsirli çözüm, Türkiyədən gələ bilər.

Ümid edilər ki, 21-ci əsrdə bu çözüm reallaşacaq və Şərqi Türküstan daxil bütün İslam dünyası, Türkiyənin öndərliyində, sülh və dincliyə qovuşacaq. Şərqi Türküstanın gələcəyi bütün İslam dünyasının gələcəyi kimi Allahın icazəsiylə aydınlıq və nurludur. Bu aydınlığın əlamətləri isə bu gündən meydana çıxmağa başlamışdır. Hər cür təzyiq və zülmə baxmayaraq müsəlmanların dinlərinə və inanclarına sahib çıxmaqda qərarlı olmaları, üstəlik son zamanlarda bütün dünya daxilində din əxlaqına yönəlmənin artması gələcək üçün çox əhəmiyyətli işarələrdəndir.

ƏLAVƏ BÖLMƏ

Təkamül yalanı

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-

özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu

təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr

birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

> **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

Lamarkın təsiri

